Bu bir xalq qəzetidi
ƏDALƏT

## Ağdam Sənaye Parkına qoyulacaq ilkin investisiyanın həcmi açıqlanıb



**İlkin mərhələdə Ağdam Sənaye Parkına 20-25 milyon manatlıq, orta vədəli strategiyada isə 100 milyon manatlıq investisiya yatırılması gözlənilir.**

Bunu Sumqayıt Kimya Sənaye Parkı və Qarabağda yaradılan sənaye zonalarında görülən işlərə dair brifinq zamanı İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə heyətinin sədri səlahiyyətlərini icra edən Elşad Nuriyev deyib.

"Amma bu rəqəmlər dəyişə bilər. Çünki biznes planları təhlil olunur", - E.Nuriyev deyib.

Onun sözlərinə görə, Araz Vadisi İqtisadi Zonası strateji olaraq logistik xəttlərin üzərində yerləşdiyi üçün, xüsusilə də Zəngəzur dəhlizinə yaxın bir ərazidə yerləşdiyi üçün burada daha çox logistik şirkətlərin qurulması gözlənilir.

"İlkin rezidentimiz də artıq var. Araz Vadisi İqtisadi Zonasında rezident olmaq üçün müraciət edən sahibkarlıq subyektləri də var", - E.Nuriyev deyib.

## ERMƏNİLƏR SÜLHMƏRAMLILARDAN PULSUZ İŞÇİ QÜVVƏSİ KİMİ İSTİFADƏ EDİRLƏR



**Lap adamın Qarabağdakı Rusiya sülhməramlılarına yazığı gəlir. Deyəsən onları Qarabağa sülh yaratmağa yox, ermənilər üçün fəhlə göndəriblər, özü də pulsuz fəhlə.**

Ermənilərə ev tikirlər, qəsəbə salırlar, yol çəkirlər, su çəkirlər, abidə qoyurlar. İndi də üzüm bağları salırlar onlar üçün. Nə qayırırsınız qayırın, axırda bizə qalacaq.

Amma arada vaxt tapanda missiyanızı da yerinə yetirin. Sizin bir missiyanız da qaçqınları yurd-yuvalarına qaytarmaqdı axı. Düzdür, gedib İrəvandan Qarabağda qeydiyyatda olmayanları zorgüc gətirirsiniz Xankəndinə. Arada bizim sizin nəzarətinizdə olan ərazidəki qaçqınları da öz yurd-yuvalarına qaytarmaq borcunuzdur.

## Gizlinlər açıldıqca...

Bax: səh.2

## ZƏNGƏZUR DƏHLİZİ AÇILSAYDI GEDƏRDİK İRƏVANA

*və ordan da 80 manata bilet alıb uçardıq İstanbula.*

*Deməli, İrəvan-İstanbul aviayreysi açılıb, həftədə 3 dəfə uçuşdu. İrəvandan İstanbula bilet bizim pula 80 manata, İstanbuldan İrəvana isə 120 manatadır gərək ki. Amma Bakıdan İstanbula biletin qiyməti 330 manatdı.*

## XOŞ GƏLİB SƏFA GƏTİRİB

**Ümumdünya Səhiyyə Təşkilatının ölkəmizdəki nümayəndəsi Hande Harmançı sevindirici bir xəbər verib ki: ""Omikron" ştammı Azərbaycana da gələcək".**

Qoy gəlsin, onun da dadına baxarıq.

Amma hansısa sayt yazmışdı ki, artıq gəlib.

## ELM ALƏMİNƏ İKİ AĞIR İTKİ





**Görkəmli tarixçi-alim, albanşünas Fəridə xanım Məmmədova və görkəmli tarixçi-alim Aydın Balayev Tanrı dərgahına qovuşdular.**

**Allah hər ikisinə rəhmət eləsin!**

## TARİXİ QƏLƏBƏ: Zəfər Paradı ilə qeyd edildi



Bax:səh-2

## PREZİDENT SİRUZ ABASBƏYLİNİ TƏLTİF ETDİ



*Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev sabiq rabitə naziri, akademik Siruz Abasbəylini 3-cü dərəcəli "Əmək" Ordeni ilə təltif edib.*

*Siruz müəllimi təbrik edirik.*

Bu bir xalq qəzetidi
www.adalet.az
# ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
Gündəlik hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 102 (5934) 11 dekabr 2021-ci il
Qiyməti 30 qəpik

## QARABAĞDA UDUZANLAR HEYFİNİ "QARABAĞ"DAN ÇIXIR



**ATƏT-in Minsk qrupunun az qala 30 illik yuxaqulağısulayan həmsədrlərinin hakimliyinə Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə müzəffər ordumuz 44 günlük müharibədə son qoydu. Amma Ermənistan yanlıları hələ də bunu həzm edə bilmirlər, ilişib qalıb mədələrində və onlar bu məğlubiyyətin hayıfını "Qarabağ" komandasından çıxdılar.**

Çempionlar Liqasının hansısa oyununda top qapı xəttini 10 sm. keçmişdi, qol saydılar. Amma bizim vurduğumuz top qapı xəttini 1 metr keçdi, özü də mərkəzi hakimin gözü önündə, yan hakimin gözü önündə saymadılar. Canları sağ olmasın. "Bazel"in futbolçusu əli ilə oynadı, penalti də vermədilər. Yenə canları sağ olmasın.

Eybi yox, əsas odur ki, qrupdan çıxdıq, özü də gözəl oyun nümayiş etdirib çıxdıq.

İnşallah, bunun bütün hayıfını pley-offda artıqlaması ilə çıxacağıq.

**Gözəl oyuna görə Qurban Qurbanov və onun köhlən atlarını təbrik edirik və uğurlar arzulayırıq.**

# Azərbaycanın bütün uğurlarının əsasında Heydər Əliyev dühası dayanır

**Hər bir dövlətin taleyində lider amili əsas faktorlardan biridir. Əksər hallarda cəmiyyətin xilası, dövlətin tərəqqisi məhz lider amilindən asılı olur. Xalqın yetirdiyi liderlər milli ideyaların yaradıcıları kimi çıxış edir və cəmiyyəti bu ideyaların həyata keçirilməsi uğrunda səfərbər edə bilir.**

**Azərbaycanın çağdaş tarixində bu missiyanı xalqımızın ümummilli lideri Heydər Əliyev yerinə yetirmiş, Azərbaycanın milli dövlətçilik konsepsiyasını irəli sürən Ulu Öndər, tarixi ənənələrə və müasir inkişaf meyllərinə əsaslanaraq bu konsepsiyanı böyük uğurla həyata keçirmiş, ölkəmizin inkişaf strategiyasının əsasını qoymuşdur.**

**Azərbaycanın müstəqilliyinin daha da möhkəmləndirilməsi, dünya birliyində öz layiqli yerini tutması, dövlətin xalqa xidmət missiyasını həyata keçirməsi Heydər Əliyevin tarixi xidmətləridir. Ulu Öndər qurub yaratdığı dövlətin hərtərəfli inkişafı üçün iqtisadi, siyasi, hüquqi zəminin yaradılması, onun güclü daxili potensiala malik olması yönündə möhtəşəm nailiyyətlərə imza atmış, dövrün çağırışlarına adekvat reaksiya verərək Azərbaycanın dünyaya uğurlu inteqrasiyasını təmin etmişdir.**

Bax: səh.4



## RUSİYA, İNDİ BİLDİNİZ 30 İLDƏ BİZ NƏ ÇƏKMİŞİK?



**ABŞ Rusiya ilə müharibə şəraitində olan Ukraynaya daha 600 milyon dollarlıq silah-sursat yardım edəcək. Və təbii ki, bu, Rusiyanın kefinə dəyir.**

Əzizim Rusiya, 30 ildi Ermənistana neçə milyardlıq silah-sursat, tank, təyyarə, raket və sair və ilaxır göndərmisən. İndi fikirləş, gör biz nə çəkmişik.

## "SABAH"I BİR AZ TEZ TƏRİFLƏDİK, BİR AZ DA ÇOX



**"Sabah" komandası məşqçisini dəyişdi. İndi komandaya Murad Musayev başçılıq edir. O gələndən komanda uduzmamışdı: iki qələbə, bir heçə.**

Mətbuatda o qədər tərif yağdırdılar ki, gözə gəldi - "Qarabağ"la oyunda 1:5 hesabı ilə məğlub oldu. Amma yenə də uğurlar arzulayırıq.

## ŞƏHİDLƏR ÖLMƏZ, VƏTƏN BÖLÜNMƏZ!

***Bilmirəm bunu ilk dəfə hansı komandanın fanatları edib, amma çox gözəl tapıblar. Ölkə çempionatı oyunlarının 44-cü dəqiqəsində futbolsevərlər ayağa qalxır və düz 1 dəqiqə hayqırır: "Şəhidlər ölməz, Vətən bölünməz!"***

***Eşq olsun!***

## BELƏ GETSƏ, VLASOVA DA HEYKƏL QOYACAQLAR

**Xocavənddə faşist Njdeyə abidə ucaldıblar. Sülhməramlılar da Xocalıda və Xankəndində uruslara və eləcə də ermənisilli uruslara abidə qoyurlar.**

Belə getsə, yəqin İkinci Dünya Müharibəsində öz vətənini satıb faşistlərin tərəfinə keçmiş Njdenin komandiri general Vlasova da heykəl qoyacaqlar.

## CAN AY PAKİSTAN!



***Pakistan Co Baydenin qohum-əqrəbasını, dost-tanışını başına yığıb açdığı "demokratiya süfrəsində" oturmaqdan imtina etdi.***

## İŞIQLI BİR İNSANI İTİRDİK



**Beləcə, millət üçün yanan bir çıraq da söndü. İşığımızın bir çırağı da azaldı.**

Aydın Mehdiyev! Diplomat, jurnalist, ürəyi hər zaman Azərbaycan eşqi ilə döyünən bu gözəl şəxsiyyəti xəstəlik cavan yaşında aramızdan apardı. Azərbaycan xalqı bəlkə də onu çox az tanıyır, amma Azərbaycan ziyalıları onun necə bir çıraq kimi yandığını bilirdilər.

Yandı, yandı və söndü...

Nazim Hikmət necə deyir:

***Sen yanmasan,***
***bən yanmasam***
***nasıl çıkar***
***karanlıklar aydınlıklara?***

Qəbri nurla dolsun.

## ABŞ-ın DEMOKRATİYA SEVGİSİ



*Bayden demokratiya sammiti keçirir. Özünün demokratik sandığı dövlətlərin başçılarını dəvət edib. Ev sahibidi, kimi istəyir qonaq çağıra bilər. Amma ən maraqlısı bilirsiniz nədi? Çin kimi qüdrətli bir dövləti sammitə dəvət etməyib, amma dünyanın heç bir ölkəsinin tanımadığı Tayvanı sammitə dəvət edib. O Tayvanı ki uzun illər bundan əvvəl Çindən ayrılıb, Çan Kayşinin başçılığı ilə və təxminən 10 milyon əsgərlə birlikdə adaya sığınaraq özünü dövlət elan edib. Bir sözlə, ordu dövlətidir.*

*İndi Amerikanın demokratiyasını özünüz fikirləşin.*

## VAKSİNASİYANI PULLU ETSƏYDİLƏR...




**Xalqımızın gözəl bir məsəli var, ucuz ətin şorbası olmaz, ondakı o əti ümumiyyətlə, pulsuz verələr.**

Bütün günü az qala insanlara yalvarırlar ki, COVİD-19-dan qorunmaq üçün vaksinasiya olunun, xeyiri yoxdu. Xüsusilə rayon yerlərində vəziyyət lap acınacaqlıdı. Heç kim könüllü şəkildə vaksinasiya olunmaq istəmir. Xəstəlik isə azalmır. Rəqəmlərə diqqət yetirsəniz testdən keçənlərin 14-18 faiz arası xəstə çıxır.

Və bu da təbiidir ki, bir xəstə neçə-neçə insanın virusa yoluxmasına səbəb olur.

**Operativ Qərargah vaksinasiya ilə bağlı qərarları sərtləşdirməlidir. Əks halda, bu xəstəlik hələ çox uzun sürəcək.**

## "QƏBƏLƏ"DƏN GÖZƏL QƏLƏBƏ

**Bu ilin Azərbaycan çempionatının komandası "Qəbələ"dir. Büdcəsi az olsa da öz akademiyasının yetirmələrinə arxalanan "Qəbələ" həqiqətən gözəl oyun nümayiş etdirib. Futbolçular sübut edir ki, əsas pul deyil, əsas istəkdir.**

Bunu "Zirə" ilə oyunda da gördük. İlin ən yaxşı oyunlarından biri idi. Hər iki komanda sona qədər mübarizə apardı. Qələbə isə "Qəbələ"nin oldu-2:1.

**Baş məşqçi Elmar Baxşiyevi və komandanın bütün üzvlərini təbrik edirik. Fariz Nəcəfova da ayrıca təbrik. Uğurlar!**

## BAKIDAKI KOMANDALARI BÖLGƏLƏRƏ GÖNDƏRMƏKLƏ FUTBOLU İNKİŞAF ETDİRMƏK OLMAZ



**Oxudum ki, AFFA "Sabah" və "Səbail"i də göndərir bölgələrə. "Sabah" Salyan şəhərini "Səbail" isə Qazaxı təmsil edəcək.**

Vaxtilə bu iki şəhərin öz komandaları vardı, deyəsən Salyanınkı "Plastik" idi, Qazaxınkı "Göyəzən". Futbolu belə inkişaf etdirməzlər, dostlar. Qoyun bölgələrdə özləri komandalarını yaratsınlar. Eybi yox, 2-3 il uduzarlar, amma bu, qazaxlıların komandası olar, salyanlıların komandası olar.

**Yoxsa oyun günü "Sabah"ı və "Səbail"i doldur avtobusa apar Salyana və Qazaxa Belə futbol olmaz.**

İradə TUNCAY
iradetuncay@rambler.ru

## ÇÜNKİ...



***İstər-istəməz gözünə soxulur adamın xəbərlər. Telefon əlindədir axı, bütün xəbərləri tezis şəklində çatdırırlar. İki əmioğlu düşmən halına gəlib də üz-üzə durublar. Hətta nüvə müharibəsindən söhbət gedir. Ruslar əməlli quduz görkəm alıblar, ukraynalılar cırmaqlaşır. Vova ilə Sem dayı danışırlar.***

***Qərb ölkələri məsum maskalarını taxıb da soyuq qış günlərində zalım imperialist qüvvələrdən şikayət edir. Milyardlıq Hindistan milyonluq Rusiya ilə dolların istifadə ləğvi barədə anlaşırlar. Absurd... Dolların yiyəsi ölməyib ki... Cəhənnəmə ki, deməyim gəlir... Qıtlıq şəraitində yaşamağa öyrəşmiş adamlarıq. Anam həmişə kibrit, sabun, un, duru yağ saxlayırdı evdə. Müharibə görmüş adamların əksəriyyəti beləydi. Azuqə ehtiyatı olmalıydı. Biz də gördük müharibənin ağrı-acılarını. Dünya böhranını gördük... Pandemiya yaşayırıq... Atam danışırdı - müharibə illərində qış o qədər sərt keçirdi ki, heç ot da bitmirdi... Ki, camaat pəncərdən-filandan yığıb yeyə bilsin. Bədlik gələndə batmanla gəlir... Aclıq olsa?.. Buna cəhənnəmə ki... demək olmayacaq.***

Bax: səh.3

## GÜNÜN LƏTİFƏSİ

**Bir gün bir restorana kişi gəlir. Qarsona deyir bəs sizin soyuq çayınız var? Qarson deyir yox.**

Kişi çıxır gedir. Hər gün bu hadisə 4-5 dəfə təkrar olunur. Axırı qarson bezib restoran sahibinə məsələni danışır.



O da deyir ki, çayı qoy dəmlənsin, sonra qoy soyuducuya, gələndə o kişiyə ver içsin.

Qarson belə də edir. Elə həmin gün kişi gəlir, deyir bala soyuq çayın var?

**Qarson yekə-yekə deyir hə. Kişi deyir onda qoy isinsin, gətir içək.**

# İlham Əliyevdən azad edilmiş ərazilərlə bağlı Sərəncam



**Prezident İlham Əliyev İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Sərəncam imzalayıb.**

Adalet.az xəbər verir ki, Sərəncamda deyilir:

Azərbaycan Respublikasının Ermənistanın işğalından azad edilən ərazilərinin bərpası, milli iqtisadiyyata sürətli inteqrasiyası, dayanıqlı inkişafının təmin olunması, orada ən müasir infrastrukturun və xidmət infrastrukturunun yaradılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu çərçivədə icra olunan layihələr həmin ərazilərin qısa müddət ərzində sülh və əməkdaşlıq bölgəsinə çevrilməsində və iqtisadi inkişafında mühüm rol oynayacaqdır.

Sözügedən ərazilərdə zəngin resurs və infrastruktur potensialından səmərəli istifadə, dövlət?özəl sektor tərəfdaşlığı və ən əlverişli biznes mühiti əsasında iqtisadi fəaliyyətin canlandırılması və əhalinin davamlı məskunlaşmanın təmin olunması ölkənin uzunmüddətli inkişaf prioritetləri ilə vəhdətdə olan tədbirlərlə dəstəklənməlidir.

Sərəncamla işğaldan azad edilmiş ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsi və investisiya cəlbediciliyinin artırılması, müasir və effektiv istehsal, ticarət və xidmət infrastrukturunun yaradılması, innovativ texnologiyaların tətbiqi, sənaye potensialının yaradılması, optimal güzəştlərin və stimullaşdırıcı mexanizmlərin tətbiqi, investisiya və sahibkarlığın mühitinin yaxşılaşdırılması üçün əlverişli şərait yaradılması məqsədilə qərara alınır:

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

Aşağıdakı istiqamətlərdə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

- işğaldan azad edilmiş ərazilərdə iqtisadi resursların və əmək resurslarının səmərəli idarə olunması, onların emal sənayesinin və xidmət infrastrukturunun yaradılmasına yönəldilməsi məqsədilə vergi güzəştlərinin, sosial sığorta və digər güzəştlərin tətbiqi;
- işğaldan azad edilmiş ərazilərdə özəl təşəbbüslərin stimullaşdırılması, investisiyaların təşviqi mexanizmlərinin təkmilləşdirilməsi, həmin ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlar üçün xammal və materialların idxalı ilə bağlı gömrük və vergi güzəştlərinin müəyyən edilməsi;
- işğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlər (elektrik enerjisi, təbii qaz və su istehlakı) üzrə güzəştlərin müəyyən edilməsi;
- müasir bilik və bacarıqlara malik mütəxəssislərin işğaldan azad edilmiş ərazilərə cəlb edilməsi, habelə əmək miqrasiyası kvotasının müəyyən edilməsi və ya icazələrinin verilməsi prosedurunun təkmilləşdirilməsi;
- işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi və bu istiqamətdə zəruri dövlət dəstəyinin gücləndirilməsi;
- işğaldan azad edilmiş ərazilərdə ekoloji təmiz texnologiyaların tətbiq edən, "yaşıl artım" yaradan və bərpa olunan enerji mənbələrindən istifadə edən investorların dəstəklənməsi;
- işğaldan azad edilmiş ərazilərdə yaşayış massivlərinin inşası ilə bağlı dövlət?özəl sektor tərəfdaşlığının inkişafı.

Bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

# Azərbaycan Prezidenti Almaniyanın yeni Kanslerini təbrik etdi

**Azərbaycan Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasının Federal Kansleri Olaf Şoltsa təbrik məktubu ünvanlayıb.**

Adalet.az xəbər verir ki, təbrik məktubunda deyilir:

"Hörmətli cənab Federal Kansler,

Almaniya Federativ Respublikasının Federal Kansleri kimi fəaliyyətə başlamağınız münasibətilə Sizi səmimiyyətlə təbrik edir və ən xoş arzularımı yetirirəm.

Biz Azərbaycan ilə Almaniya arasındakı dostluq və əməkdaşlıq əlaqələrinin inkişafına xüsusi əhəmiyyət veririk. Siyasi, iqtisadi və mədəni sahələrdə səmərəli əməkdaşlığımız dövlətlərarası münasibətlərimizi mühüm amillərdəndir.

İnanıram ki, gələn il diplomatik əlaqələrin qurulmasının 30 illiyini qeyd edəcək ölkələrimiz arasında münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Almaniya xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm".

## MEDİA bu qanun layihəsi barədə fikirlərə münasibət bildirdi

**Medianın İnkişafı Agentliyi (MEDİA) "Media haqqında" Qanun layihəsinin ictimai müzakirəsinin təşkili ilə bağlı bir sıra media nümayəndələri tərəfindən ifadə edilən fikirlərə münasibət bildirib.**

Adalet.az MEDİA-ya istinadən münasibəti təqdim edir:

""Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 9.2-ci maddəsində normayaratma orqanının qərarı ilə normativ hüquqi aktın layihəsinin ictimai və ya peşəkar) müzakirəyə çıxarıla biləcəyi göstərilir.

"İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununun 18.1-ci maddəsində Azərbaycan Respublikasının Konstitusiyasının 96-cı maddəsinin I hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilən qanun layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin Azərbaycan Respublikası Milli Məclisinin Aparatı tərəfindən təşkil edildiyi təsbit olunmuşdur. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun 29.1.10-cu maddəsində isə informasiya sahibinin normativ hüquqi aktların layihələri razılaşdırmaya və ya təsdiq olunmağa göndərildiyi andan onları açıqlamaq öhdəliyi təsbit edilmişdir. Qeyd olunan normaların məzmunundan göründüyü kimi qanun layihələrinin, o cümlədən "Media haqqında" Azərbaycan Respublikası Qanunu layihəsinin ictimai müzakirəsinin təşkili normayaratma orqanının, yəni Azərbaycan Respublikasının Milli Məclisinin səlahiyyətindədir, müvafiq layihələr və ya razılaşdırmaya və ya təsdiq olunmağa göndərildiyi andan açıqlanmalı olduğundan Milli Məclis bu istiqamətdə müddəaların yerinə yetirilməsi məqsədilə qanunvericiliklə müəyyən edilmiş tələblərə uyğun olaraq "Media haqqında" qanun layihəsini açıqlamış, onu media nümayəndələrinin, ekspertlərin, vətəndaş cəmiyyəti institutlarının və bu məsələdə ictimai marağı olan digər şəxslərin müzakirəsinə təqdim etmişdir. Məlumat üçün bildiririk ki, hal-hazırda müvafiq qanun layihəsinin mətni ictimaiyyətin geniş müzakirəsindədir və onun ayrı-ayrı normaların mahiyyəti, məqsədəuyğunluğu strukturu ilə çox saylı media nümayəndələri və ekspertlərin irəli sürdüyü qərarlı fikir mübadiləsi aparılmaqdadır.

# TARİXİ QƏLƏBƏ: Zəfər Paradı ilə qeyd edildi

**2020-ci il 27 sentyabr tarixində 30 illik həsrətdən sonra, Ermənistanın növbəti təxribatına cavab olaraq Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin əmri ilə hərbi əməliyyatlara başlayan Şanlı Ordumuz 44 gün ərzində Ermənistan ordusunu və hərbi texnikalarını məhv edərək Zəfər Qələbəsi çaldı və işğal altında olan torpaqlarımız işğaldan azad edildi. 10 noyabrda Rusiya, Azərbaycan və Ermənistan rəhbərlərinin iştirakı ilə müharibənin dayandırılmasıyla bağlı razılaşma imzalandı, Ermənistan olaraq məğlubiyyətini etiraf etdi və faktiki olaraq kapituiyasiya aktına imza atdı.**

Ermənistan üzərində qazanılan tarixi qələbə 2020-ci il, 10 dekar tarixində paytaxt Bakıda, Azadlıq meydanında keçirilən möhtəşəm Zəfər Paradı ilə qeyd edildi.

Zəfər Paradında çıxış edənAzərbaycan Silahlı Qüvvələrinin-MüzəffərAli Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev inamla,bundan sonra Azərbaycanın yalnız inkişaf edəcəyini, azad edilmiş torpaqlara bundan sonra həyatın qayıdacağını bildirdi: ***"Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. Biz bundan sonra ancaq və ancaq irəli gedəcəyik."***

Tarixi Zəfər paradınaŞuşa şəhəriazad edildikdən sonra, Azərbaycan hərbçiləri tərəfindən şəhər üzərində qaldırılanZəfər bayrağıparada gətirilmişdir. Bu qələbə münasibəti ilə keçirilən möhtəşəm paradAzərrbaycan xalqının tarixi yaddaşında qızıl hərflərlə yazılmış hadisə kimi tarixə düşdü. Vətən müharibəsində Azərbaycanın qələbəsi şərəfinə 2020-ci il dekabrın 10-da Bakının Azadlıq Meydanında keçirilmiş Zəfər paradında 3000 Azərbaycan əsgəri və zabiti ilə yanaşı türk əsgər və zabitləri iştirak etmişdir.ParadıAzərbaycan Silahlı QüvvələrininMüzəffərAli Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevvə fəxri qonaq qismində dəvət olunmuşTürkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qəbul etmişdir. Paraddayerli və xarici rəsmi qonaqlar, diplomatik korpusun nümayəndələri də iştirak etmişdilər.

İki ölkə rəhbərinin paradı birgə qəbul etməsi beynəlxalq ictimaiyyətə verilmiş ciddi mesajdır. Azərbaycan və türk əsgərlərinin çiyin-çiyinə Azadlıq meydanından keçməsi xalqların tarixində əbədi qalacaq qürurverici hadisədir. Həmin günü ölkəmizin bütün şəhərlərininAzərbaycan və Türkiyə bayraqları ilə bəzədilməsi xalqların mənəvi yaxınlığının təzahürüdür.

Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəsinə həsr olunmuş Zəfər paradında150-dək hərbi texnika, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər nümayiş etdirilmişdir.Həmçinin, müharibə zamanı qənimət kimi ələ keçirilmişErmənistan Silahlı Qüvvələrinəməxsus hərbi texnikanın bir qismi nümayiş olunmuşdur.

-Xalqın qürur mənbəyinə çevrilən və ölkədəki bütün siyasi qüvvələri birləşdirən Zəfər,Azərbaycanın ədalətli və məsuliyyətli mövqeyini nümayiş etdirdi. Siyasi partiya rəhbərlərinin birgə bəyanatında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin: "Bizim Ermənistan torpağında siyasi və hərbi maraqlarımız yoxdur" - fikrini sitat gətirməsi Azərbaycanın ədalətli mövqe tutması haqqında xəbər verir.

### *Qəhrəman Azərbaycan əsgəri və qələbə əzmi*

44 günün hər günü şanlı tarixdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, işğala son qoyulsun və tarixi ədalət zəfər çalsın.

44 günlük müharibə dövründə Ali Baş Komandanın əmrini icra etmiş Azərbaycan Ordusu və rəhbərin ətrafında birləşmiş xalqın nümunəsini gördük. Azərbaycan xalqı 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini və Qələbə gününü gözləyirdi. Müharibə dövründə xalq öz dəmir yumruğunu, birliyini və gücünü nümayiş etdirə bildi.



Andına sadiq olan qəhrəman Azərbaycan hərbiçisi müharibə ərzində vətənə, torpağa sadiqliyini nümayş etdirdi.Azərbaycan Ordusunda bir dənə də fərari olmayıb. Yaralı əsgər və zabitlərimiz hərbi hospitallarda, xəstəxanalarda həkimlərdən xahiş edirdilər ki, bizi tezliklə sağaldın, biz qayıdaq döyüş meydanına, biz öz missiyamızı başa vurmalıyıq.Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına bütün dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu. Müxtəlif dairələrdən olan müntəzəm təzyiq və təhdidlərə rəğmən Azərbaycan öz haqq savaşında zəfər çald.

Qardaş Türkiyənindəstəyi Qələbəyə inamı artırdı. Vətən müharibəsinin ilk saatlarından etibarən Azərbaycan xalqı Türkiyənin dəstəyini hiss etdi. Türkiyənin ilk saatlardan Azərbaycanın haqq işinə dəstəyi ədalət naminə savaşda tək olmadığımızı göstərdi.

***Rəsmi İrəvan öz ordusunun yenilməzliyi haqqında mif yaratmışdır. Azərbaycan Ordusu öz qəhrəmanlığı və peşəkarlığı ilə təkcə Ermənistanın silahlı qüvvələrini məhv etməyib, o, Erməni mifini də məhv etdi. Cəmi 44 gün ərzində Ermənistan ordusu məhv edildi, hərbi texnikası məhv edildi, canlı qüvvəsi məhv edildi və Azərbaycan öz gücünü, öz qüdrətini göstərdi. Nəticədə noyabrın 10-da Ermənistan məcbur olub kapitulyasiya aktına imza atdı.***

***Azərbaycan əsgəri müharibənin gedişində də sübut etdi ki, onlar mənəvi cəhətdən də erməni hərbiçilərindən üstündərlər.Ermənistan ordusu hərbi məğlubiyyətlə yanaşı,mənəvi məğlubiyyətədə uğradı. Müharibə dövründə Ermənistan ordusunda 10 mindən çox fərari olub. Təcavüzkar Erməni əsgəri haqq uğrunda savaşan Azərbaycan əsgəri qarşısında dura bilmədi.***

### *Qələbənin əbədiləşdirilməsinə xidmət edən tədbirlər*

***Vətən müharibəsində əldə olunmuş qələbədə payı olan hər bir hərbçi və mülki vətəndaş dövlət tərəfindən mükafatlandırılır. Vətən Müharibəsində qələbə münasibətilə "Zəfər" və "Qarabağ" ordenləri, həmçinin15 yeni medaltəsis olunub-"Vətən Müharibəsi Qəhrəmanı", "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə","Suqovuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" və "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə".***

Həmin orden və medalların təsis olunması Qələbənin əbədiləşdirilməsinin və müharibə iştirakçılarına göstərilən ali diqqətin təzahürüdür.Vətən müharibəsində iştirak etmiş, aparılan döyüş əməliyyatlarının uğurla nəticələnməsinə töhfə vermiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları və mülki işçiləri, habelə müvafiq qurumların ön cəbhədə fədakarlıq göstərmiş əməkdaşları və mülki işçiləri yuxarıda qeyd edilən, həmçinin digər orden və medallarla təltif edilib və bu proses davam edir.

Paytaxt Bakıda Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər muzeyi yaradılacaq.Xalqımızın Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədiləAzərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında Sərəncam imzalayıb, həmçinin Hərbi Qənimətlər Parkının salınmasının təşəbbüskarı olub.

Zəfər qələbəsi münasibəti ilə yaradılan Hərbi Qənimətlər Parkı müharibənin miqyasını və Qələbənin möhtəşəmliyini göstərir. Yaradılmasına bu ilin yanvar ayından başlanılan və 5 hektar ərazini əhatə edən Park paytaxtın Xətai rayonundadır. Parkdakı eksponatlar arasında Silahlı Qüvvələrimizin işğaldan azad olunan ərazilərdə ermənilərdən qənimət götürdüyü 2 mindən çox hərbi avtomobilin nömrə nişanlarından hazırlanan və üzərində "Qarabağ Azərbaycandır!" şüarı əks olunan kompozisiya, Ermənistan tərəfindən törədilən müharibə cinayətləri, o cümlədən döyüş bölgəsindən uzaq olan ərazilərimizin raket zərbələrinə məruz qalması, dinc sakinlərin qətlə yetirilməsi və yaralanması barədə faktlar, düşmən tərəfindən Azərbaycan ərazisinə atılmış "İsgəndər-M" raketinin qalıqları var. Burada Vətən müharibəsinin gedişində düşməndən qənimət götürülən hərbi texnikanın bir qismi, ümumilikdə 300-dən çox eksponat, o cümlədən 150-dək ağır texnika, tanklar, döyüş maşınları, artilleriya qurğuları, zenit-raket kompleksləri, atıcı silahlar, hərbi nəqliyyat sərgilənir. Təqdim edilən eksponatlar, 10 səddən ibarət müdafiə sistemi, sığınacaqlar, hərbi kazarmalar, Vətən müharibəsinin gedişatı barədə məlumatlar Azərbaycana Zəfər qazandıran döyüşləri bir daha göz önündə canlandırmağa geniş imkan yaradır.

***Hərbi Qənimətlər Parkını ziyarət edən hər kəs Azərbaycan Ordusunun qüdrətinin şahidi olur.Hərbi Qənimətlər Parkına gələn hər bir insan Ordumuzun, Silahlı Qüvvələrimizin gücünü görəcək, iradəmizi görəcək. Görəcək ki, bu Qələbəni əldə etmək nə qədər çətin idi. Çünki düşmən 30 il ərzində işğal edilmiş torpaqlarda möhkəmlənirdi, istehkamlar qururdu, səngərlər, sığınacaqlar qazırdı. Bütün bunlara baxmayaraq, Azərbaycan hərbçiləri qəhrəmanlıq, peşəkarlıq, Vətən sevgisi göstərərək, bütün bu maneələri dəf edərək düşməni məğlub etdilər.***

### *Vətən müharibəsində əldə olunmuş Qələbə effektiv ordu quruculuğu siyasətinin vəiqtisadi inkişafın nəticəsidir*

Zəfər paradı zamanı çıxışında Ordu quruculuğunun hər zaman dövlət siyasətinin prioritet istiqaməti olduğunu bildirən Prezident İlham Əliyev qeyd etdi ki, "Biz danışıqlar masasında prinsipiallıq göstərərək, eyni zamanda, güclü ordu yaradırdıq. Bütün bu 17 il ərzində bizim əsas büdcə xərclərimiz hərbi xərclər olmuşdur. Biz istədiyimizə nail olduq. Ordunun döyüş qabiliyyəti möhkəmləndi, yüksəldi, ordumuz müasir silah-sursat, texnika ilə təchiz edildi. Biz bir ölkədən asılı olmamaq üçün bu texnikanı bir çox mənbələrdən almışıq.

Vətən müharibəsi göstərdi ki, Azərbaycanda silahlanma siyasəti düzgün aparılmışdır.Bunun üçün gərək sənin tərəfdaş ölkələrlə sıx əlaqələrin olsun. Çünki silah bazarı çox həssasdır. Burada ancaq kommersiya, biznes maraqları hər şeyi həll etmir. Siyasi məsələlər hər şeyi həll edir. Biz tərəfdaş ölkələrdən elə texnika, elə silahlar almışıq ki, əgər bir mənbədən olan texnikaya bir şey olarsa, bizim ehtiyat imkanlarımız var və İkinci Qarabağ müharibəsi bunu göstərdi.

İkinci Qarabağ müharibəsinin aparılması üçün Azərbaycanda böyük hazırlıq işləri görülmüşdü.

Siyasi sabitlik, vətəndaş birliyi təmin edildi. Xalqın dəstəyini hiss edərək çox inamlı islahatlar aparıldı və siyasi müstəvidə artıq vəziyyət sağlamlaşdı. Beynəlxalq müstəvidə, beynəlxalq təşkilatlar tərəfindən bizə sərf edən önəmli qərarlar və qətnamələr qəbul edildi.

Qələbinin təminatı və rəsmiləşdirilməsi üçün siyasi və hüquqi baza yaradıldı.

Ölkənin iqtisadi qüdrəti qələbə üçün zəmin yaratdı. Azərbaycan inkişaf edərək torpaqları azad etdi. Çünki inkişaf bizim Qələbəmizin əsasıdır. Əgər iqtisadi inkişaf olmasaydı, əgər bizim iqtisadi müstəqilliyimiz olmasaydı, lazımi dərəcədə lazım olan müasir silahlar əldə edə bilməzdik. Azərbaycan enerji müstəqilliyinə nail oldu və tarixi layihələri həyata keçirdi. 2006-2007-ci illərdə neft-qaz kəmərləri inşa edildi. Əgər, o kəmərlər tikilməsəydi, bizim bu qədər vəsaitimiz olmazdı.

Vəsait yoxdursa, silah da olmayacaqdı. Ona görə iqtisadi müstəqillik əsas idi, bu sahədə də hazırlaşdıq. Ermənistanı dalana çevirməli idik. Bütün nəqliyyat, kommunikasiya, enerji xətlərini elə çəkdik ki, onlardan yan keçdi".

**Tarixi qələbəmizi nümayiş etdirən Zəfər Paradı xalqımızın yaddaşında əbədi olaraq yaşayacaq.**

**Hazırladı:**
**Rüstəm Hacıyev**

# Putin və Bayden qəti qərara gələ bilmədilər

**Rusiya prezidenti Vladimir Putin və ABŞ prezidenti Co Bayden göstərdilər ki, dünyanın təhlükəsizliyində öz məsuliyyətlərini dərk edən siyasi realistdirlər. Bu fikirkər, MDU -nin filosofiya fakultəsinin dosenti Boris Mejuyevə məxsusdur.**



Rusiya və ABŞ liderlərinin dünənki video görüşündə əsas məsələ Ukraynadakı vəziyyətin müzakirəsi olub. "Onları bir-birinə bənzədən nöqtələr var. Hesab etmirəm ki, onların münasibətində hər hansı bir "kimya" var. Onlar Avropanın hərbi münaqişəyə çəkilməməsini, bunun hansı nəticələrə gətirib çıxara biləcəyini düşünən məsuliyyətli siyasətçidirlər və dialoqun vacibliyini dərk edirlər. İki siyasi realist, baxmayaraq ki, Bayden əksər vaxtlarda sitasi realizmi açıq ifadə etmək istəmir" -deyə Mejuyev qeyd edib.

Buna baxmayaraq Bayden-Putin arasında siyasi fəlsəfəyə yanaşmalarda fərqlər də mövcuddur. "Danışıqlar daha çox fikir ayrılıqlarını üzə çıxardı. Lakin bunun özü də pis nəticə sayılmamalıdır". Dosentin fikirincə Ukrayna məsələsində Rusiya və ABŞ arasında fikir ayrılığı o qədər fundamental həddə çatıb ki, tərəflər hələ də öz mövqelərindən geri çəkilə bilmirlər. Pozitiv nəticələrdə var, lakin Rusiyanın əleyhinə ultimatumlar da var. NATO - ya üzv digər ölkələr hesab edirlər ki, Rusiya Ukraynaya hər hansı bir formada təzyiq etmək hüququna malik deyil. ABŞ münaqişəni qızışdırmaq fəlsəfəsindən də əl çəkmək istəmir.

Bayden Putinlə danışıqlarda Ukrayna ətrafında baş verən hadisələrdən narahat olduğunu, vəziyyətin diplomatik yolla həll edilməsini istədiyini bildirməklə yanaşı, hərbi eskalasiyanın qızışdırılacağı halda, Qərb kollektiv halda iqtisadi və digər tədbirlər görmək məcburiyyətində qalacaq kimi fikirləri ilə Rusiyanı hədələməkdən də çəkinməyib. Rusiya isə dəfələrlə olduğu kimi, yenə də Qərbin və Ukraynanın ittihamlarını rədd edərək, onların heç kim üçün təhlükə yaratmadığını və heç kimə hücum etmək fikirində olmadığını bildirərək, "Rusiya tərəfindən güya aqressiya təhlükəsi" bəhanəsi ilə sərhədləri yaxınlığında daha çox NATO silahlarının yerləşdirilməsi istəklərini həyata keçirməyə çalışdıqlarını bildirib.

Əslində istər Putin, istərsə də Bayden üçün Ukrayna və s. kimi ölkələrin maraqları önəmli deyil. Hər iki lider yalnız öz dövlət maraqlarını, kimin bu regionda söz sahibi olduğunu göstərməkdən başqa bir şey deyil.

**Rüstəm Hacıyev**

Nicat Novruzoğlu

# Kredit təhsil



*Üzünüzə yazmaq olmasın, içərinizdə bəlkə mənim kimisi, krediti olmayan çox az olar. Kreditdən qorxduğum qədər heç koronadan qorxmuram. Bilirəm ki, korona tutsam ən pis halda canımı qurtaracam bu yüklü həyatdan. Amma kreditə girsəm məni süründürəcək. Nə yaxamı buraxacaq nə də ki, canımı alacaq. Krediti bağlamamış dünyamı dəyişsəm sonra da zaminlərimi sürüdəcək. Day o vaxtacan ki, istədiyini alıb qurtarsın. Əsl pandemiya kreditdir. O üzdən kreditdən qorxuram.*

*Yan yörəm də o qədər mənə həsəd aparan var ki. Deyirlər ki, sən nə xoşbəxt adamsan ki, kreditin yoxdu. Amma deyim ki, mənim də vaxtilə kreditim olub. Dövlət işində işləyəndə məvacibim yaxşı idi. Risk edib iki dəfə götürdüm. Sonra gördüm ki, krediti ödəmək zülüm işdi. Hələ götürdüyüm kreditə görə ödədiyim faizlərin hər ay mənə yaşatdıqların demirəm. O üzdən özümə söz vermişəm ki, ac da qalsam, evsiz də qalsam, maşınsız da qalsam, telefonsuz da qalsam kreditə girməyəcəm. Hələki sözümün üstündə dayana bilirəm.*

*Amma bu o demək deyil ki, kredit götürənləri qınayıram. Əsla. Kreditsiz yaşamaq çətin məsələdi. Neynəməlisiniz ki?! Cammat bahalı telefon işlədir sən niyə kreditə girib o telefondan işlətməyəsən ki?! Nəysə. Telefonu qoyuram bir tərəfə. Konturunuz bitməsin. Mən bu kreditlə dolu olan dünyamızın içinə yenicə atılmış -təhsil tələbə kreditindən yazmaq istəyirəm..*

*Ölmədik bu günü də gördük təhsil haqlarımızı ödəmək üçün tələbələrə belə bir şans verildi. Yazılanlara görə bunun üçün 80 milyon manat da nəzərdə tutulub. Buracan əla. Sonra məlum olur ki, təhsil kreditində faiz dərəcəsi olacaq. Deyirlər ki, az olacaq. Amma olacaq.*

*Bax burda adam qalır məəttəl. Biz təhsildən, tələbədən niyə faiz tutmalıyıq ki? Olmazmı ki, bu vəsaiti tələbələrə faizsiz verək? Ola biməzmi ki, təhsilimiz qazansın, vətəndaşımız qazansın? Tələbədə faiz verərmi? Tələbədən faizmi alarlar? Nuh nəbidən tələbənin cibinə "tələbə adamsan" deyib pul qoyublar ki, pul problemi olmasın fikrin ancaq təhsilin də olsun indi biz onu faizə itələyirik?! Bu tələbə oxuyub dövlət, cəmiyyət üçün yetişirsə elə bunun özü dövlət üçün bir qazancdır da. Bundan böyük faiz var?*

*Yaxşı, tutalım ki, tələbəyə faizlə kredit verdik. Özü də 20 il müddət qoyuruq ki, yavaş-yavaş ödəyərsən. Onda gəlin kredit götürən tələbələrimizin də təyinat məsələsini həll edək. Adını da qoyaq təhsil tələbə təyinatı. Ali təhsillərini bitirən kimi onları işlə təmin edək. Tələbə bilsin ki, bu çətinlik müvəqqətidir. Təhsilini bitirib işləyib kreditini qaytaracaq.*

*İndi bəzi ağzıgöyçəklər başlayacaq ki, o təhsil haqqını 20 ilə böləndə elə də böyük məbləğ eləmir. Yaxşı böyük məbləğ eləmirsə onda faiz niyə tətbiq edirsən?! Tələbə faiz verməsə büdcə dolmaz?*

*20 ildə təhsil krediti olar? Sonra bir 30 illikdə mənzil krediti götürüb ömürü bitirirsən gedir.*

*Məncə pul qazanmaqdan, faiz yığmaqdan ən vacibi elm, savad qazanmaqdır. Faizsiz edin bu krediti. Qoy gənclərimizin yükü azalsın. Özlərini tam elmə həsr etsinlər. Axı onlar bizim gələcəyimizdir.*

# Gizlinlər açıldıqca...

**Son günlər bir sıra qalmaqallı açıqlamalarıyla gündəmə gələn Ermənistan parlamentinin sədri Alen Simonyan son olaraq Rusiyanın bostanına daş atıb. Bu günlərdə Moskvada jurnalistlərlə keçirdiyi görüşdə məşhur "Lavrov planı"ndan söz açan spiker "Qarabağın təhvil verilməsi"ndə Rusiyanı günahlandırıb. Rusiya XİN-in onun bu ittihamına cavabı gecikməyib.**

Rusiya xarici işlər nazirliyindən jurnalistlərə bildirilib ki, Simonyan jurnalistlərlə görüşündə "Lavrov planı"nı xatırladaraq Qarabağın təslim edilməsini Rusiyayla bağlayıb. Həmin söhbətdə "erməni cəmiyyətinin rəyi"nə istinad edən spiker deyib: "Əgər Ermənistanda kimsə nəyisə təhvil vermək istəsəydi, bundan ötrü "Lavrov planı" qarışıq bir neçə variant var idi".



"Reallıqdan uzaq, yalnız təxəyyülün məhsulu olan bir şeyi şərh eləmək çox çətindi. Belə xəyali reallıqdan biri də "Lavrov planı"na aiddi"- deyə nazirlikdən bildiriblər.

XİN-rəsmisi xatırladıb ki, "Lavrov planı"nda Qarabağın "təhvili"ndən yox, problemin mərhələli həllindən söhbət gedirdi. Nizamlama planının son redaksiyasınısa ATƏT-in Minsk qrupu tərəflərə 2019-cu ilin iyununda vermişdi. Həmin planda birinci mərhələdə Azərbaycana beş rayonun qaytarılması nəzərdə tutulur, ikinci mərhələdəsə Dağlıq Qarabağın statusuyla əlaqəli halda daha iki rayonun qaytarılmasından söhbət gedirdi.

"Planda əksini tapan digər məqamlar isə Dağlıq Qarabağ əhalisinin tam həyati fəaliyyətlərinin təmin edilməsi hüququ, Dağlıq Qarabağın nümayəndəsinin ATƏT-in iclaslarında iştirakını, mühasirənin götürülməsi, sərhədlərin açılmasını, tərəflərin güc tətbiq etməməklə bağlı öhdəlik götürməsini, Kəlbəcər və Laçın rayonlarının Azərbaycana qaytarılmasını nəzərə alaraq Laçın dəhlizinin eni məsələsinin həll edilməsini əhatə edirdi"- deyə nazirlikdən bildirilib.

"Dağlıq Qarabağın statusuna gəlincə 2020-ci ilin payızına kimi danışıqlar masası üstündə aşağıdakı təkliflər olub: BMT və ya ATƏT-in eqidası altında tərəflər arasında razılaşdırılmış tarixdə əhalinin azad iradəsini ifadə edən və beynəlxalq hüququn prinsip və normalarına uyğun olaraq məcburi hüquqi xarakter daşıyan ümumxalaq səsverməsi yoluyla DQ-nin statusunun müəyyənləşdirilməsi".

"Bu zaman səsverməyə çıxarılan sual və suallar məhdudlaşdırılmayacaq, tərəflər səsvermənin istənilən nəticəsinə hörmətlə yanaşacaq".

"Bu təkliflər ətrafında tam razılıq əldə olunmasa da hər halda nə Ermənistan, nə də Azərbaycan tərəfindən rədd edilməmişdi." - deyə nazirlik rəsmisi bildirib.

"Faktlar göz qabağındadı: çoxsaylı dinc nizamlanma imkanları əldən verilib, özü də Rusiya Federasiyasının günahı ucbatından yox".

"Həmsədrlərin bu təklifləri bir daha indiki vəziyyətlə müqayisə edin və nəticə çıxardın" - deyə XİN rəsmisi Ermənistana çağırış edib.

Açıqlamada daha sonra deyilir: "Rusiya XİN hətta razı olmadığı məsələlərdə də digər ölkələrin ictimai rəyinə hörmətlə yanaşıb. Bu prinsip Ermənistan kimi dost və müttəfiq ölkələrə münasibətdə ikiqat keşərlidi".

Bəzi erməni siyasətçilərinin Rusiyanın ona məxsus olmayan Dağlıq Qarabağı "təhvil verməsi" ilə bağlı absurd "fikirləri" nəinki təkzib etməməsi, əksinə həmin əsassız mühakimələrlə həmrəy olmaları dərin təəssüf hissi doğurur" - nazirliyin açıqlamasında deyilir.

"Rusiya Federasiyasının bütün, xüsusilə 44 günlük müharibənin dayandırılması, 9 noyabr 2020-ci il, 11 yanvar 2021-ci il üçtərəfli bəyanatlarının imzalanması və reallaşdırılması yolundakı səyləri öz-özlüyündə çox şey deyir. Rusiya ermənilərlə azərbaycanlılar arasındakı münasibətlərin qaydaya salınması, Cənubi Qafqazda sülhü, sabitliyi və inkişafı təmin etməyə hər cür köməklik göstərməykdə maraqlıdı". - deyə açıqlamanın sonunda bildirilir.

***P.S.** Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Minsk qrupunun vasitəçiliyi ilə on illər boyu gedən danışıqların bəzi detalları mətbuata sızsa da təfərrüatlar ictimaiyyətdən gizli saxlanılıb. Artıq mövzunun məxfiliyi əhəmiyyətini itirdiyinə görə onun bütün detalları zaman-zaman mətbuat səhifələrinə yol tapır. Rusiya XİN-in yuxarıdakı açıqlaması da bu qəbildəndi. İndi məlum olur ki, uzun illər bağlı qapılar arxasında Azərbaycana qarşı hansı tələlər ququlubmuş. Və bu gerçəklər üzə çıxdıqca, gizlinlər açıldıqca 44 günlük müharibədəki qələbəmizin də əhəmiyyəti gözümüzdə birə on qat böyüyür.*

ADALET.AZ

İRADƏ TUNCAY

# ÇÜNKİ...

**İstər-istəməz gözünə soxulur adamın xəbərlər. Telefon əlindədir axı, bütün xəbərləri tezis şəklində çatdırırlar. İki əmioğlu düşmən halına gəlib də üz-üzə durublar. Hətta nüvə müharibəsindən söhbət gedir. Ruslar əməlli quduz görkəm alıblar, ukraynalılar cırmaqlaşır. Vova ilə Sem dayı danışırlar.**

**Qərb ölkələri məsum maskalarını taxıb da soyuq qış günlərində zalım imperialist qüvvələrdən şikayət edir. Milyardlıq Hindistan milyonluq Rusiya ilə dolların istifadə ləğvi barədə anlaşırlar. Absurd... Dolların yiyəsi ölməyib ki... Cəhənnəmə ki, deməyim gəlir... Qıtlıq şəraitində yaşamağa öyrəşmiş adamlarıq. Anam həmişə kibrit, sabun, un, duru yağ saxlayırdı evdə. Müharibə görmüş adamların əksəriyyəti beləydi. Azuqə ehtiyatı olmalıydı. Biz də gördük müharibənin ağrı-acılarını. Dünya böhranını gördük... Pandemiya yaşayırıq... Atam danışırdı - müharibə illərində qış o qədər sərt keçirdi ki, heç ot da bitmirdi... Ki, camaat pencərdən-filandan yığıb yeyə bilsin. Bədlik gələndə batmanla gəlir... Aclıq olsa?.. Buna cəhənnəmə ki... demək olmayacaq.**

***

Hər dəfə il başlayanda münəccimlər proqnoz verirlər - gələn il ruzili-bərəkətli olacaq!!! Hələ yeni proqnozları görməmişəm. Ruzi-bərəkətdən danışmaq kinayə etməyə bənzəyərdi. Kimin üçün - onu demirlər... Məlumdu zatən... Dava-dalaş sarıdan bərəkətli olur hər ilimiz... Yalan sarıdan xəzinə lap doludu...Və bu yalanları təsdiq edib tarixə salmaq ənənəmiz də var...

***

Nəsə çoxsaylı böyük qardaşlar da bir qərara gələ bilmirlər. Nə şimaldakılar, nə qərbdəkilər - bilmirlər ki, bizi sevsinlər, ya yox. Şərqli olsaq da burda da bizə yiyə duran yoxdur. Şimaldakıların siyasəti məlum, qərbdəkilərinki zay, şərqlilərin heç yoxdur. Qalır cəhətlərdən cənub. Bəlkə afrikalılarla qohum olaq? Onsuz da gəlib-gedənlər bizimlə qara adam kimi rəftar edirlər. Bəlkə qaralarla birləşsək bir ağ günə çıxarıq? Obama kimiləri olsa lap yaxşı. Yol ayrıcında qalıb it hürən tərəfəmi, yoxsa işıq gələn tərəfəmi sualı adamı çaşdırır. Böyük mədəniyyətlərin və böyük siyasətlərin qovşağında yaşamağın öz çətinlikləri var. Bütün bunları dəf etmək üçün qardaşlarımızdan əxz etdiyimiz bir xasiyyət köməyimizə çata bilər. Bildiniz nəTezis, tezis, tezis... Özünüz yazın (həm də oxuyun), amma siyasi beyinlə yazın... Nifrət artır... Əlac nədir???...

Məşhur bir ifadə var İkinci Dünya Müharibəsinə aid - Elbada görüş. Müttəfiq qoşunlar Almaniyanın sərhədlərini keçəndə görüşməliymişlər. Gizli əmr olur: kim olduğuna fikir vermədən əzib keçmək!!! Müttəfiqlər savaş dövründə Stalini çox aldatmışdılar - ikinci cəbhənin açılmasını uzatmaqla. Artıq müharibə sona yaxınlaşanda hazır tortun böyük tikəsini ələ keçirmək üçün qoşulurlar gedişata. Stalin təbii olaraq bunu bilirdi və ordu hissələrinə də elə müttəfiqləri guya tanımadıqları üçün alman-faşist əsgərləri kimi qırmaq əmri verilmişdi. Nə qədər çox irəli getsələr bir o qədər torpaq Qızıl Orduya aid olacaqdı. Uzun illər bu hadisənin üstündən sükutla keçdilər. Kimsəyə sərf eləmirdi açıqlanması...

Müharibənin öz şərtləri var - şərtlərə sığmayan şərtlər. Və təbii ki, güc diqtə edir çox şərtləri. Stalinlə razılaşmağa məcbur idilər. Şərqi Prussiya Sovetin nəzarətinə keçdi böyük miqyasda. Kalininqrad şəhəri haqqında çoxları eşidib, amma bu şəhərin qədim alman şəhəri Keniqsberq olduğunu nə qədər adam bilir? 1945-ci ilin aprelində şəhər güclü döyüşlər nəticəsində (fikirləşirəm nə yazım - işğalmı? İşğal deyil axı, kim çağırmışdı almanları başqa torpaqlara? Fəth deyim? Bu da alınmır) ələ keçirilir (bu daha uyğun olacaq). Müharibənin əvvəlində 370 min əhalisi olan şəhərin 1945-ci ildəki sayı 20 min idi. Bombardmanlarda həlak olanlar, qaçıb gedənlər... Və gəlirik əsas məsələyə - Potsdam konfransından sonra müvəqqəti olaraq sovetin nəzarətinə keçən şəhər az sonra qatılır sovetin tərkibinə. Bu dəfə həmişəlik. Əhalisi də Almaniyanın başqa bölgələrinə deportasiya olunur... Hamısı... 1947- ci ildə baş verir bu hadisə... İndi Kalininqradda 4 faiz alman qalıb. Onlar da yəqin o vaxtlar ruslarla evlənib qalanlardı...

Bir vaxtlar Lenin Brest sülhünü bağlayanda onu ittiham edənlər çox olub - rüsvayçı şərtlərə razı olduğu üçün. İndiyə qədər də davam edir bu müzakirələr... Hər halda dağılmış ölkəni daha böyük parçalanmadan qurtara bildi. Əvvəldən azadlıq söz verdiyi ölkələr olub - Polşa, Finlandiya kimi. Başqa şərtləri isə zaman və məkan kontekstində həll edib. Məsələn, Atatürklə anlaşıb - 1877-ci ildən Rusiya imperiyasına aid olan Qars vilayətini və ətraf bölgələri verib Türkiyəyə (erməni mənbələri buraları "poteryannaya Armeniya" adlandırır). Halbuki rus əsgəri də qan töküb almışdı həmin yerləri. Qansız qaytardı, anlaşdılar... Bəlkə, anlaşmaq daha məqbuldu? Atatürkdən sonra uzaqlaşdılar bu prinsiplərdən - yurdda sülh, cahanda sülh - deyimindən. Uzaq hədəfləri görə bilmək hər siyasətçiyə xas deyil... Eqolar mane olursa, vətəndaşın zülm çəkəcək... Özləri öz aralarında anlaşıb dil tapsaydılar, biz də virusun çarəsin tapardıq...

Onlar deyir ki, bizə inanmırsız. Biz deyirik ki, inanırıq. Onlar da bizim inandığımıza inanmırlar... Belə qarşılıqlı inam şəraitində keçinib gedirik...

Dedin... inandım. Təkrar elədin... şübhələndim. And içdin... bildim yalan deyirsən...

Bizim asudə vaxtımızla hansı təşkilat məşğul olacaq? Agentlik yaradacaqlar?

Hərənin öz arşını var - hər balaca adamın da, hər böyük dövlətin də. Əgər hər kəs öz kefinə uyğun yox, ümumi qayda-qanuna uyğun yaşasaydı, dünyada hər şey düz olardı. Nə müharibələr olardı, nə dava-şava, nə də narazılıqlar. Ölçü hissini itirən hər hansı şəxsmi, qrupmu, rejimmi, dövlətmi ortaq standartlardan uzaqlaşır və bundan sonra əmələ gələcək münaqişələrə səbəb olur. Bir xalqa məqbul olan, digərinə yaddır. Hətta poetik obrazlar belə eyni qavranılmır. Deyək ki, dilimizin normalarından çıxış edərək kimisə qocaman palıda bənzədirik, ruscaya tərcümədə bunu kimə desək nəticəsi heç yaxşı olmayacaq. Ya da avropalının norma kimi qəbul etdiyi zarafatı şərqli təhqir kimi anlayacaq. Demək, nə qədər ümumi standartlardan danışsaq da hər bir insanın da, xalqın da, dövlətin də öz standartları var. Və hər kəs də öz işini bu ölçülərdən çıxış edərək qurur. Vay o gündən ki, hər hansı ümumi işə xidmət edən qurumların hərəsinin öz ölçüsü yaransın və bu da nəticədə hər kəsin özünün kef standartlarını, normativlərini meydana çıxarsın. Yəni, hər hansı bir yerdə "kefim belə istəyir" prinsipi ilə hərəkət edəndə nəticəsi nə olacaq, özünüz düşünün. Neçə min illərdir din kitabları insanları düz yola çağırır, bəşəriyyətin neçə faizi düzəlib? Neçə min illərdir ədəbiyyat, sənət insanları tərbiyə eləməyə çalışır, nə düzəlib? Konstitusiyalar, qanunlar, cəzalar insanların hansısa bir qismini nədənsə çəkindirə bilir. Böyük faiz öz bildiyini edir və bu şəkildə uğur da qazanır. Arşın kimin əlindədirsə, ədalətin, həqiqətin açarı da onun əlindədir. Ha çığırıb-bağırsanda ki mən haqlıyam, xeyri yoxdur. Güclü kimdirsə, haqlı da odur. İstər xarici siyasətdə, istər daxili. Bununla barışıb yaşamağı öyrənmək lazımdır. Deyə bilərsiniz ki, biz öyrəncəliyik - olsun. Bəzən standartdan kənar standartlara öyrəşmək ağrılı olur. Həmin vaxt atalarımızın bizə miras qoyduğu məsəlləri xatırlayın. Kişilər deyib gediblər, bəhrələnin: "Ağa deyir sür dərəyə, sür dərəyə". Sonra da "ağa durur, ağacan durur". Bir problem var ki, ağaların sayı çoxdur, hansının sözüynən oturub-durmaq məsələsi ortaya çıxacaq... Standartlardan kənar standartlarla yaşamağın çarəsini tapa bilsəydik...

Şərtlər... Və onlara sığmayan şərtlər... Ən böyük şərt isə güclü olmaqdı... Və güc də gücdən fərqlənir...

Bir nəfər hündür budaqlardan düşə bilməyən pişiyi qurtarmaq üçün ağaca dırmaşır. Pişiyi xilas edir, özü isə ilişir qalır ağacda. İtfaiyyə gəlir yardıma. Bizim işlərimizə bənzəyir, eləmi? İnam yaratmaq üçün it-pişik demədən ağaca çıxanlar idarə edir situasiyanı. Nəticə məlum. Nə işdisə yazan-pozanlar əmr kölgəsindən qurtara bilmirlər. Hamının da şəxsi yazanları var - məhz onların dediyi kimi yazmalısan, o zaman sənə rəngli nağıl bəxş edəcəklər.

Və kimsə nəsə bilirsə, elə dəhşət nifrət edirlər ki...Və kimsə özünə hörmət qoyursa, bu da nifrət səbəbidir. Hamı boğaza qədər çirkaba bulaşmalıdı, yoxsa nağıl olmayacaq. Ya da rəngli olmayacaq...

Ekstremal vəziyyətlərdə hamının sifəti açılır.

Köhnələr çox bildiklərindən pislik edirdi, təzələr heç nə bilmədiklərindən... Hansı daha pisdi? Bunu da mən bilmirəm.

Məsləhəti kim verir bu maraqlıdı - Aydan gəliblər? İmperiya dövləti deyilik, saray ənənələrimiz yoxdu, aristokrat ailələrin (yəni kökü məşhur) sayı azdır... Hamı necə yaşayır, həyat tərzi nədi, nəyə inandırmaq olar - bunu bilməyə nə var? Özünüzü niyə San-Fransiskodakı kimi aparırsız ki? İkicə saatlıq hündür yer görən kimi niyə coşursuz???

Uzun illərin acı təcrübəsi boy göstərir hər addımda - dinmə, danışma, hər şey gözəldi...Tamam da, bu qədər adamın ağzına yaylıq atmaq mümkün deyil. Onlar da adını dəyişir və gizli adlarıyla nifrət qusurlar. Öz adlarıyla "bəh-bəh" edirlər, 30-40 gizli adla "lənət olsun" (təxminən) deyirlər. Ürəkdə söz yığışanda ağır olur vəziyyət... Bunun qarşısın necə almaq olar ki???

Efirdə gördükləri ən adi bir adama nələr deyirlər, İlahi... Səbəb çoxdu - adi insan paxıllığından tutmuş, bildikləri yalanlara qədər... Adi tərbiyəsizliklərə qədər...

Məsələn, kiminsə haqqında kütləvi səhifələrə nəsə bir məlumat atırlar, bilərəkdən atırlar. Nəticəsi məlumdu. Bilirlər ki, nə deyəcəklər...Və sonra bir-iki adama tərif yazmaq tapşırırlar... Guya kimdəsə abır qoyublar ki, kimsə də dinləsin... Neçə ildi bu proses davam edir, indi dəyişmək olmayacaq bunu... Hamı özündən istefa versə (özlüyümüzdən)... Görək "nağarajaxlar"...

Elə mövzular var susmaq lazımdı...

Ta özünüz bilərsiz... Sizə qalmış Hamınız ağıl dəryasısız...

***

Nəsə bir yanlışı olanda Fərəhə deyirdim, niyə belə elədin? Cavab verirdi - çünki...

İndi bütün sualların cavabı budur - ÇÜNKİ...

Neçə ilin söhbətidi - Fərəhi qucağıma götürmüşdüm, Sara narazılıq elədi ki, nənə, mən əvvəl yorulmuşdum eee...

Adam demək istəyiree, mən əvvəl yorulmuşdum axı...

***

Fikir verirəm, biz babasız ola bilmirik. Köhnə babaları yola saldıq, təzələri qondu öz "baba"sıynan. Halbuki bir Baba olanda hamı dinc yaşayırdı. Bəşəriyyət çoxdan monoteizmə keçib, bunlar yenə politeizmə qayıdır...

***

**Bataqlığın qaydası budur - çox çabaladıqca, çox batırsan...**

**Tezisləri yeridə bilmək və fikrini təsdiq etmək üçün özünü övliya yerində görmək lazım deyil - inqilab (ya da islahat) etmək üçün çox xırdalıqları düşünmək gərək. Lap böyük imperiyalarda da, lap kiçik qəsəbələrdə də... Bənzər hadisələri xatırlayaq - amma hər şey mətbuatın ələ keçirilməsindən başlayır. Deyək ki, indi mətbuat çoxsahəlidir, böyükmiqyaslıdır, ancaq kökü eynidir. Və ərincəklik etmədən mətbuatı (ən azından imzaları) izləmək labüddür. Yalnız tapşırıqla yazılmış nümunələr yardımçı olmayacaq. Kütlə son vaxtlar elə tərbiyə olundu ki, ya söyür, ya da vəcdə gəlir. Orta həddə yer qoyulmayıb. Və hətta söyənləri təqdir edən məmurlar da mərkəz cinahlarda duran adamları GÖRMÜR!!!**

**Yəni məsələ bundadır ki, insanlar çəpər çəkib ölkələri bölsələr də tsiklonlar, hava axınları sərhəd tanımır. Və kimsə fikirləşirsə ki, başqa ölkələrdəki havalardan mənə nə - böyük səhv eləyir! Eyni fikri siyasi havaya da tətbiq etmək lazımdır. Siyasi tsiklonlar da çox etkiləyici gücdədir. Ən azından pandemiya hamını bir çətir altında birləşdirə bildi...**

Eminquey



# İnsan alveri, kölə bazarı

*Əşyalar dəyərə minir, insanlar ucuzlaşır. Dünyanın yeni yox, amma dəyişilməyən trendi bu olsa gərək. İşsizlik bir ayrı dərd, ucuzdan ucuz işçi olmaq, bir ayrı. Daha çox qazanmaq uğrunda mübarizəni insan alveri üstündən həyata keçirmək. İnsan alveri deyərkən hamının ağlına ilk olaraq orqan alveri, insan satışı ağıla gəlir. Beynimizdə belə daşlaşıb. Amma əsl insan alveri iş müəssisələrində həyata keçirilir. Nə uğruna? Rəqabət! İqtisadi rəqabət insan əməyinin ucuzluğu hesabına aparılır. Məsələn, bugünlərdə oxudum. Banqladeşin təbiəti cənnətdir, amma dərin bir səfalət içindədir, şəhərləri zibil qoxur, palçıqlaşmış zir-zibil yığınları ilə gəzirlər, nəfəs alanda adamın rəngi solur, evlərə heyvan bağlasanız dayanmaz, qaçar, evlərin çoxusunda elektrik yoxdur, yolları keşməkeşlidir, velosiped də eyni yolla gedir, qatar da, fil də, siqnal səsindən baş çatlayar, sahəsi təxminən Türkiyənin beşdəbiri qədərdir, amma əhalisi Türkiyədən iki qat çoxdur.*

*Dakka İstanbulun balaca Beykoz bölgəsi qədərdir, amma 12 milyon insan yaşayır. Sıxlığı təsəvvür edin. Banqladeş ixracat ölkəsidir. Özü də elə-belə yox. Armani, Prada, Gucci, Versace, Hugo Boss, Moncler, Mango, Nike, Adidas, Puma kimi markalar istehsal edirlər. Çünki Banqladeşdə minimum əmək haqqı 95 dollardır. Əslində 65 dollar maaş ödənir, amma kağız üstündə rəsmi olaraq 95 dollar görünür. Gündə 12 saat işləyir Banqladeş insanı.*

*Ölkəsini kölə bazarı halına gətirən siyasətçilərlə, siyasətçilərin ortağı olan kölə taciri iş adamları silahlı mühafizəçilərilə malikanələrdə yaşayır, işçilərsə zir-zibilin içində. Paytaxt Dakkada "Rana Plaza" adlı səkkizmərtəbəli müqavilәli istehsalat binası çökdü. 1134 işçi öldü. Binada beş min işçi işləyirdi. 2500-dən çoxusu ağır yaralandı. Bu kölə plazası iqtidar partiyasına mənsub olan bir siyasətçiyə aid idi. Banqladeşi kölə bazarı olaraq dünya markaları lütf etdilər, bu faciədən sonra işçi maaşını 65 dollara qaldırdılar, o günə qədər isə 45 dollar idi. Dolları partladaraq yaratmaq istədiklәti ixracat modeli budur. Bu ixracat modelində Armani, Gucci istehsal edərsən, amma bunu istehsal edən millər o istehsal etdiyi markaların torbalarını belə ala bilməz. İnsanı ucuzlaşdırsan, istəyirsən dünyanın ən bahalı markalarını ixrac et, ölkəni ucuzlaşdırmış olarsan.*

## Sudanda xüsusi əməliyyat: Türklər xilas edildi



**İki gün əvvəl Sudanın Darfur əyalətində naməlum şəxslər tərəfindən qaçırılan iki Türkiyə vətəndaşı xüsusi əməliyyatla xilas edilib. Bu barədə Anadolu Agentliyi məlumat yayıb.**

**Türkiyəlilərin kimlər tərəfindən hansı məqsədlə qaçırıldığı hələ ki, açıqlanmır.**

**MEHRİBAN**

## Alen Simonyanın "əsir" qalmaqalı və ümidləri Azərbaycanın mərhəmətinə qalmış erməni valideynlər...

**Sosial şəbəkələrdə Ermənistan parlamentinin sədri Alen Simonyanla bağlı video yayılıb və bu video ermeniləri həddən artıq əsəbləşməsinə, etirazına səbəb olub.**

Adalet.az xəbər verir ki, yayımlanan fraqmentdə Simonyan deyir ki, onun üçün heç bir hərbi əsir yoxdur. Simonyan "hərbi əsirləri" fərari adlandırıb:"Çox sayda hərbi əsir və itkin düşənlərin valideynləri Ermənistan Nazirlər Kabinetinin binasının yerləşdiyi Respublika meydanına gedən küçələri bağlamaq üçün





mövcud qüvvələrdən istifadə etmək qərarına gəliblər. O cümlədən, hazırda Abovyan küçəsindən giriş bağlanıb. Hadisə yerində polis xidmət edir, lakin etirazçılar saxlanılmır" -deyib.

Məhz bu videodan sonra Qarabağda gedən müharibədə və Ermənistan-Azərbaycan sərhədində baş verən gərginlik zamanı hərbi əsirlərin və itkin düşənlərin yaxınları Ermənistan hökumət binası qarşısında etiraz aksiyasına başlayıblar. Onlar bu dəfə parlament sədrini hədəfə alıblar:

"Alen Simonyan bizim qarşımıza çıxsın və əsir düşmüş, tkin düşmüş uşaqlarımız haqqında dediklərini izah etsin. Qarşımıza çıxmasa, pis olacaq. Simonyan gəlməyə borcludur. Buradan çıxıb cavab verin. Onun bu sözləri bu deməkdir ki, onun üçün "hərbi əsir yoxdur". Qoy bura toplaşan bütün valideynlərə cavab versin", - deyə aksiya iştirakçıları tələb ediblər.

**Ümidləri Azərbaycanın mərhəmətinə qalmış erməni valideynlər hökumətin onların suallarına cavab verənə qədər dirəniş göstərəcəyini bildiriblər.**

**Ə.Rəşid**

# Yol hərəkəti qaydalarına əməl etsələr...

**Ötən ay respublikamızda baş vermiş yol-nəqliyyat hadisələri zamanı 50 nəfərdən çox insan dünyasını dəyişib. Təbii ki, bu qəzalar heç də təsadüfən baş verməyib. Yəni, bütün hallarda hərəkət iştirakçıları yol hərəkəti qaydalarını pozublar və nəticədə də belə faciəli anlar yaşanıb.**

Baş Dövlət Yol Polisi İdarəsinin inspektoru, polis baş leytenantı Toğrul Nəsirli "Ədalət"ə bildirib ki, baş vermiş qəzalar bizi çox narahat edir. Çünki o qəzalar zamanı ölən və xəsarət alan insanlar olur. Təkcə ötən şənbə, yəni dekabrın 4-də və 5-də respublikamızda baş verən qəzaları xatırlamaq kifayətdir. Bu qəzalar zamanı neçə-neçə insan vəfat edib və neçəsi də xəsarət alıb. Baş vermiş qəzaların ən başlıca səbəbi sürücü və piyada məsuliyyətsizliyidir.




Çünki bəzi sürücülər və piyadalar diqqətli olmur, yol hərəkəti qaydasını pozur və bu cür ağır faciələr baş verir. Ona görə də sürücülər sükan arxasında olarkən daha diqqətli olmalı, surət həddinə əməl etməli, manevr qaydalarına diqqət yetirməli, ötmə əməliyyatını yerinə yetirərkən məsuliyyəti unutmamalıdılar. Piyadalar isə birmənalı olaraq təyin olunmuş yerlərdən - yerüstü və yeraltı keçidlərdən, zolaqlı xətlərdən istifadə etməlidirlər. Əgər hər bir hərəkət iştirakçısı yol hərəkəti qaydasına əməl etsə, qəzaların sayı da aşağı enər.

Toğrul Nəsirli bir daha sürücülərə və piyadalara müraciət edərək bildirdi ki, onlar daha diqqətli olmalı, yol hərəkəti qaydalarına riayət etməli, bütün hallarda metroloji şəraiti nəzərə almalıdırlar. Həm sürücülərə, həm də piyadalara tövsiyə edirik ki, yağışlı hava şəraitində hər an diqqətli olsunlar və baş verə biləcək hər hansı qəzaya münbit şərait yaratmasınlar. Əgər belə olsa, aydındır ki, baş verən qəzalar da ya azalar, ya da heç olmaz.

**Emil FAİQOĞLU**

## *Ukrayna Rusiyanın sayıqlılığını yoxlayır*



**Ukrayna hərbi gəmisinin Kerç boğazına yaxınlaşmasını " həyazıscasına təxribat" adlandıran Krım senatoru Sergey Setov RİA Novostiyə müsahibəsində bildirib ki, Kiyev yəqin ki, bundan sonra belə təxribatlar törətməkdən çəkinər.**

Dünən Ukrayna HDD-na məxsus "Donbass" gəmisi Kerç boğazına tərəf istiqamət götürüb, qarşı tərəfin istiqaməti dəyişmək tələblərinə əhəmiyyət verməyib. Daha sonra isə əks istiqamətə qaıdıb. Onların bu hərəkəti Rusiyanın təhlükəsizlik xidməti tərəfindən dənizlərdə təhlükəsizliyə əməl etməmək, təxribat kimi qiymətləndirilib. "Bu bizim sayıqlığımızı yoxlamaq üçün atılan addım idi. İndi, düşünürəm ki, bu insidentdən sonra Kiyev bu cür təxribatlardan əl çəkər"- deyə Seyov bildirib.

## *Kreml Baydendən hansı təminatı gözləyir*

**Video fofmatda baş tutan Rusiya və ABŞ liderlərinin danışıqları zamanı Vladimir Putin amerikalı həmkarı Co Baydenə NATO -nun Ukraynanı hərbi cəhətdən zəpt etməyə çslışdığını xatırladaraq, Ukraynadaxili böhranın yaranmasında Rusiyanın günahlandırılmasının düzgün olmadığını bildirib.**

"Məsuliyyəti Rusiyanın çiyinlərinə yükləmək lazım deyil. Məhz NATO bizim potensial sərhədlərimiz yaxınlığında Ukrayna ərazilərini zəbt etməklə öz silahlarını yerləşdirmək istəyir" -deyə Kremlin mətbuat xidməti bildirir.

Rusiya prezidenti qeyd edib ki, Rusiya tərəfi alyansın qərb istiqamətlərə doğru genişləndirilməyəcəyi barədə, hüquqi cəhətdən etibarlı təminat almaq istəyir.

Bayden və Putin nümayəndələrinə istiqamətdə işə başlamaları barədə tapşırıqlar verib.

**Rüstəm Hacıyev**

## *"Taliban" Pakistanla atəşkəs razılaşmasını uzatmaqdan imtina edib*



**Pakistandakı "Taliban hərəkatı" ("Təhrik-i-Taliban Pakistan") rəsmi İslamabad ilə atəşkəs razılaşmasının müddətini uzatmaqdan imtina edib.**

Məlumatı "Dawn" qəzeti yazıb. Bildirilib ki, "Taliban" hökuməti 6 maddəlik razılaşmanı pozmaqda və hərəkatın silahlılarına qarşı hərbi əməliyyatları davam etdirməkdə ittiham edib.

"Belə bir şəraitdə razılaşmanı uzatmaq mümkün deyil", - "Taliban" bildirib.

Hərəkatın lideri Nur Vəli Məhsud Pakistanın hökumət qoşunlarına qarşı silahlı fəaliyyəti bərpa etmək haqqında əmr verib.

Məlumata görə, bu il noyabrın 8-də rəsmi İslamabadla hərəkat arasında biraylıq atəşkəs haqqında razılıq əldə olunmuşdu.

**MEHRİBAN**

## *Siyasi şərhçi hazırkı durumu dilə gətirdi: "Təəssüf ki, bu, özünüaldatma idi"*

**Ötən ay erməni siyasi şərhçi Razmik Akopcanyan maraqlı bir açıqlama ilə çıxış etmişdi: "Ermənistanın və erməni xalqının bəlalarında türklər, yaxud ruslar günahkar deyil. Başımıza gələnlərin hamısında yeganə günahkar biz özümüzük".**

O demişdi ki, müharibəni uduzan hökuməti də məhz erməni xalqının özünün seçdiyini unutmaq olmaz:

"İndi boş-boş danışmağın heç bir mənası yoxdur. Düşmən axtarmaq da gərəksizdir. Paşinyan və onun komandası, bütün diktator rejimlərdə olduğu kimi, əvvəlcə üzlərinə xalqın hüquqları uğrunda mübarizə aparanlar maskası taxdılar. Onlar peşəkarcasına yalanlar danışdılar və erməni xalqı inandı. Bu isə illüziya imiş. Həmin ilğım çox cazibədar görünürdü.

İndi Ermənistan xalqı bunu yavaş-yavaş anlamağa başlayıb. Artıq Ermənistan başa düşür ki, Azərbaycanı qəzəbləndirmək olmaz. Bu dəfə Bakı qəzəblənsə, Ermənistan xəritədən silinəcək. Bizə nə Qərb, nə Rusiya, nə də İran kömək edə biləcək", - deyə erməni ekspert qeyd etmişdi..

Adalet.az xəbər verir ki, bu gün isə erməni siyasi şərhçi Razmik Akopcanyan Ermənistandakı kritik vəziyyətlə bağlı növbəti bir açıqlama verib. O hazırkı durumu



belə ifadə edib: "Ermənistanda siyasi həyat getdikcə istedadsız aktyorların və dəhşətli rejissorların yaratdığı sonsuz bir tamaşaya çevrilir.

Hakimiyyət rəsmiləri və nə vaxtsa hakimiyyətin rəsmisi olan, indi isə özünü müxalifət kimi qələmə verənlər çox utancverici bir mənzərə yaradıblar.

Bəs adi vətəndaş o zaman nə etsin? Pis və dəhşətli arasında seçim etməlidir? Bəli, deyəsən bizim taleyimiz budur - gözümüz hara baxırsa, ora da qaçmaq! "

**Daha sonra o ermənilərin yaşam tərzinidən danışaraq deyib ki, ermənilərə elə gəlirdi ki, onlar fərqlidirlər - fərqli düşüncəyə, fərqli dəyərlərə malikdirlər:"Təəssüf ki, bu, özünüaldatma idi. İndiki şəraitdə isə erməni vətəndaşı nə etməlidir? Yeganə çıxış yolu ölkədən qaçmaqdır. Təəssüf ki, getdikcə daha çox insan bunu yeganə həll yolu kimi görür".**

***P.S. Biz tərəfdə isə deyirlər ki, nə tökərsən aşına, o da çıxar qaşığına... Ermənilər əslində əkdiklərini biçir .***

**Əntiqə Rəşid**

# Erməni təxribatının qarşısını necə alaq: "Bir əsgərimizə qarşılıq 10 erməni əsgərini məhv etməliyik"

**Xəbər verdiyimiz kimi, Azərbaycan- Ermənistan dövlət sərhədinin Kəlbəcər rayonu istiqamətində dekabrın 8-i gecə saatlarında Ermənistan silahlı qüvvələri növbəti təxribat törətdib. Təxribat nəticəsində hərbi qulluqçumuz əsgər Əliyev Asif Adil oğlu şəhid olub.**



Ermənini hücum etməyə, atəşkəsi pozmağa maraqlı edən, ürəkləndirən nədir dedikdə elə həmin gün olan siyasi görüşmələri izləmək lazım gəlir.

Ötən gün səhər saatlarında Rusiyanın xarici işlər naziri Sergey Lavrovla Ermənistanın XİN rəhbəri Ararat Mirzoyanın telefon danışığı olub.

Adalet.az erməni mediasına istinadən xəbər verir ki, bu barədə Ermənistan XİN məlumat yayıb. Xəbərdə deyilir ki, nazirlər Qarabağla bağlı məsələlərin geniş spektrini müzakirə ediblər. Məsələnin ATƏT-in Minsk qrupunun həmsədrliyi çərçivəsində hərtərəfli və uzunmüddətli həllinin vacibliyi qeyd edilib.

Çox maraqlı bir nüansa diqqət edək: Qarabağ Azərbaycanın tərkib hissəsidir. Bunu Rusiya Prezidenti Vladimir Putin də dəfələrlə təsdiq edib. İndi Lavrovun Qarabağı Mirzoyanla müzakirəsi nə qədər düzgün addımdır? Əgər bütün dünya da Qarabağı Azərbaycanın tərkib hissəsi olduğunu inkar etmirsə, əgər Azərbaycan öz ərazilərində idarəçiliyi bacarırsa, "ATƏT-in Minsk qrupunun həmsədrliyi çərçivəsində hərtərəfli və uzunmüddətli həllinin vacibliyi" ni niyə Lavrovla, Mirzoyan qərara almalıdır?

Bu söhbətdən sonra ermənilər ürəkləndilər. Kəlbəcərdə atışma başladı və bir əsgərimiz də ermənin başladığı bir təxribatın qurbanı oldu.

Müharibədən sonra,daha doğrusu zəfər günündən sonra onlarla əsgərimiz təxribat qurbanı olub. Bunların qarşısını necə almaq olar deyib düşünürkən Milli Məclisin deputatı Razi Nurullayevin mediaya verdiyi açıqlamasını əlimizdə rəhbər tutmağın lazım olduğunu bilməliyik:

"Azərbaycan Ermənistana elə bir dərs verməlidir ki, onlarla erməni məhv edilməli və texnikaları sıradan çıxarılmalıdır. Onlar bilməlidir ki, törətdikləri hər təxribatın cavabını 15-20 dəfə daha ağır şəkildə alacaqlar . Bir əsgərimizə qarşılıq 10 erməni əsgərini məhv etməliyik."

**Deputat Razi Nurullayevin fikirlərinə qatılmamaq mümkün deyil, əks halda erməni həyasızlığı davam edəcək, Azərbaycan ailələri, xüsusən, anaları gözüyaşlı qalacaq.**

**Əntiqə**



Faiq QİSMƏTOĞLU

# Biz şəhidləri sevirikmi?!

*...Kimə bu sualı versən, hamı bir ağızdan deyəcək ki, biz şəhidləri sevirik, hətta onların yolunda ölümə getməyə belə hazırıq. Amma insanları söz yox, ən çox əməl qane edir. Onsuz da sözdə biz hamımız "Vətən, sənə qurban olum, Vətən canım sənə fəda!" deyirik. Ancaq Vətənə hər adam canını fəda vermir. Sözdə deyir, əmələ gələndə isə aradan çıxıb ilim-ilim itir. Ha axtarırsan, tapa bilmirsən...*

*Gəlin, baxaq görək İkinci Qarabağ savaşında şəhid olanlar kimlərdir? Bu, Böyük Vətən müharibəsində biz 3 min şəhid verməşik. Və 3 min şəhidin hamısı kasıb balasıdır. Elə valideyn var ki, İkinci Qarabağ savaşında 2 övladı şəhid olub. Şəhid anası, şəhid bacısı, şəhid xanımı o cənazəni çiyninə alıb və bununla öz şəhidinə ehtiramını bildirib. Həm də o cənazəni çiynində aparan şəhid anası, şəhid bacısı, şəhid xanımı düşünür ki, bununla bir təsəlli tapar və son borcunu doğmalarına verər...*

*Mən şəhid dəfnlərində çox iştirak etmişəm. Onları evlərinin həyətlərindən qəbiristanlığa qədər kənd camaatı çiyinlərində aparıb. Çiyin verə bilməyən qaçıb əlini təsəlli üçün şəhidin cənazəsinə toxundurub. Çünki bir kənddə, bir eldə o şəhidi minlərlə insan son mənzilə yola salıb. Və o minlərlə insanın hər birinə vaxt çatmır ki, şəhid cənazəsinə çiyin versin. Və çiyin verməyənlər də bayaq dediyimiz kimi, əllərini o cənazəyə toxundurub. Ki, bu da bir təsəllidir!...*

*Biz həmişə deyirik ki, şəhidlər unudulmur. Amma zaman göstərir ki, xeyr, bu, belə deyil. Bəzən şəhidlər də unudulur, onların doğmaları da, övladları da. Amma biz onu düşünürük ki, şəhidləri unutmaq Vətəni yaddan çıxarmaq deməkdir... Şəhidləri unutmaq özümüzü unutmaqdı... Şəhidləri unutmaq hardasa bir içiboşluq, Vətənsizlik, sevgisizlik deməkdir...*

*...Biz şəhidlərə onların layiq olduğu qiymətləri hələ də tam verə bilməmişik. Şəhidlər dəfn olunanda cənazə namazına duran insanlara molla deyir ki, bu şəhidə nə etmisiniz, halal edin! Biz şəhidlərə heç nə etməmişik, nə edibsə, onlar bizə ediblər, onlar qanlarını bizə halal etmədilər. Biz də onların qanı tökülən Vətən torpağının hər qarışını sevməliyik. Sevə bilirikmi?!*

*Bu gün televiziyalarda şəhidlərlə bağlı sujetlər göstərilir. Düzdü, bəzi televiziyalar onlarla bağlı verilişlər də hazırlayırlar. Amma bu, çox azdır. Ən azından ona görə ki, hər hansı şəhidin döyüş yolu iki dəqiqəlik sujetlə tamaşaçıya çatdırıla bilməz və bu iki dəqiqəlik sujetdə ən yaxşı halda onun qəhrəmanlığının bir epizodu barəsində insanlar xəbər tutur. Qalan qəhrəmanlıqları haqda biz çox şeyi bilmirik. Bax, bu, bizim yaralı yerimizdir...*

*...Heç bir televiziya kanallarının xətrinə dəymək istəmirəm. Onlar şou proqramlarına ayrılan vaxtın çox yox, beşdə birini vətənpərvərlik mövzusunda, şəhidlərin sevilməsinə və tanınmasına həsr etsələr, dünya dağılmaz. Dünya onda dağılır ki, bir düşük müğənniyə iki saat vaxt ayrılır, bir şəhidə on dəqiqə zaman ayırmaq müşkül məsələyə çevrilir. Və həmin verilişlərin də, yəni şou proqramların bir yox, on beş sponsoru olur. Məsələn, "Həmin Zaur" verilişinin səkkizə yaxın sponsoru var, qoy olsun, bir şey demirik. Çünki özəl kanallar o sponsorun hesabına yaşayır və əməkdaşlarına maaş verirlər. Hətta elə sponsor var ki, bir küçə müğənnisinə 200 min manatlıq avtomobil bağışlayır. Bu da onun öz işidir. Pulu var, verir və bu gün pullu adamların çoxu elə də savadlı və vətənpərvər insanlar deyillər...*

*Yaxşı, indi şəhidlərlə bağlı vətənpərvərlik mövzusunda verilişlərə sponsor niyə tapılmır? Axı bu sponsorlar həmin şəhidlərin hesabına milyon qazanırlar. Sadəcə olaraq, bəlkə də bu mövzunun təbliğatına pul ayıranlar tapılar. Ancaq onları arayıb-axtarmaq lazımdır...*

*...Mənim də İkinci Qarabağ savaşında şəhidim olub. Onlardan biri bibim nəvəsi, Füzuli rayonunun Böyük Bəhmənli kəndində anadan olan Elçin Tehran oğlu Süleymanovdur. Elçin Cəbrayıl və Füzuli uğrunda olan ağır döyüşlərdə iştirak edib. Ölkə prezidenti tərəfindən 4 medalla təltif olunub. Onun atası Tehran Süleymanov düz 1 ildir döymədiyi qapı qalmayıb. Ancaq bu günə qədər şəhid Elçin Süleymanovun adı əbədiləşdirilməyib. Çox qəribədir, bəzi məmurlar şəhidlərin adının əbədiləşdirilməsində sanki maraqlı deyillər. Və istəyirlər ki, onlar unudulsun və insanlar bu şəhidləri tanımasınlar. Yaxşı, onların adını əbədiləşdirmək belə çətindirsə, heç olmasa, üç min şəhidimiz var. Hər biri haqqında dövlət və özəl televiziyalar qoy yarım saatlıq veriliş hazırlasınlar. Bu, həm şəhidlərin yaddan çıxmamasına, həm də onların doğmalarına bir təsəlli olar...*

*Televiziyalar hər gün "manıs"ları və millətin tanımadığı ara müğənniləri saatlarla təbliğ edir. Qoy olsun. Amma hər televiziya kanalı hər gün bir saat da şəhidlərimizə zəhmət çəkib veriliş ayırsınlar. Çünki hələ müharibə bitməyib və hələ heç o şəhidlərin kəfəni də saralmayıb və hələ o şəhidlərin atalarının, analarının, bacılarının, xanımlarının, övladlarının göz yaşı da qurumayıb...*

*Bax, biz hamımız o şəhid ailələrinə arxa dura bilərik, söykək ola bilərik. Sadəcə olaraq on milyonluq xalqın hamısı sözdə yox, əməldə şəhidlərimizi sevməliyik. Onların qanı axan yerdən, ayaqları dəyən yerdən öpməliyik. Biz indi ziyarət üçün Məkkəyə, Mədinəyə yox, İkinci Qarabağ savaşında torpağa qanı tökülən şəhidlərimizin ziyarətinə getməliyik. Onların övladlarını, əzizlərini qorumalıyıq. Çünki onlar tək şəhid deyillər, həm də Vətəndirlər, Azərbaycandırlar, Qarabağdırlar. Biz Azərbaycanı, Vətəni, Qarabağı seviriksə, hər bir şəhidin xatirəsini əziz tutmalı və ona sevgi ilə yanaşmalıyıq. Hamımız yanaşa bilirikmi?! Qoy bu suala hörmətli oxucular cavab versin...*

## Belə su vermək olmaz



**Çox qəribədir ki, suyun qiyməti 100 faiz bahalaşsa da, yenə əhaliyə fasiləsiz və keyfiyyətli su verilmir. Hansı ki, məlum qurum suyun qiyməti qalxanda bildirdi ki, xidmətin keyfiyyəti və eləcə də suyun keyfiyyəti yüksələcək. Təəssüf ki, biz bunu görmədik. Məsələn, Suraxanı rayonunun Yeni Günəşli yaşayış sahəsinə su yenə qrafik əsasında verilir. Yəni, həmin binalar səhər və axşam saatlarında su ilə təmin olunur.**

Bir neçə gündür ki, "D" massivinin 13 nömrəli binasına axşam saat 6-da su verilir. Bir də görürsən ki, saat 7-də dayanır. Həmin vaxtı hamamda yuyunan və çimən adamlar elə sabun içində qalır.

Əfsuslar olsun ki, bu cür formada binalara su verilməsi heç də əhalini razı salmır. Çünki insanlar əvvəlki qrafikə öyrəşiblər. Üstəlik də bu cür qeyri-dəqiq rejimə keçirilməsi sudan istifadə edən sakinlər arasında çox böyük narazılıq yaradır. Ona görə də əlaqədar qurumlar zəhmət çəkib əvvəllər necə Günəşli sakinlərini su ilə təchiz edirdisə, bundan sonra elə etsinlər. Yoxsa qəfil suyu kəsməklə sakinlər arasında çox böyük narazılıq yaranacaq.

**Emil FAİQOĞLU**

# Azərbaycanın bütün uğurlarının əsasında Heydər Əliyev dühası dayanır

**Hər bir dövlətin taleyində lider amili əsas faktorlardan biridir. Əksər hallarda cəmiyyətin xilası, dövlətin tərəqqisi məhz lider amilindən asılı olur. Xalqın yetirdiyi liderlər milli ideyaların yaradıcıları kimi çıxış edir və cəmiyyəti bu ideyaların həyata keçirilməsi uğrunda səfərbər edə bilir.**

Azərbaycanın çağdaş tarixində bu missiyanı xalqımızın ümummilli lideri Heydər Əliyev yerinə yetirmiş, Azərbaycanın milli dövlətçilik konsepsiyasını irəli sürən Ulu Öndər, tarixi ənənələrə və müasir inkişaf meyllərinə əsaslanaraq bu konsepsiyanı böyük uğurla həyata keçirmiş, ölkəmizin inkişaf strategiyasının əsasını qoymuşdur. Azərbaycanın müstəqilliyinin daha da möhkəmləndirilməsi, dünya birliyində öz layiqli yerini tutması, dövlətin xalqa xidmət missiyasını həyata keçirməsi Heydər Əliyevin tarixi xidmətləridir. Ulu Öndər qurub yaratdığı dövlətin hərtərəfli inkişafı üçün iqtisadi, siyasi, hüquqi zəminin yaradılması, onun güclü daxili potensiala malik olması yönündə möhtəşəm nailiyyətlərə imza atmış, dövrün çağırışlarına adekvat reaksiya verərək Azərbaycanın dünyaya uğurlu inteqrasiyasını təmin etmişdir.

Ümummilli lider Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, tarixi ilə qürur duyduğu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır. Onun uzun illər Azərbaycana rəhbərlik etməsinin özü Heydər Əliyev şəxsiyyətində formalaşan, müstəqilliyə və xalqına sədaqət, millilik və vətənə məhəbbət hissindən qaynaqlanan inamın təzahürüdür.

XX əsrin ikinci yarısının mürəkkəb ictimai-siyasi və beynəlxalq geopolitik situasiyası fonunda 1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin Plenumunda Heydər Əlirza oğlu Əliyev MK-nin birinci katibi seçildi. Məhz bu unudulmaz tarixdə Azərbaycan Respublikasında dönüş mərhələsinin, tərəqqi və inkişaf strategiyasının təməli qoyuldu. Tarixi avqust plenumunda Azərbaycan xalqının dahi rəhbəri, Ulu Öndərimiz geniş və əhatəli nitqlə çıxış edərək, respublikanın iqtisadiyyatını dərin və hərtərəfli təhlil etdi, təsərrüfata rəhbərlikdə, mədəni quruculuqda, ideoloji işdə ciddi nöqsanların olduğunu xüsusilə qeyd etdi və həmin nöqsanları, neqativ halları aradan qaldırmaq yollarını göstərdi. Plenumda həmçinin, dövlət əmək intizamını möhkəmləndirmək, respublikada mədəni-psixoloji iqlimi sağlamlaşdırmaq vəzifələrini təşkil edən məsələ də Ümummilli Lider Heydər Əliyev tərəfindən irəli sürüldü. Ulu Öndər Heydər Əliyev qısa müddət ərzində, respublikada idarəçilik sistemində köklü islahatlar apararaq, bu sistemi təməlli şəkildə xeyli möhkəmləndirdi. O, ilkin olaraq, bütün dövlət hakimiyyəti orqanlarının işini xalqın iqtisadi, sosial-mədəni tərəqqisi və milli oyanış siyasətinin reallaşmasına yönəltdi.

70-ci illərdə Azərbaycanın bütün başlıca iqtisadi göstəricilərində yüksək artım templəri müşahidə edildi. Respublikanın güclü elmi-texniki və istehsal potensialına söykənərək iqtisadiyyatın mühüm istiqamətlərinin inkişafı ardıcıl mərhələlər üzrə həyata keçirildi. Kənd təsərrüfatı təyinatlı maşınqayırma sənayesində daha əhəmiyyətli yeni müəssisələrin yaradılması sahəsində ciddi işlər görüldü.

Yuxarıda qeyd etdiyimiz kimi, hələ sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə cəmi bir neçə ildən sonra dövlət müstəqilliyinə qovuşacaq Azərbaycanın gələcək inkişafı üçün zəruri əsasları formalaşdıran Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışı təkcə iqtisadi, sosial sferada sürətli inkişaf, daxili siyasi sabitliyin yaranması, Azərbaycanın beynəlxalq birliyin həqiqi müstəqil subyektinə çevrilməsi ilə məhdudlaşmamış, milli, ideoloji zəmində də heyrətamiz nəticələrin əldə olunmasına, bəşəri ideallarını cəmiyyətdə daha sürətlə intişar tapmasına gətirib çıxarmışdır. Bununla da Azərbaycan 1990-cı illərin əvvəllərində hakimiyyətdə olan qüvvələrin səriştəsizliyi ucbatından üzləşdiyi anarxiyadan, siyasi hərc-mərclikdən, çoxsaylı digər problemlərdən, ən əsası isə yenicə qazandığı suverenliyini itirmək təhlükəsindən xilas olmuş və demokratik özüllər üzərində dayanan, Avratlantik məkana inteqrasiya kursu seçən milli dövlətçiliyinə qovuşmuşdur. Bununla yanaşı, ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında əsl dönüş yaranmış, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlanmışdır.

Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycanda yeni bir siyasi mərhələ başlanmış, ölkəmiz vahid Avropa ailəsinə qəbul edilmişdir. Azərbaycan dövlətçiliyi ona qarşı yönəlmiş qəsdlərdən uğurla çıxmış, ümummilli liderin qətiyyəti xalqa ruh yüksəkliyi gətirmiş, insanlarda gələcəyə inam formalaşmış, cəmiyyətdə sabitlik və əmin-amanlıq yaranmışdır.

Heydər Əliyevin 1993-cü il iyunun 15-dən oktyabrın 3-dək Ali Sovetə rəhbərlik etdiyi dövrdə parlamentarizm ənənələri yeni nəfəs, yeni qüvvə aldı. Zəngin idarəçilik təcrübəsinə və yenilməz iradəyə malik belə bir tarixi şəxsiyyətin ölkədə yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycanın müstəqil dövlətçiliyini, siyasi varlığını məhv olmaq təhlükəsindən xilas etməklə yanaşı həm də Azərbaycan parlamentarizm tarixində yeni bir dövrün başlanğıcını qoydu. Heydər Əliyev parlamentin sədri kimi Azərbaycanın strateji maraqları əsasında ölkənin yeni xarici siyasət konsepsiyasını, onun beynəlxalq münasibətlər sistemində yerini müəyyənləşdirdi. Parlamentin sədri vəzifəsində fəaliyyət göstərən Heydər Əliyev qanunun aliliyi, azad vətəndaş cəmiyyəti prinsiplərinin bərqərar olması zəruriliyini dəfələrlə vurğulayırdı: "Azərbaycan Respublikası demokratik yolla getməlidir, Azərbaycanda həqiqi demokratiya prinsipləri yaranmalıdır, inkişaf etməlidir, Azərbaycanda siyasi plüralizmə imkan yaradılmalıdır. Azərbaycan çoxpartiyalı bir cəmiyyət kimi yaranmalıdır, partiyaların fəaliyyətinə şərait yaradılmalıdır, Azərbaycan bazar iqtisadiyyatı yolu ilə, sərbəst iqtisadiyyat yolu ilə getməlidir. Azərbaycanda milli həmrəylik, insanlar, siyasi partiyalar, qurumlar arasında sülh və sağlam rəqabət əhval-ruhiyyəsi yaranmalıdır".

Heydər Əliyev bu qısa müddətdə parlamentin ruhunu kökündən dəyişdi, Milli Məclisə siyasi mədəniyyət gətirdi.



Onun iclası aparmaq tərzi, fikirlərini dəqiq əsaslandırması, çıxışların məğzini tutmaq bacarığı, qiymətli fikirləri ümumiləşdirmək qabiliyyəti özlüyündə parlamentin üzvləri üçün yeni bir örnək, əsl parlamentarizm məktəbi idi. Heydər Əliyevin Ali Sovetin sədri vəzifəsində çalışdığı qısa zaman kəsiyində Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət kimi gələcək inkişafının təməli qoyuldu.

Təcrübəli dövlət xadimi kimi xarici siyasət məsələlərinə həmişə xüsusi önəm verən böyük tarixi şəxsiyyətin dünyanın müxtəlif ölkə və təşkilatlarında etdiyi qətiyyətli çıxışlar, ən nüfuzlu beynəlxalq tribunalardan milli məqsədlər üçün məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin həm bu günü, həm də gələcəyi baxımından müstəsna rol oynamışdır. Ümummilli liderin xarici sferada həyata keçirdiyi siyasətin əsasını sülh, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət kimi fundamental məsələlər, o cümlədən mehriban qonşuluq prinsipləri, qarşılıqlı surətdə faydalı əməkdaşlıq məsələləri təşkil etmiş, bu istiqamətdə də konkret addımlar atılmışdır.

İdarəçilikdə humanizm prinsiplərini rəhbər tutan Heydər Əliyev demokratik və sivil cəmiyyətin qurulmasının fundamental əsaslarından olan qanunun aliliyinin təmin edilməsinə daim xüsusi diqqət yetirmişdir. Bu kontekstdə hakimiyyət bölgüsünü xarakterizə edən islahatların həyata keçirilməsi istiqamətində konkret addımlar atmış, imzaladığı hüquqi sənədlərlə mülki cəmiyyətin formalaşmasında mühüm nailiyyətlərin əldə olunmasını təmin etmişdir. Ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün real zəmin yaratmışdır. Ulu Öndərin rəhbərliyi ilə hazırlanan müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası, bu baxımdan, Azərbaycanın milli dövlətçilik tarixinin ən əhəmiyyətli faktlarından biridir. Dövlətin idarə olunmasında hakimiyyət bölgüsünün Avropa təcrübəsinə uyğun həyata keçirilməsini özündə ehtiva edən Konstitusiya hüquqi, demokratik dövlət quruculuğu işində mükəmməl bir sənəd rolunu oynayaraq demokratik cəmiyyətin başlıca prinsip və meyarlarını müəyyən etmişdir.

Böyük dövlət adamının rəhbərliyi ilə Azərbaycanın sürətli tərəqqisini şərtləndirən mühüm cəhətlərdən biri də iqtisadi sahədə aparılan islahatlardan ibarət olmuşdur. Özəlləşdirmə prosesinə start verilməsi, torpaq islahatlarının uğurla başa çatdırılması, xarici investisiyaların ölkəmizə axınını təmin edən strategiyanın həyata keçirilməsi Azərbaycanın azad bazar iqtisadiyyatı mühitində ilk uğurlu addımlarına təkan vermişdir. Bütün bu addımlar sayəsində ölkədə makroiqtisadi sabitlik təmin edilmiş, əvvəlki hakimiyyətlərin səriştəsiz siyasəti nəticəsində böhran mərhələsinə qədəm qoymuş inflyasiyanın qarşısı alınmışdır. "Güclü iqtisadiyyatı olan dövlət hər şeyə qadirdir" deyən Ulu Öndərin həyata keçirdiyi siyasət nəticəsində ölkədə yaranmış daxili sabitlik və dünya miqyasında Azərbaycanın artan nüfuzu 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adı ilə yeni tariximizə düşən ilk transmilli xarakterli neft müqaviləsinin imzalanması ilə nəticələnmişdir. Belə bir müqavilənin imzalanması və müqavilədə dünyanın əksər qütblərini təmsil edən transmilli korporasiyaların özünə yer alması Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən strategiyanın təntənəsi idi.

Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə milli-mənəvi dəyərlərimiz bərpa edilmiş, onun qətiyyəti, apardığı uğurlu daxili və xarici siyasət sayəsində ölkəmiz xaosdan xilas olmuş, sivil demokratik inkişaf yolu ilə inamla irəliləyərək böyük nailiyyətlər qazanmışdır. Heydər Əliyev öz gücünə, təcrübəsinə güvənən dahi siyasətçi kimi dəfələrlə söylədiyi məşhur kəlamına sadiq qaldığını sübuta yetirmişdir: "Azərbaycanın dövlət müstəqilliyi daimidir, əbədidir, dönməzdir".

Heydər Əliyevin xalq qarşısında göstərdiyi misilsiz xidmətlər sırasında xüsusi diqqət çəkən məqamlardan biri də ümummilli liderin formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi, ölkə sərhədlərindən kənarda yaşayan soydaşlarımız da daxil olmaqla azərbaycanlıların vahid ideologiya ətrafında bir araya gəlməsi məqsədilə gördüyü işlərdir. Bu, bir tərəfdən soydaşlarımız arasında milli-mənəvi dəyərlər sisteminin sabitləşməsinə xidmət edən mühüm addım idisə, digər tərəfdən, yenicə müstəqillik qazanan bir dövlətin müasir dünya nizamının formalaşmasında heç də az rola malik olmayan diaspor, lobbi qüvvələrinin təşəkkül tapması demək idi. Milli dirçəliş problemi Heydər Əliyevin fəaliyyəti ilə strateji dövlət siyasətinə, elmdən, sosiologiyadan və fəlsəfədən əməli siyasət müstəvisinə keçmişdir. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında diasporun rolu qənaətbəxş səviyyəyə yüksəlmişdir. Aparılan məqsədyönlü iş sayəsində dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaranmış, bu məqsəd uğrunda mübarizə geniş vüsət almışdır. Ulu öndərin memarı olduğu Azərbaycan isə dünyanın müxtəlif ölkələrində məskunlaşan soydaşlarımız üçün güvənc, milli iftixar mənbəyinə çevrilmişdir.

Ümummilli Liderin ən böyük xidmətlərindən biri Azərbaycan dövlətinin sonrakı dövr üçün inkişafını, xalqın bugünkü və gələcək rifahını, təhlükəsizlik, sabitlik və tərəqqi şəraitində yaşamasının dönməzliyini təmin edən siyasi xadimi yetişdirməsi oldu. 2003-cü ilin ortalarında Ulu Öndərin qəbul etdiyi vacib qərarlardan biri cənab İlham Əliyevin sonrakı 5 illik dövr üçün prezidentliyə namizədliyinin irəli sürülməsi idi. Yeni Azərbaycan Partiyası da bu qərarı yekdilliklə dəstəklədi. Xalq böyük səs çoxluğu ilə cənab İlham Əliyevi dövlət başçısı seçməklə bu davamlı inkişafın təmin olunmasına böyük dəstək verdi. Sevindirici haldır ki, Ulu Öndərin ideyaları, inkişaf strategiyası bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, yeni yüzilliyin tələblərinə uyğun olaraq daha da zənginləşdirilir, dövlət başçısının yorulmaz və gərgin fəaliyyəti ilə ölkəmizin malik olduğu müasirlik, demokratiklik, hüquqilik, dünyəvilik kimi parametrlər daha da güclənir.

Xüsusilə qeyd etməliyik ki, Ulu Öndər Heydər Əliyevin layiqli siyasi varisi, ölkə Prezidenti, Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyümüzün bərpa edilməsinə nail olduq. Bu gün biz bu qələbənin sevincini, onun doğurduğu fəxarət hissini yaşayırıq.

**Eyni zamanda, biz bu gün Ulu Öndər Heydər Əliyevi böyük ehtiramla yad edirik. Çünki məhz onun müəyyənləşdirdiyi yolla inamla irəliləyən xalqın iradəsi bizi öz ərazi bütövlüyümüzə qovuşdurdu. İnanıram ki, bu yol Azərbaycanın bundan sonra daha da qüdrətli ölkə olmasına öz töhfələrini verəcək.**

**Aqil MƏMMƏDOV,**
**Milli Məclisin deputatı**

# Görüş yeri dəyişmir...

## *Filologiya elmləri doktoru, professor Məhəmmədəli Mustafayevin xatirəsinə*

**...Elə insanlar var ki, onları heç vaxt, heç zaman yaddan çıxarmaq, unutmaq olmur. Çünki o insanlar sağlıqlarında dostlarının, qohumlarının və yaxınlarının qəlbində özlərinə əbədi məskən salıblar. Və dünyalarını dəyişəndən sonra da elə o yaxınların, qohumların, dostların xatirəsində yaşayırlar. Çünki bu cür insanlar zamanında özünün qiymətini və dəyərini verməyi bacarıblar...**

...Belə böyük ziyalılardan biri də 30 ildən çox dostluq elədiyim, bir yerdə işlədiyimiz jurnalist, publisist və filologiya elmləri doktoru, professor Məhəmmədəli Mustafayevdir. O Məhəmmədəli müəllim ki, təpədən-dırnağa səmimiyyətdən, şirinlikdən və sadəlikdən yoğrulmuşdu. Alim olduğuna baxmayın. O qədər sadə adam idi ki, kim nə deyirdi, ona inanırdı. Hətta balaca uşaq belə onu aldada bilərdi. Çünki o, hamıya inanırdı...

...Ölümündən 20 gün qabaq, iyul ayında onunla həmişə görüşdüyümüz yerdə - metronun "Neftçilər" stansiyasının yaxınlığındakı dairədə, daha dəqiq desək, daş saatın və ev alveri olan yerin yanında görüşürdük. Həmişə də deyərdi ki, mən ora çox öyrəşmişəm. Ən azından ona görə ki, işdən sonra bir saat, yarım saat orda gəzib, təmiz hava almasam ürəyim partlayar. Elə biz də Asif Talıboğlu, Lətif Novruzov və bu sətirlərin müəllifi gəlib onunla həmin yerdə görüşərdik. Sonra da üç qardaş gedib bir kafedə əyləşərdik, çörək kəsərdik və bir-birimizə ürəyimizi boşaldardıq.

Bəzən heç ürəyimizi axıra qədər boşalda bilmirdik. Yəni, deyilməyən sözlər ürəyimizdə qalırdı. Avqust ayında dünyasını dəyişəndən sonra mən həmin yerlərə gedəndə elə bilirəm ki, yenə Məhəmmədəli müəllim qarşıma çıxacaq, yenə Lətif Novruzovla, Asif Talıboğlu ilə zarafatlaşacaq və deyəcək ki, Asif, sən Allah, o Faiqə yazdığın şeiri de, bir az gülək. Bax, hər dəfə o yerə gedəndə gözlərim onu axtarır, gözlərim dolur və qəhərlənirəm...

...Məhəmmədəli Mustafayevlə dostluğumuz uzun olub. Onun qardaşı elmlər namizədi Azər Mustafayevlə də yaxın dost olmuşuq. Füzulidə, bizim evdə dəfələrlə görüşmüşük, bir tikə çörək kəsmişik. Yəni Azər müəllimlə də bizim dostluğumuz olub. Məhəmmədəli müəllim dünyasını dəyişəndən sonra elə onun qoxusunu



Azər müəllimdən alırıq. O mənə zəng edir, mən də ona. Və hər dəfə də Məhəmmədəli müəllimi xatırlayırıq. Hər qardaş bu qədər qardaşına sədaqətli olmur. Onu dostlarını, yoldaşlarını yada salır. Amma Azər müəllim çox sağ olsun, həmişə bizi arayıb axtarır.

...Və 20 günə yaxın idi ki, hər dəfə mənə zəng edib deyirdi ki, Asif müəllimi götürün, gəlin "Neftçilər"də görüşək. Mənim də sözün açığı, səhhətimdə bir az problem vardı və bir də dünyasını dəyişən yaxın qohum olmuşdu. Ona görə də görüşə bilmirdik. Amma bu şənbə, yəni dekabrın 4-də rəhmətlik Məhəmmədəli müəllimlə görüşdüyümüz yerdə - daş saatın yaxınlığında görüşməli idik. Və görüşdük də. Azər Mustafayev, Asif Talıboğlu və mən yenidən görüş yerini dəyişmədən həmin ünvanda bir daha görüşə bildik. Buna görə Allahıma şükür edirəm. Çünki yaxın dostumu, qardaşımı ziyarət eləmək elə onu ziyarət eləmək demək idi. Azər müəllimlə qucaqlaşıb öpüşürük. Hər üçümüzün gözləri dolur. Asif Talıboğlu hələm-hələm kövrələn deyil. Görürəm ki, gözləri dolub və dəsmalını çıxarıb göz yaşını silir. Amma Azər müəllim daha təmkinlidir. Deyir ki, siz Məhəmmədəli müəllimin ən sədaqətli dostlarısınız. Elə ona görə də həmişə sizi arayıb-axtarıram...

...Tanış kafelərin birinə gedirik. Azər müəllim maşının sükanı arxasında əyləşir, biz də arxada. Elə maşın da həmin kafenin yanında dayanır. Deyəsən, kafenin sahibi də Azər müəllimi yaxşı tanıyır. Üç qardaş kabinetlərdən birinə keçirik və stol arxasına əyləşirik. Stolun üstünə ləziz yeməklər gəlir. Amma heç birimizin əli ora uzanmır. Azər müəllimin təkidindən sonra əlimizi süfrəyə uzadırıq. Allah verdiyindən bir tikə çörək kəsirik. Və sonra Məhəmmədəli müəllimlə bağlı bir-birindən şirin xatirələr danışırıq. Onun nə qədər duzlu, şirin və səmimi olması ilə bağlı bir daha ötən günlərə qayıdırıq. Çünki Məhəmmədəli müəllimin hər sözü, hər kəlməsi və hər fikri bizim üçün çox yadda qalan olub. 10 ildən çox idi ki, AMEA-nın Ədəbiyyat İnstitutunda baş elmi işçi vəzifəsində çalışırdı. Az müddətdə doktorluq işi müdafiə etdi və neçə-neçə elmi məqalələr yazdı. Onunla yanaşı, ədəbiyyat tarixi ilə bağlı 400 səhifəlik çox sanballı bir dərslik kitabını araya-ərsəyə gətirdi...

...O, axtarmaqdan, yeniliklərdən və eyni zamanda öz üzərində işləməkdən yorulmurdu. İnanın, onun qədər kitabxanaya gedən, oxuyan, öyrənən ikinci bir adam tanımırdım. "Neftçilər"də görüşəndən sonra zarafatlaşar, deyərdi ki, mən sizin kimi bekar-behtin adam deyiləm. İndi burdan çıxıb Axundov adına kitabxanaya gedəcəm. Elə də edirdi. Bizimlə xudahafizləşib, çantasını götürüb ya şəxsi maşınında, ya da metro ilə dediyi ünvana gedərdi. Özü də nə az, nə çox, 4-5 saat kitabxanada işləyərdi və sonra da zəng edərdi ki, möhkəm yorulmuşam. Bəlkə yenə gələsiz görüşdüyümüz yerə. Amma biz ikinci dəfə həmin yerə uzaq olduğu üçün gələ bilmirdik...

...Məhəmmədəli Mustafayevin elmi fəaliyyətinə AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli, Ədədiyyat İnstitutunun sabiq direktoru, akademik rəhmətlik Bəkir Nəbiyev, həmin institutun direktor müavini, professor, Dövlət Mükafatı laureatı, Əməkdar elm xadimi, Məhərrəm Qasımlı çox yüksək qiymət veriblər. Hər üç böyük alim Məhəmmədəli müəllimin istedadının, axtarışının və zəhmətkeşliyinin şahidi olublar. Məhz buna görə də ona çox böyük dəyər veriblər. Təbii ki, insan öz dəyərini alanda onun yazmaq, yaratmaq və axtarmaq həvəsi birə-beş daha da artır.

...Süfrə arxasında söhbətimizdə Asif Talıboğlu da, qardaşı Azər müəllim də, Məhəmmədəli Mustafayevlə bağlı o qədər şirin xatirələr danışdılar ki, mən elə bildim ki, qardaşımız Məhəmmədəli bizim yanımızda əyləşib. Hətta Azər müəllimə kövrələ-kövrələ dedim ki, bax, bu dördüncü stulda Məhəmmədəlinin ruhu əyləşib. Biz nə danışırıqsa, ona aydın olur. Biz nə deyiriksə, onun ruhu sevinir. Çünki qardaşımız Məhəmmədəli müəllimin də ruhu elə bi-



zim yanımızda idi. Və düşünürəm ki, çoxlarının qəlbinə, ürəyinə və iç dünyasına yaxın olan Məhəmmədəli müəllim bu gün də sağdır. Və hər dəfə onun barəsində Lətif Novruzovla, Asif Talıboğlu ilə, Daşdəmir Əjdəroğlu ilə danışanda bir daha yəqin edirəm ki, o, bizim üçün heç vaxt ölməyib. O, mənim, Azər müəllimin, Asif müəllimin, Daşdəmir müəllimin, Lətif müəllimin ürəyindədi. Ürəkdə olan sevgini isə heç kim çıxara bilməz...

...Və bir daha yəqin edirəm ki, bu dünyada yaxşı adam olmaq lazımdı. Qəlblərdə, ürəklərdə yuva salmaq, yer tapmaq insanın əbədi yaşaması deməkdir. Allaha and olsun ki, Məhəmmədəli ilə dostluq elədiyim bu 32 ildə bir dəfə olsun kiminsə qəlbini qırmayıb. Məndən çox onun səhvinə görə danlayan adam yox idi. O da nə deyərdim razılaşardı və sonra da özünəməxsus yumorla bildirərdi ki, məndən 2 yaş böyüksən də, nə deyirsən düz deyirsən. Onunla o qədər yuxusuz gecələrimiz, yol yoldaşlığımız, çətin anlarımız və sıxıntılarımız olub ki. Hamısını da özümüz dəf eləmişik...

...Azər müəllimlə görüşəndən sonra həm mənim, həm onun, həm də Asif müəllimin çiynindən ağır yük götürülür. Çünki Məhəmmədəli müəllim ilə bağlı bütün xatirələrimizi bölüşə bildik. Ona olan sevgimizi, məhəbbətimizi və sədaqətimizi bir daha göstərməyi bacardıq. Biz göstərdik ki, insanlar dostluqda sədaqətli olanda onlar heç vaxt unudulmur. Elə qardaşı Azər müəllim də ayrılanda bizə bunları dedi. Ayrılmamışdan öncə yenidən qucaqlaşdıq, yenidən öpüşdük və yenidən kövrəldik. Və göz yaşlarımızda Məhəmmədəli müəllimin bir daha işartısını, sevgisini gördük. Axırda da Azər müəllim dedi ki, mən fəxr edirəm ki, qardaşımın sizin kimi dostları var. Onun qoxusunu sizdən alıram və elə bilirəm ki, qardaşım sağdır.

...Bu sözdən sonra üçümüzün də gözü dolur və üçümüz də ruhən və qəlbən çox sakitik. Bu payız günündə, xəzan çağında Məhəmmədəli Mustafayevi xatırlamaqla bir daha dünyasını dəyişən bütün yaxınlarımız, doğmalarımız, əzizlərimiz yada düşür. Mən həmişə demişəm və yenə deyirəm. Dünyasını dəyişən iş yoldaşlarımla, dostlarımla dostluğumuz davam eləməsə də, onların övladları, qardaşları, doğmaları ilə dostluğumuz davam edir. Nə vaxta qədər canımızda nəfəs var, ayaq üstəyik və bu dostluğu yaşadacağıq.

**Məhəmmədəli Mustafayevə "Allah rəhmət eləsin" demirəm. Çünki alimlər, yazıçılar, şairlər sağdılar. Və o da mənim ürəyimdə, qəlbimdə və iç dünyamdadır. Tək mənim deyil ey, bütün dostlarımın və eləcə də qardaşı Azər müəllimin qəlbindədi, ürəyindədi. Qoy ruhu şad olsun! Bir yağış yağsın, o yağış da onun ruhunu bir daha təmizləsin. Və bilsin ki, dekabrın 4-də biz onu yenidən yada saldıq...**

**Faiq QİSMƏTOĞLU**



Əbülfət MƏDƏTOĞLU

# İçimdə ağlayan kədər

## Onun göz yaşlarını...

*Bəli, hər gün ömürdəndi deyirlər. Və onu da əlavə edirlər ki, elə ömürdən də gedən hər gündü. Bu qəribə bir aforizmin və yaxud düşüncənin içində xeyli məqamlar gizlənir. O məqamları tapmaq, o məqamları çözmək, yozmaq heç də asan deyil. Bunun üçün baş sındırmalısan. Lap kobud desəm, əllərinlə sığdığın başını yumruqlamalısan. O vaxta qədər ki, sənin iç dünyanın qapısı döyülsün və qapını açasan... Baxasan... Görəsən ki...*

*Hə, bu bir senari deyil, bu bir yaşamdı, reallıqdı, gerçəklikdi. Sadəcə olaraq mən söylədiyim və sizin üçün də təsvirini təqdim etdiyim bu reallığı o zaman siz də mənim kimi özünüzə doğma sayıb anlayacaqsınız ki, siz həmin doğmaları yaşayacaqsınız. Onun içərisində olacaqsınız, o da sizin içinizə hopacaq, çökəcək. Məhz o andan da başlayaraq siz də mənim indi yazacaqlarımı oxuyub səmimi qəbul edəcəksiniz. Çünki səmimiyyətsiz o anları nə yaşamaq mümkün deyil, nə də dəyərləndirmək.*

*Bu günə qədər gəzib gördüyüm yerlər də çox olub, şahidi olduğum hadisələr də, eşitdiyim söz-söhbətlər də. Və təbii ki, mənim də yazı-pozularım ortalıqda görünüb. Bu gün də həmin o dediyim, sadaladığım silsilə davam edir. Doğrudur, indi əvvəlki kimi daha çox gəzib-dolaşmaq, görmək, şahid olma məqamlarım seyrəlib. Bu, həm pandemiya ilə bağlıdı, həm də iqtisadiyyatla. Amma şükürlər olsun ki, hələ ki, ürək pıçıldayır, qələm də eşitdiklərini vərəqlərə köçürür. Və mən də başımı bu cür qatıram. Özümü bu cür ovuduram. Əslində bu nə baş qatmaqdı, nə də unutmaq. Bu, əslində öz-özünlə danışmaq, səsini, duyğularını dörd divara, Allaha və Ona çatdırmaqdı. Bax, mənim təsəlli sayılan, ümid hesab edilən bütün istəklərimin, bütün yaşamımın mahiyyəti bax, dediyim bu mənzərənin, bu mövcudluğun içərisində tapır. Yəni, özüm danışdığımı, özümə dediyimi bir dörd divar eşidir, bir Allah, bir də O. Amma maraqlıdır ki, heç biri də mənə cavab vermir. Deyə bilərsiniz ki, bəlkə bu dəyirman məsələsi kimi bir şeydi. Yəni, "Dəyirman bildiyini edir, çax-çax baş ağrıdır" deyib atalar. Olsun, bununla da barışmışam. Çünki qədəri seçməmişəm, bəxti yazmamışam, qədərimi seçiblər, bəxtimi yazıblar. Mən də bu dünyanın ən üzü yola bəndəsi kimi yazılanı, seçiləni yaşayıram!..*

*Ümumiyyətlə, "yaşamaq" sözü də çox yozumludu. Onu hər kəs bir tərəfə çəkə bilər. Tərəflər isə çoxdur. Deməli, hər tərəfə çəkilən "yaşamaq" da bir növü olur İran saqqızı. Çəkirsən uzanır... Qopur... Sonra bir də təkrarlanır bütün bunlar. Biz, daha doğrusu mən həmin o "yaşamaq" deyəndə, yazanda özümün yaşamağımı sizə təqdim etdim. İndi siz qiymət verin. Bu nə boyda və necə yaşamaqdı?!*

*Tələbə yoldaşım, yazıçı-publisist Vaqif İsaqoğlu səhərin gözü açılmamış almışdı başımın üstünü. Danışığı ilə, söhbətləri ilə mənim üçün xoş ovqat yaratmaq istəyirdi. Gördü ki, alınmır... Mən də gördüm ki, Vaqif istəyinə çata bilmir. Ona görə dedim ki, ay Vaqif, özünü yorma. İndi mənim bu günə qədər dost dediklərimin 70 faizi Cənnətdədi. Hal-əhval tutmaq üçün əlaqə saxladıqlarımın 90 faizi də mən gündədi, mənim kimi yaşayır. Bax, sən bütün bu dediklərimi adi riyazi məsələ kimi istəyirsən ələkdən keçir, istəyirsən hesablama maşınından və nəticəni özün üçün müəyyənləşdir, gör, ovqat yaratmaq mümkündü ya yox?!*

*Təbii ki, Vaqif İsaqoğlu da durub qəzetlərini vurub qoltuğuna çıxıb getdi. Vaqif İsaqoğlunun niyə, nə məqsədlə hara getdiyini deyə bilmərəm. Bircə içimdə bir əminlik var ki, o mütləq ona verdiyim məsələnin həlli üçün baş sındıracaq. Çünki ona bələdəm!*

*Hə, bura qədər gəldiyim yazı məsafəsi bir tənəffüs tələb edir. Mən tələb olunan həmin fasiləni götürürəm. Ona görə ki, ürəyimin pıçıltıları qələmsiz, kağızsız keçinmir. Mütləq yazmaq lazımdı.*

*Hə... bir dəli... bir şəhər*
*Bir də dördkünclü divar...*
*Çöküb içimə qəhər -*
*De, ondan güclü kim var?!*

*Qaranlıq da endikcə,*
*Bükülürəm sükuta...*
*Hey yoxdu kipriyində -*
*Bircə damcı su tuta!..*

*Xəyal da yüyənsizdir,*
*Özün çırpır divara...*
*Kimə xoş gələr indi -*
*Mənim kimi avara?!*

*...Hə, bir dəli... bir şəhər*
*Bir də, bir mələk Qadın...*
*Ruhu bürüyən qəhər -*
*Söyləyir onun adın!..*

*Mən bu pıçıltıları kağıza köçürə-köçürə divara baxıram. Heç bir reaksiya yoxdur. Elə donuq vəziyyətdə də dayanıb...*

*Amma ürəyimin nəfəsi bir az genəlib. Çünki səsim çatıb. Bu mənim inancımdır. Səsim Allaha çatıb ki, ürəyimin nəfəsi genəlib. Və bir də ürəyimin nəfəsi genəlibsə, sənin də qulaqların cingildəyib. Çünki söhbət səndən gedir. Sənin adın çəkilib. Bundan gözəl nə ola bilər ki! Məni Allah və Sən dinləmisən. Ona görə də kədərimin göz yaşının Allahımın və Sənin lütfünlə silinəcəyinə heç bir şübhəm yoxdur!*

# Zalımın uşaqları zındıqlarıq...

**TV-lərin birinə cavan bir oğlan çıxıb.**

Uşaq evində böyüyüb. Ailəlidir. Gündə iki növbə səhər saat 8-dən 5-ə, 5-dən gecə 2-yə. Dönər çatdırma-




da. Motosiklla. Günlərin bir günü yolda qəfil mürgüləyib kamaza girir və ayaqları zədələnir. İşin bura qədəri taledir, qədərdir. Ölkənin qlobal problemi quldar əmək münasibətləri. Günün 18 saatını işlə, özü də iki işdə, müqabilində ikisi bir yerdə 700-800 maaş qazan. Ömrünü motosikldə ucuza ora çap, bura çap. Kimin üçün? Ailən üçün. Nəticə? Məsələ də budur.

Taleyin uşaq evi cəzası, ağır iş rejimi, ailənin qəzadan sonra bu oğlandan imtina etməsi.

Sadəcə dəhşətdir.

Lap elə faciədir.

İnsanlıq faciəsi.

Yüzlərlə böyük zalımlar minlərlə kiçik zalımlar yetişdirirlər. Ya zəlzələdən, ya da vəlvələdən. Hamımız böyük tikənin boğazımızda qalıb bizi boğub öldürəcəyini düşünürük. Amma adicə tıxdan belə boğulub ölmək olur.

Bax o tıxlar necə təmizlənəcək?

Heç cür...

Nəyiksə, oyuq.

Nəyə layiqiksə, onu da yeyirik.

Zalımın uşaqları zındıqlarıq.

**Eminquey**

# Dəlixanada yatdı, sonra dəlixananın müdiri oldu – MÜBARİZƏ

**1930-ci ildə spirtli içkilərdən asılı olan ananın nigahdan kənar övladı doğulur - Mari Rose. Anası ona baxa bilmədiyi üçün 5 yaşlı Marini uşaq evinə verir. Ardından bir cütlük onu övladlığa götürür. Marienin taleyi təəssüf ki, yenə üzünə gülmür, çünki onu övladlığa götürən cütlük çox qəddar və sadist insanlar olur. Bu italyan əsilli cütlük balaca qızı evin zirzəmisində bağlayıb ona işgəncələr verirlər. Kənardan baxanda normal və çox hörmətli insanlar kimi göründükləri üçün bunu illərlğ rahatlıqla gizlədirlər və Mari həmin zamanlarda taleyinin cəhənnəm dövrünü yaşayır.**



Mari Rose 17 yaşında depressiyadan iflic keçirir. Qarabasmalar gördüyü üçün həkimlər ona şizofreniya diaqnozu qoyur və onu dəlixanaya yerləşdirirlər.

Mari həyatının 17 ilini dəlixanada keçirir, özü də çox ağır. Ümidsizlik və çarəsizlik içində qıvrılır.. Yemək yemir, yerindən tərpənmir və tez-tez intihar etməyi düşünür

Otuz dörd yaşına çatanda həkimlər Marinin vəziyyətini yenidən qiymətləndirir. Onun şizofrenik olmadığına, ağır depressiya keçirdiyinə qərar verirlər.

Yoldaşlarının və özünü sevən bir neçə səhiyyə işçisinin köməyi ilə Mari xəstəxanadan çıxır.

Artıq həyatını bundan sonra necə keçirəcəyinə qərar vermək üçün kifayət qədər yaşı var.

Tərk edilmiş, işgəncə və təcavüzə uğramış, otuz dört ili xarab olmuş bir adam olaraq heç nə asan olmasa da, o qorxmur və ümidsiz olmaqdansa sıfırdan başlamağı seçim edir. "Ağlı yerində deyil, oxuması mümkün olmayacaq" dedilər, amma Mari Salem State Universitetinin Psixiatriya fakültəsinə daxil oldu və məzun olmağı bacardı. Həmin müddət ərzində xərçəng xəstəliyinə tutuldu və mübarizədən qalib çıxdı. Özü kimi dəlixanadan yeni çıxmış və sağalmış Joe ilə evləndi.

Əri təəssüf ki, altı il sonra öldü və Mari özünü işinə həsr etdi.

Uzun illər həkim olaraq çalışdıqdan sonra Harvard Universitetində magistr təhsili aldı. Psixiatrik xəstələrlə çalışdı, konfranslar verdi. Bioqrafiyası yazıldı və həyatı filmə çəkildi (Nobody's Child). Bir çox mükafata layiq görüldü.

Əlli səkkiz yaşındaykən isə insanları təəccübləndirəcək bir şey etdi: On yeddi ilini keçirdiyi Masachusetts Danver Dövlət xəstəxanasına idarəçi olaraq təyin olundü və vəzifəsini layiqincə yerinə yetirdi.

**"Əgər bağışlamağı öyrənməsəydim, bir damla belə inkişaf edə bilməzdim. Həyatım ziyan edilmiş bir həyat olardı. Və bu gün bu xəstəxanaya idarəçi olaraq dönə bilməzdim" - deyə Mari Rose mətbuat konfransında çıxış etmişdi.**

**Dilimizə uyğunlaşdıran:**
**Eminquey**

# Vətən müharibəsinə "Başladıq"



**"Nova Gorica" kino mərkəzi yeni sənədli filmin istehsalına başlayıb.**

**"Başladıq" adlı sənədli film 44 günlük Vətən Müharibəsi zamanı arxa cəbhə həyatından bəhs edir. Filmin çəkilişləri Bakı, Füzuli və Tərtər rayonunda aparılıb, çəkilişlər davam edir.**

Filmin ssenari müəllifi Yağmur Firuz, rejissoru Aydan Əhmədova, operatoru Rafiq Əliyev, bədii rəhbəri Tahir Tahiroviç , prodüseri Emin Tarverdiyevdir.

**Emin**

Emin Piri

# LAÇIN VAXTLARIMIZ



I

## *Siqnaxda erməni evlərində*

**Müharibənin gedişində bizim batalyon Xocalı kəndləri, Şuşa uğrunda döyüşlərdə olsa da bizim hərbi hissənin digər batalyonu Laçın, dəhliz ətrafı döyüşlərdə idi.**

**Müharibənin bitməsi ilə bərabər ordu tərxis olunur, evə göndərilir xəbərləri yayılmağa başladı. Amma öz düşüncəmlə, düşüncəmizlə deyirdik ki, müqaviləyə əsasən boşaldılası rayonlar boşaldılmadan dövlət belə riskə gedib bizi tərxis etməz. Amma inananlar da var idi.**

**Müharibə bitərkən olduğumuz yüksəkliklərdə qaldıq. Artıq ocaq qalaya bilir, şaxtanı birtəhər yola verməyə çalışırdıq. Mənim tağımımın olduğu mövqenin yaxınlığında ermən ferması var idi. Saymışdıq, 97 iri dana idi. Düzü, çörəksiz kabab yeməkdən iyrənməyə düşmüşdük müharibədən sonra.**

**15 noyabr öncəsi aşağı enəssiniz, ordansa Cəbrayıla gedəcəksinz; deyilir. Amma 15 noyabrda Kəlbəcərin boşaldılmaması planları pozdu.**

**Hər ehtimala orda qalacaqsınız. Müqaviləyə əməl edilməsə...**

**Bu hadisələrin sonu necə olacaq deyə düşünür, müxtəlif analizlər verirdik. Ən yaxşısı Ağdamı, 20 noyabrı gözləməkdir. İçi mən qarışıq Ağdamla bağlı xəbərləri gözləyirik. Kimisində təlaş, kimisində həyəcan və.s. Yeni bir müharibə qarşımızdadırmı?**

**O xəbər gəlir, Ağdam boşaldıldı...**

**23 noyabr səhərisə bizə rabitəylə xəbər verilir ki, Siqnax kəndinə gəlin. Ora gedirik.**

**Müharibənin gedişində irəliləyəndə bir neçə saatlıq Siqnax kəndində olmuşduq. Həmin vaxtlar Siqnax ağırtileriya hücumuna məruz qalırdı. Bu kərə azad insanlar kimi kəndi gəzmək, özümüzə yeyəcək bir şeylər tapmaq olardı. Hər tağım bir evdə özünə yuva qurur. Otaqların birində taxtda üç əsgərim, mənimçünsə ayrıca kravat ayırırlar.**

**Çıxaq, gəzək. Müharibənin verdiyi turizmdən bəhrələnək.**

**Əsgərlərin həvəsi daha çoxdu. Müxtəlif şəkillər çəkdirir və.s.**

**Daha çox bir villa diqqəti çəkir. Sonradan öyrənirəm ki, bu villa qondarma respublikanın milli təhlükəsizlik xidmətinin müavini bir general-mayorun evidi.**

**Elə gözəyarı baxanda bu evin milyonlar, bəlkə də daha artıq məbləğə başa gəldiyini açıq-aşkar görürsən.**

**Zirzəməsinə enir, otaqları gəzir, varlı həyatını özümçün beynimdə qaralayıram.**

**Çox qəribədir, bir gün milyonların bir əsgərin ayağı altında qala bilər. Qapını əliylə taqqıltma şansı olmyan bir kasıb balası o qapını təpiyilə aça bilər...**

**Villanın yanında çəpərə alınmış ərazidə onlarla kiçikbuynuzlu və iribuynuzlu mal-qara var. Artıq kimindir, bilmədim...**

**Kəndin içindəsə donuzlar veyllənir. Sahibsiz...Heç bizlərdən də sahib çıxan yoxdu.**

**Axşama doğru əsgərlər evə turşular, kartof-soğan, ev quşları və.s ərzaq məhsulları gətirir. İki aydan sonra bir evdə yatmağın ləzzəti, bunu heç boş vermək olar?**

**Özümüzçün nələrsə bişiririk. evin içidə ocaq qalayarıq. Nəhayət isti yerdə yatacağıq.**

**Səhər kənddə şiddətli qar başlayır. Topxana meşələrində yaşana biləcək əlverişsiz şəraiti nəzərə alaraq təcili Cəbrayıla getməli olduğumuz deyilir.**

**Bir gecəlik rahat yuxumuz, isti ocağımız beləcə pozulur.**

**Gecə yarı artıq Cəbrayılın Daşkəsən kəndindəyik.**

**Palatkalarda qalacağıq...**

II

## *Laçın boşaldılır, biz getməliyik*

**1 dekabr. Radioda ölkə başçısı İlham Əiyevin çıxışını dinləyirik. Laçın boşaldıldı.**

**Sevinclər hər yerdən duyulmağa başlayır. Artıq müharibə tam bitdi deyə bilərik, düşünürük...**

**Amma bizim hərbi hissənin Laçına gedəcəyi deyilir. Hazırlıqlar görülür. siyahı tutulur. 24 yaşdan yuxarı əsgərlər Laçına getməyəcək. Onlar burdan tərxis olunacaq.**

**Bəs, zabitlər? Onlar da yaşından aslı olmayaraq Laçına gedəcək.Orda təhvil-təslim edib silahları və əsgərləri təhvil verdikdən sonra 24 yaşdan yuxarı zabitlər tərxis ola biləcək.**

**Hazırlıq vaxtı nədənsə yadıma laçınlı dostları salıram. qayıdanda onlara danışacaq xeyli söhbətim olacaq. Bəlkə də onlarla daha doğmalaşacağıq...**

**Yadıma ilk olaraq məktəbdə sevdiyim laçınlı qız düşür. Sonrasa Rəşad Məcid, Şərif Ağayar...**

**Çünki Laçın haqqında söhbətləri, yazıları daha çox onlardan görmüşdüm. Daha doğrusu ünsiyyətdə olduğum insanlar arasında.**

**Evdəkilərə, dostlara zəng edirəm, rabitə orda pisdi, əlaqəm olmasa narahat olmayın.**

**Bunu xəbər verməyə bilməzdim. Yaxınlarım mən gəlməyənə kimi hələ müharibənin içindən çıxa bilməmişdilər. Heç indi də çıxmayıblar.**

**Bütün hazırlığımızı görüb yola düşürük...**

III

## *Müharibənin qar uşaqları*

**Laçına gedirik...Birinci gündü. Qubadlıda Xəndək kəndində elə maşınlarda gecələməli oluruq.Evə zəng etdim. Sonra bacım qızı Ləmanla danışdım. Bimirəm, necə təzaddırsa müharibə adamın yadına daha çoxsevdiyi insanları, xatirələri salır. Ən çoxsa uşaqlığını. Bəli, məzh uşaqlığı. Və ya həyatında olan uşaqlar. Vəhşilik içində adam uşaq saflığı axtarır, uşaq təmizliyini özləyir.**

**Hə, bacım qızı Ləmanla danışırdım. Oraların necə olduğunu soruşdu. Ətraf Kiçik Qafqaz dağları, hər yan qar. Hər tərəf ağappaq qardı;-dedim.**

**"Dayı, ordan gələndə mənə qar gətir də. Qartopu oynayaq"-dedi.**

**Uşaqlar müharibəyə də bəzən öz gözləriylə baxır. Bəlkə də elə bilirlər müharibələr uşaqların qartopu oynmaq istəyinə görədir. Bəlkə də bu qartopu istəklərindən doğan müharibələrə görə özlərini qınayırlar. Amma nə bilələr ki, böyüklərin qaropu oyunu anaların, sevgillərin, bacıların göz yaşlarıdır.**

**Düzdü, özümlə qar gətirə bilmədim. Amma inanıram ki, bu ölkənin uşaqları yaxın gələcəkdə ürəkləri istədiyi qədər Qarabağ torpaqlarında qartopu oynayacaqlar. Özümlə gətirməsəm də sizə ürək dolusu qar gətirmişəm, əziz uşqlar!**

**Elə bu kiçik yazını vaxtilə yazdığım "Əlcəkli qar" şeiri ilə bitirirəm.**

*Yağma, qar,*
*yağma*
*əlcəyim olmasa da*
*əllərim üşümür mənim.*
*Atamın*
*"daha yeddi yaşın var*
*böyük kişisən*
*heç kişi də əlcək taxar?!"*
*sözləri üşüdür məni.*

*Yalan danışmağı bacarmır atam*
*dodaqlarının titrəməsindən*
*gözlərinin dolmasından bilinir*
*ciblərinin yalanı.*
*Qar qardaş,*
*dünyanın ən təmiz*
*yalanı sənsən.*

*Qar qardaş,*
*mənə görə yox*
*atama görə yağma,*
*ata oğul arasına girmə, qar.*

*Yağma,*
*çirkli əllər atmasın səni*
*çirkli ayaqlar altında*
*əzməsinlər təmizliyini.*
*Təmiz dillər*
*çirklənməsin sənə görə,*
*yağma.*

*Uşaqların sızıldayan*
*barmaqlarında üşümə,*
*isti əlcəklərində qızın, qar.*

*...Uşaq əllərini özləmişdi qar*
*qar vardı*
*uşaqlar yoxdu*
*müharibə qovmuşdu*
*yavruları torpaqlarından.*
*onların yerində*
*tanklar oynayırdı.*
*qar ağlayırdı uşaqlarçün,*
*can verirdi*
*tankların*
*qanlı tırtılları altında.*

*Qar istəyir uşaqlar*
*tanksız,*
*yalansız,*
*əlcəkli qar.*
*Yağırsansa belə yağ, qar!*

IV

## *Bura da bizim olacaq...*

**Birinci gün çıxmağımızın səbəbi odur ki, ikinci gün sülməramlıların keçid məntəqində olaq. Yəni cüt günün səhərinə özümüzü çatdıra bilək. Tək günlər ermənilər, cüt günlərsə biz o yoldan istifadə edə bilirik.**

**Dəhliz qarşısında rus keçid məntəqində gözləyirik. Rusiya bayrağı...Qəribə oluruq. Müharibədən sonrakı gerçəkliyi indi-indi başa düşməyə başlayırıq.**

**Bəziləri ruslara sanki düşmən kimi baxır. Nə də olsa ilk dəfədir,belə rastlaşmaq.**

**Bizi buraxmırlar, əsəbləşən zabitlər olur.**

**-Başa düşün, biz burda sülməramlıyıq. Digər heyət çatsın, sonra sizi aparacağıq. Öncə maşınlar baxaq.**

**Maşınlara baxırlar. Bir əsgər və toppuş rus zabiti maşınları gəzir.**

**Məsələ məlumdur. Silahlar ayrıca maşında olmalı, heyətsə ayrı maşınlarda. Çünki Laçın mərkəzində ermənilərin içindən keçəndə hər hansı hadis baş verməsin deyə.**

**Maşınları yoxlayanda uralların birinin kabinəsində bir avtomat görürlər.**

**-Olmadı ki.. Bütün silahları yığışdırın.**

**Yenidən harda silah varsa ayrıca maşına yükləyirik.**

**Yavaş-yavaş aramızda ünsiyyət yaranmağa başlayır. Zabitlər- Xəlilov,Şıxəliyev.**

**Qayxılı rusca yaxşı bildiyindən onların vasitəsiylə ünsiyyət qururuq, ya da ümumi danışırıq.**

**Əsgərlərlə söhbət əsnasında məlum olur ki, əksəriyyəti Şimali Qafqazdan, Krımdan və.s-dəndir. Hələ bəziləri Bakıda da olub. Qohumları olanlar var.**

**Qanımız qaynayır. Bilirsiniz, axı bura bizim torpaqdı və.s kimi söhbətələrə gediş edirik.**

**-Biz sadəcə qulluqçuyuq, bura göndəriblər gəlmişik. İşimiz aranızda hər hansı hadisələrin baş verməsinin qarşısını almaqdır. Zabitlərdən biri "onsuz da bura da tam bizim olacaq" deyir. Ruslar gülümsəyir...**

V

## *Laçın mərkəzində*

**Hər şey hazırdır. Önümüzdə bir zirehli rus maşını, arxamızdasa digər zirehli maşın bizi müşayiət eədərək aparırlar.**

**Laçının mərkəzinə enəndə bütün hərəkət dayanıb. Yol kəsişmələrində rus hərbçiləri gözə dəyir. Yəqin ki, hər hansı məsələ baş verərsə, qarşını almaq və ya qabaqlamaq üçün.**

**Laçından keçdikcə evlər, binalar gözümüzə dəyir. İşıqları yanır. Bir erməni belə çöldə görmürük. Amma hiss edirsən, o işığın yandığı evlərdən bəzən qorxa-qorxa boylananlar olur. Şəhərin özündən keçdikdə isə əsgərləri saxlamaq olmur. Aqressiya və.s Müharibədən çıxan əsgərin o alarını anlamaq mümkündür. Mərkəz boyu söyüşlər və.s.**

**Bir neçə xəbərdarlıqdan sonra açığı mane olmaq da istəmirsən, heç olmasa sözlə hirslərini, aqressiyalarını çıxarsınlar.**

**Buzlu, qarlı yolları keçmək kolon şəklində saatarımızı alır. Nəhayət, ikinci keçid məntəqsini keçirik. Artıq bizim ordunun nəzarət etdiyi ərazidəyik.**

VI

## *Laçında son gecəmiz*

**Səhv etmirsəmsə, ya Həkəri, ya da Hoçazsu çayının sahilləridir. Ermənilərin keçmiş istirahət mərkəzi olub. Qapıları, pəncərələri aparılıb. Özünəsə od vurub yandırıblar.**

**Orada məskunlaşırıq.**

**Ümumiyyətlə, çıxdıqdan sonra demək olar ki, hər şeyi yandırıblar. Xəbərdaıq edirlər ki, ehtiyatlı olun bunlar rayonu boşaltdıqdan sonra bəzi yerlərə mina da basdıra bilərlər.**

**Çay qırağında uzanıb yatmaq, ocaq çayı... Yenə də bacardıqca müharibədən sonra turist kimi həzzini çıxamağa çalışıram. Bir də Laşında nə vaxt olacamki?**

**...Silahları təhvil vermişik. Daha sonra əsgər heyətini. Düzü zabitlər, əsgərlər kövrəlir. İlk dəfədir, zabit və əsgərin bir-birindən ayrıldığı üçün bu qədər kövrəldiyini görürəm.**

**Nə də olsa müharibəni, döyüşləri bir yerdə keçiriblər...**

**...30 dekabr gecəsi. Sabah hər şeyi hazır edib çıxmalyıq. Çünki 31 dekabr cüt gündü. Əgər 31 dekabrda burdan keçməsək, bir də iki gün sonra şansımız olacaq. Belədə bayramı da evə çata bilməyəcəyik...**

**30 dekabrda həmin keçmiş istirahət mərkəzində son gecəmizi keçiririk...**

VII

## *Мы же все Кавказцы...*

**31 Dekabr səhəri tezdən sülhməramlıların qapısını kəsdirmişik. 9 tamamdan tez buraxa bilmərik;deyirlər-öncə məruzə edək, sizə sirehli maşın ayıraq sonra.**

**Zarafatlaşırıq, söhbət edirik. Narahat olmayın, elə sürətli və tez edəcyik ki, yeni il gecəsini öz evinizə çata biləsiniz.**

**-Мы же все Кавказцы, зачем нам враждовать?-zabit deyir.**

**Bəzi fikirlər içimi qıdıqlayır. Mustafaya deyirəm ki, soruş gör, onların təminatını ermənilər verir?**

**Ruslar tez etiraz edir, yox,hər şey bizə Rusiyadan gəlir. Ermənilərdən heç nə almırıq.**

**Deyirəm, ondan siqaret al, elə biləcəyik.**

**Rus əsgəri əminliklə siqaretini çıxarır, rus aksiz markası olan nazik kent 4.**

**Bəlkə dostluq naminə siqaretlərimizi dəyişək...**

**Cibimdən siqareti çıxarmaq stəyirəm, erməni "Akhtamar" siqareti.**

**Özüm-özümə gülürəm,mən ruslara deyirəm, özümdə erməni siqareti...**

**Sürücülərimiz yaşlı kişilərdi. Rus zabiti məəttəl baxır. Zabitləmizsə sovet zarafatını edir; döyüşə qocalar gedir.**

**Söhbətlərdən sonra, bizi buraxırlar. Bu dəfə Laçın mərkəzini gündüz vaxtı görməli oluruq...**

**Saatlar sonra Cəbyıldayıq. Sənədlərimizi götürdük. Gecə isə artıq Sumqayıtdayam.**

**Amma qafqazlı sülhməramlı zabitinin sözləri ara-sıra qulağımda pıçıldanır;**

**Мы же все Кавказцы, зачем нам враждовать?**

# Kazaryan və Paşinyan arasında söz "güləşdirməsi": "İstefaya hazırsınızmı?"

**Son günlər Ermənistan hökümətinin ən yüksək kürsülərindən belə Ermənistanın Baş naziri Nikol Paşinyana qarşı etirazlar çoxalmaqda davam edir. Yadınızdadırsa Ermənistan Prezidentinin müşaviri Tevan Poqosyan vəzifəsindən kənarlaşdırılmışdı. Çünki o, xalqı Nikol hakimiyyətinə etiraz etməyə çağırmışdı.**



Adalet.az erməni mediasına istinadən xəbər verir ki, bu dəfə deputat Artur Kazinyan iclas zamanı baş nazirə verdiyi ""danışıqlar nəticə verməsə və müharibə təhlükəsi yaransa, yeni müharibəyə imkan verməmək üçün istefaya hazırsınızmı" sualı ilə gündəmə düşüb:

Baş nazir müxalifət "Ermənistan" blokunu təmsil edən deputata cavabını ləngitməyib:" Bilmək istərdim ki, Azərbaycan terminologiyasından istifadə edəndə siz kimsiniz və bu zalda kimi təmsil edirsiniz?

Siz bu sualınızla əslində Azərbaycanın mövqeyini təqdim etdiniz və mən bunu deməkdən çəkinmirəm. Mənə hər şey aydındır. Mən həmişə bilirdim ki, Ermənistanda təsir şəbəkələri var və indi biz hamımız bu şəbəkələrin fəaliyyətinin efirdə təzahürünün şahidi oluruq".

Daha sonra baş nazir hiddətini bu sözlərlə bildirib:Siz Azərbaycan hekayəsinin Ermənistanda paylayıcısısınız və mən istərdim ki, biz bütün bunları qeyd edək. Düzünü desəm, təəccüblənmirəm. Əvvəldən bilirdim ki, sizin siyasi qüvvənizin missiyası xarici siyasi hekayə hazırlamaqdır. Sizə məsləhət görərdim ki, məhkəməyə müraciət edəsiniz, bizim də bunu sübut etmək imkanımız olsun", - Paşinyan qeyd edib. Qeyd edək ki, hələ ötən ilin dekabrında Kaziryan belə bir açıqlama vermişdi:"Dünən gecə xain (Paşinyanı nəzərdə tuturred) Ermənistanın dövlət sərhədləri ilə bağlı 2010-cu ildə qəbul edilən sənədi nümayiş etdirib. O qədər savadsızdır ki, dövlət sərhədlərinin Ermənistanın deyil, beynəlxalq qanunlar çərçivəsində müəyyənləşdirildiyini bilmir. Ermənistan parlamentinin qəbul etdiyi hansısa sənədin Azərbaycan üçün heç bir dəyəri yoxdur".

***P.S. Əslində Ermənistanda son zamanlar qəribə bir tendensiya yaranıb. 44 günlük müharibədən sonra məğlubiyyətini anlayan Ermənistan hökumətinin başçısına qarşı psixoloji basqılar, revanşist təsirlər çoxalıb. Bəzən Azərbaycana güzəştə getməyə çalışan Nikol Paşinyan cəmiyyət tərəfindən "türk agenti" deyilərək təhqir olunur.***

**Əntiqə Rəşid**

# *Helikopter qəzasında xəsarət alan hərbçilərimiz evə buraxıldı*

**Qaraheybətdəki aviasiya poliqonunda təlim uçuşları zamanı qəzaya uğrayan Dövlət Sərhəd Xidmətinə məxsus Mi-17 helikopterində xəsarət alan 2 hərbçi evə buraxılıb.**

Bu barədə Adalet.az-a Dövlət Sərhəd Xidmətinin Mətbuat mərkəzindən məlumat verilib.

"Yaralı hərbçilər polkovnik-leytenant Emil Cəfərov və kapitan Ramin Ədilov Dövlət Sərhəd Xidmətinin hospitalından ambulator müalicəyə buraxılıb. Hazırda yaralıların vəziyyəti yaxşıdır, hər iki hərbçi müalicələrini ev şəraitində həkimlərin nəzarəti altında davam edirlər"- deyə məlumatda bildirilir.

Xatırladaq ki, noyabrın 30-da Dövlət Sərhəd Xidmətinə məxsus Mi-17 hərbi təyinatlı helikopteri Xızı rayonu ərazisindəki Qaraheybət aviasiya poliqonunda təlim uçuşları yerinə yetirərkən qəzaya uğrayıb. Qəza nəticəsində helikopterdə olan 16 nəfərdən 14 nəfəri şəhid olub, iki nəfər isə yaralanıb.

Faktla bağlı Baş Prokurorluda Cinayət Məcəlləsinin 352.2 (ehtiyatsızlıqdan iki və ya daha çox şəxsin ölümünə səbəb olmaqla uçuş və ya uçuşa hazırlıq qaydalarını pozma ) və digər maddələri ilə cinayət işi başlanıb.

# Xalqımızın taleyində böyük rol oynayan dahi şəxsiyyət

**Hələ gənclik illərində böyük rus şairi Sergey Yeseninin bu misralarını beynimə həkk eləmişdim:**

*Üzbəüz duranda*
*Heç bir şey görünmür.*
*Uzaqdan baxanda*
*çox şey görünür...*

İlk baxışdan bu misraların sadəliyi sanki bir şey demir, söyləmir. Ancaq bir az düşünəndə bu sadə misraların arxasında nə qədər dərin və böyük mənanın gizləndiyinin şahidi olursan. Çox zaman yanında, yaxınında olan adamlarda elə güclü bir fikir, məna, keyfiyyət görmürsən Ancaq ara məsafəsi uzaqlaşdıqca hər şey qarşında səndən ötrü yeni bir mənzərə açaraq çox şey deyir, anladır. Yaxından görə bilmədiklərini uzaqdan elə aydın və dəqiq görürsən ki, sanki ona yaxından baxırsan.

Bu fikirlərlə yaddaşımı çözələyib vaxtı ilə televizorda seyr etdiyim " Xalqların dosluğu, ədəbiyyatın dostluğudur" verilişini xatırlamağa çalışdım. Azərbaycan Respublikası KP MK-nin o vaxtkı birinci katibi Heydər Əliyevin xalqlar dostluğu və xalqlararası dostluğun həm də xalqın mənəvi sərvəti olan ədəbiyyatın dostluğuna çevrilməsi mövzusunda parlaq və təkrarolunmaz nitqini acgözlüklə dinləyirdim. Və elə o zaman xalqımın böyük oğlu, görkəmli dövlət xadimi Heydər Əliyevin hər sözü, hər kəsi izah olunabilməz bir cazibə qüvvəsi ilə özünə çəkir, bu şəxsin nə qədər böyük ürək, dərin və müdrik siyasət, eyni zamanda enerji və qüvvə sahibi olduğu özünü açıq büruzə verirdi. Elə o zaman mən bu insanın adını yaddaşıma böyük həriflərlə yazdım. Nitqindəki dərinlik və sadəlik, müdriklik və aqillik adamı heyran edirdi. Nitqi, davranışı ilə kimliyindən asılı olmayaraq ancaq ona mənsub olan çox güclü cazibə qüvvəsi ilə adamı özünə cəzb edir, ovsunlayırdı.



...1988-ci ildə Moskvada institutu bitirəndən sonra iş elə gətirdi ki, buradakı Azərbaycan Respublikasının Daimi Nümayəndəliyinin qonaq evinə təsərrüfat işləri üzrə müdir təyin olundum. İşi qəbul edərkən anbarlardan birində dahi liderimizin Kremldə işlədiyi vaxt çəkdirdiyi böyük, rəngli portreti də gözdən uzaq yerə qoyulmuşdu, bugünkü günlə yaşayan nümayəndəlik işçilərindən şəkil heç kimə lazım deyildi. İçimdə adamları dönüklük və etibarsızlıqlarına görə xeyli lənətlədim.

Portret yaxşı qalmışdı. Amma buna baxmayaraq onu şəhərin qədim, məşhur emalatxanasında bərpa elətdirdim. Portreti kabinetimin ən gözəgəlimli yerində yüksəkdən asdım. İndi mən kabinetdə tək deyildim. Xalqımın XX əsrdə tarixə bəxş etdiyi ən böyük oğlunun yanındayam. Mən portretlə bir nəfəs alır, onunla yanaşı yaşayırdım. İçimdə izahı çətin olunan bir qüvvə, inam var idi. Və bu inam gündən-günə artırdı. Heydər Əliyevə, onun portretinə olan böyük məhəbbətimə görə çalışdığım nümayəndəliyin işçilərindən çox sözlər eşidirdim. Burada məni keçmişimlə bağlılıqla məzəmmət də edirdilər. Mən isə Heydər Əliyevin siyasətdən uzaqlaşdırılması ötəri, müvəqqətidir deyirdim. O böyük insan siyasət aləmində hələ son sözünü deməyib deyə söyləyirdim. Onun bir daha siyasi arenaya qayıdaraq böyük siyasətçi olduğunu sübut edib, xalqımızın taleyində böyük rol oynayacağını söyləyirdim. İçimdəki qəti inam çətin günün ömrünün az olacağını mənə pıçıldayırdı.

...Dünya tarixi çox dahi şəxsiyyətlər görüb. Amma bu şəxsiyyətlərin çoxunun adı tarixdə öz yerini tapıb, o qədər böyük iz qoymamışdır. Çünki böyük şəxsiyyət olmaq heç də vətənpərvər, xalqının istəklisi olmaq demək deyildir. Odur ki, xalqının dərdini öz dərdi kimi yox, ondan da dəfələrlə yüksəkdə tutub, xalqına hədsiz, təmənnasız məhəbbət, sədaqətlə xidmət edən insanlar tarixdə çox az, bir neçə olmuşdur. Bunlardan biri adı həmişə xalqımız tərəfindən fəxr və qürur hissi ilə çəkilən Heydər Əliyev haqda çox, olduqca çox danışmaq olar. Təkcə onu demək kifayətdir ki, Heydər Əliyev dünyanın siyasət nəhəngləri Mustafa Kamal Atatürk, Corc Vaşinqton, Uinston Çorçill ilə birlikdə adı çəkilən nəhəng bir şəxsiyyətdir. Bunun başlıca səbəbi də böyük öndərin çox uzaqgörən siyasətçi olmağı ilə bərabər, bütün şüurlu ömrünü Azərbaycan xalqına, onun tərəqqi və inkişafına, çiçəklənərək dünyada yüksək ad qazanmasına sərf edərək xalq, millət yolunda ömrünü şam kimi əritməsindədir. Şəxsi mənini unudub, bütün ömrünü, bilik və bacarığını xalqa həsr etmək Heydər Əliyev tərəfinfən öz qarşısına qoyulan ən ümdə vəzifə idi. O, bu işi son nəfəsinə qədər davam etdirərək, xalqına vicdanla, sədaqətlə, şərəflə xidmət etdi.

Dövlətçilik, quruculuq işində hədsiz bilik və səriştəsi olan Heydər Əliyev xarici və daxili düşmənlərə qarşı amansız mübarizəsi ilə xalqımızı bir rəhbər kimi öz ətrafında birləşdirərək hamıya örnək oldu.

Tarixin yazılmamış bir qanunu var ki, xalq çox böyük təhlükə qarşısında, parçalanmaq vəziyyətində olanda Uca Tanrı xalqın öz içərisindən xalqın tale və müqəddəratını müsbət həll edə biləcək oğul yetişdirib çıxarır və bu şəxsin adı xalqın yaddaşına əbədilik qızıl hərflərlə yazılır. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə gələn ulu öndər Heydər Əliyev də xalqı zamanın bir çox bəlalarından qurtarıb, gözlənilən vətəndaş müharibəsinin qarşısını alaraq ona nicat verdi, sözün əsl mənasında xalqın xilaskarı oldu.

Böyük siyasətçi olmaq təkcə zamanla ayaqlaşmaq, onun törətdiyi çətinliklərə tab gətirmək yox, zamandan bir neçə addım irəlidə gedərək hər şeyi və onun nəticəsini qabaqcadan görmək, onun həllini tapmaq, çətinliklərə inamla qalib gəlmək deməkdir.

Heydər Əliyev dərin vətənpərvər olmaqla bərabər, olduqca mətin, qorxmaz, cəsur və sədaqətli bir siyasətçi idi. Yaxşı yadımdadır. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Mixail Qorbaçovun xalqımızın azadlıq hərəkatını boğmaq məqsədi ilə Bakı şəhərinə qoşun yeritməsindən hiddətlənən Heydər Əliyev dərhal Moskvadakı Daimi Nümayəndəliyimizə gələrək Kremlin siyasətinə etiraz edən bəyanatla çıxış etdi. Dahi liderimiz ümumilli maraq naminə belə bir addım atdı. Bu addımın onun həyatı üçün təhlükəli olacağını söylədik...Unudulmaz rəhbərimiz ancaq ona məxsus olan inam, qətiyyət və soyuqqanlılıqla sözümüzü kəsdi: " M.Qorbaçov xalqımıza qarşı qəddarlıq və alçaqlıq etdi. O, mənə qarşı xalqa etdiyindən artıq edə bilməz. O, satqındır. Satqınlar isə qorxaq olurlar. Bu gün o, mənə yaxın düşə bilməz. Gedək, xalq bizi gözləyir. Axı bu gün, çətin anda xalqımızla bir yerdə olmalıyıq. Belə ağır gündə xalqı tək buraxmaq olmaz".

...Daimi Nümayəndəliyin yanı, ətrafı M.Qorbaçovun həyasızlığından hiddətlənən azərbaycanlılarla dolu idi. Dərddən başlarını itirmiş minlərlə azərbaycanlı ümidsiz halda bir-birinə baxır, nə edəcəklərini bilmirdilər. Heydır Əliyev Kremlin alçaq siyasətini damğalayan, iç üzünü göstərən parlaq nitq söylədi. Ruhdan düşməyin, həyat davam edir. Xalqımız mətin xalqdır. Bu çətin döyüşdən xalqımızın qalib çıxacağını söylədi. Birləşməyə, bir olmağa səslədi. Adamların üstündən elə bil ağır yük götürüldü. H.Əliyevin adamlara aşıladığı inam, nikbinlik göz qabağında idi. Əvvəlki inamsızlıq, süstlükdən əsər-əlamət yox idi.Çoxları belə oğlu olan xalq məğlub olmaz, yıxılmaz, qırılmaz dedilər Mən isə içimdə nə yaxşı ki, bu dünyada Heydər Əliyev var, -deyə öz-özümə pıçıldadım...

...Rusların xüsusi təlim keçmiş " OMON"u nümayəndəliyimizə soxularaq buranı zəbt etdilər. Nümayəndənin kabinetinin və bir çox otaqların qapıları sındırılaraq sənədlər ruslar tərəfindən götürmüşdü. Nümayəndəliyin növbətçisi qonaq evinin müdiri Ramiz müəllim " OMON"çuların mühafizəsində növbətçinin otağında ayaqüstə quruyub qalmışdı, rəngi ağappaq idi. Ətraf mühitlə onun əlaqəsini tam kəsmişdilər. Mən işğalçılara buranın Azərbaycan ərazisi olduğunu, onlarınsa quldurluq, qarətçiliklə məşğul olduqlarını söylədim. " OMON"çulardan yaxınımda olanı əlindəki Kalaşnikov avtomatının qundağı ilə qapıya çox güclü bir zərbə endirdi. Başımı güclə kənara çəkə bildim. Qapının zərbənin təsirindən doğan istisi sifətimi qarsdı.

Küçəyə çıxdım. Nümayəndəliklə yaxın küçələrdə avtomat telefonları kəsmişdilər, onlar işləmirdilər. Özümü 300 metrlikdə olan Puşkin meydanına yetirdim. Burda " Maqdonals"ın yanındakı telefon da işləmirdi. Tver bulvarı ilə yuxarıya, Gertsen küçəsinə qaçdım. Oleq Tabakovun teatr studiyasının yanındakı " SİTA" ilə üzbəüz avtomat telefondan mərhum həmyerlimiz Tahir Aslanlının evinə birtəhər zəng edə bildim. Dedim televiziyanı, mətbuat işçilərini ayağa qaldır. Sənin tanışın çoxdur. Nümayəndəliyimizə ruslar basqın ediblər. Tahir vəziyyəti bildiyini söylədi. Dedi ki, tanış müxbir və jurnalistlərin heç birinə zəng çatmır. Geriyə qayıt, mən də indicə taksi tutub gələrəm ,- dedi.

Özümü yenidən nümayəndəliyə yetirdim. Ruslar binanın lap qabağında bizi qorxutmaq məqsədi ilə Kalaşnikov avtomatından üç dəfə havaya atəş açdılar. Atəşin sədaları altında " Moskviç -412 " markalı göy rəngli maşının dal sağ qapısını avtomatın qundağı ilə sındıraraq içəridən bir anda bir həmyerlimizi çıxartdılar. Onu başqa bir neçə nəfər azərbaycanlı ilə birlikdə naməlum istiqamətdə apardılar. Sonralar öyrəndik ki, onu bir neçə həmyerlimizlə bərabər lubyankaya apardılar. Və burada onları zirzəmidə müstəntiqlər sorğu-suala tutublar. Qəribə burasıdır ki, müstəntiqlərin hamısının iş masasının üstündə "Axtamar" markalı erməni siqareti var imiş...

Nümayəndəliyin qabağında həyəcan siqnalından sonra bura gəlmiş çıx geyimli rus generalının özündən razı baxışları altında gilizləri çox gəzdik, tapa bilmədik. Sonra öyrəndik ki, ruslar hər şeyi əvvəlcədən ölçüb-biçiblər. Özləri ilə gilizləri dərhal toplamaq üçün xüsusi adam gətiriblərmiş.

...Qarsdan gəlmiş azərbaycanlı qardaşımız hava limanına tələsirdi. Belçikaya uçmalı idi. Hamının üstbaşını yoxlayırdılar. Birtəhər qarslını hasardan qonşulara, Ukraynanın nümayəndəliyinə keçirə bildik.

Onu ukraynalılar razılaşdığımız yerə aparacaqdılar. Biz ona rusların Bakıda törətdikləri vəhşiliklərin video kasetini verməli idik ki,aparıb Belçikada, Avropada rusların bizə necə "böyük qardaş" olduqlarını yaysın, tanıtsın.

Kaseti necə çıxaraq ki, ruslar duyuq-düşməsinlər? Bu fikir məni yeyə-yeyə darvaza qapısından baxırdım. Döngədə zibil daşıyan " KAMAZ" maşını göründü. Onun siqnalını eşidəndə birdən yadıma Butur küçəsi ilə mərhum Heydər Əliyevlə getdiyimiz zaman aramızda olan kiçik söhbət düşdü. Heydər Əliyev yolun əks tərəfində yerləşən Butur türməsinə işarə ilə söylədi ki, buranın ciddi rejimindən ancaq rusların möhkəm iradəsinə görə dəmir deyə çağırdıqları Feliks Dzerjinski qaça bilib. Bəs o, buna necə nail olub,-deyə mən soruşdum Ulu öndər əsl çekist soyuqqanlılığı ilə gülümsədi: " Zibilin içində, zibil kimi"... Tez geriya qaçdım. Kaseti yaxşıca büküb zibil konteynerinə atıb, üstünə də çoxlu zibil yığdım. Süpürgəçinin xələt, əlcək və çəkmələrini geyib konteyneri irəliyə, çıxışa sürüklədim. Sürücüdən zibili presləməməyi, sıxmamağı tatarca xahiş etdim. Kaset beləcə Belçikaya yola düşdü...

Prezident düşündüklərinin hamısını xalq arasında açıqlamalı deyil. O xalqın oğlu olduğunu, ona qulluq etdiyini işində, əməlində göstərməlidir. Ot kökü üstə bitir deyirlər. Böyük öndər H.Əliyevin layiqli yetirməsi möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən müasir Azərbaycanımız yeni qələbələrə doğru inamla irəliləyir. Odur ki, qədirbilən xalqımız möhtərəm dövlət başçısı İlham Əliyevin daxili və xarici siyasətini bəyənir, dəstəkləyir, ona inanır və güvənir. Bir sözlə! xalqımızın taleyi etibarlı əllərdədir...

**...Müasir Azərbaycan dövlətinin memarı və qurucusu olan ulu öndər Heydər Əliyev bir azərbaycanlı kimi mənim həyatımda mühüm rol oynamışdır. Qürur hissi keçirirəm ki, Heydər Əliyevin idarəçilik məktəbini keçənlərlə çiyin-çiyinə çalışmışam. Mən vətəni, torpağı, ana dilimizi sevməyi o dahi şəxsiyyətdən öyrənmişəm. Bu gün o gözəl insan cismən bizi tərk etsə də, mənən mənalı siması və unudulmaz xatirəsi ilə qəlbimdə yaşamaqda davam edir, bizi uğurlu gələcəyə səsləyir. Düşünürəm, nə yaxşı ki, o, böyük insanla ünsiyyətdə olmaq mənə nəsib oldu. Və sevinirəm, nə yaxşı ki, həyatda, həyatımda ümumilli lider Heydər Əliyev var və yaşayır...**

**Adil Misirli**

# MOLLA CUMA DA ŞƏHİDDİR



*Çingiz Ənvəroğlu*
*"Qızıl qələm" mükafatı laureatı*

**Yaxın günlərdə AZ.TV kanalının "Xəbərlər" proqramına baxanda bir məlumat eşitdim. Belə ki, 44 günlük Qarabağ müharibəsində düşmənlə döyüşdə xalqımızın şəhid olan qəhrəman oğullarının adları Bakı şəhərində 30-dan çox küçəyə verilib. Bu məni çox şad etdi. Ancaq informasiyanın axırında verilən bir reportaj məni kədərləndirdi. Həmin reportajı hazırlayanlar bilərəkdən yalnız bir küçənin əvvəlki adını qabarıq formada verdilər. Bu "Molla Cuma" küçəsi idi. Mən belə başa düşdüm ki, yalnız bir küçənin adının üstüörtülü verilməsinin özü də nəyəsə işarədir. Dövlətimizin, xalqımızın şəhidlərə həmişə sonsuz hörməti və ehtiramı vardır. Amma bir şəhidin adını silib həmin küçəyə başqa bir şəhidin adının verilməsi ən azı onun kimliyindən xəbərsizlikdir. Bakıda yüzlərlə adsız küçələr, meydanlar, ərazilər olduğu halda Molla Cumanını adının silinib başqa bir şəhidin adına verilməsini heç həmin şəhidin yaxınları da məqbul saymazlar . Bir halda ki, Bakı şəhərində heç kimin tanımadığı, xalqımıza, dövlətimizə bir faydası olmayanların adlarına xeyli küçələr vardır, bəs nə üçün onlar yerində qalır, amma Molla Cumanın adı silinir. Mən başa düşə bilmədim. Bu sərəncamı hazırlayan və ona imza atanların necə ola bilər ki, Azərbaycan ədəbiyyatı tarixində xüsusi yeri olan, aşıq sənətinin görkəmli nümayəndəsi Molla Cumanı tanımasınlar? Bu düşüncələrlə bir yazı yazıb Molla Cuma haqqında onlara məlumat vermək qərarına gəldim.**

Azərbaycan aşıq poeziyasının görkəmli nümayəndələrindən biri də Molla Cumadır. Molla Cuma 1854-cü ildə Şəki mahalının Aşağı Layısqı kəndində kasıb kəndli ailəsində anadan olmuşdur. Təhsilini doğma kəndinin yaxınlığında Baş Göynük kəndindəki mədrəsədə almışdır. Bu mədrəsədə ərəb, fars dillərini öyrənməklə klassik Şərq ədəbiyyatı ilə yaxından tanış olmuşdur. Görkəmli saz və söz sərrafı Aşıq Qurbani, Tufarqanlı Abbas, Aşıq Alı və Aşıq Ələsgərin şeirləri ilə tanışlıq onda aşıq poeziyasına dərin maraq və həvəs yaratmışdır. Bu maraq və sevgi, istedadı və şairlik təbi nəticəsində onu orijinal şair aşıq səviyyəsinə yüksəltmişdir.

Molla Cuma öz yaradıcılığında klassik Şərq ədəbiyyatı və aşıq sənəti ənənələrini məharətlə davam etdirmişdir. Gözəllik aşiqi olması, saf məhəbbəti, elinə və taleyinə münasibəti onun gözəl şeir nümunələri yaratmasına səbəb olmuşdur. Molla Cuma qələmini aşıq şeirinin bütün forma və janrlarında sınamışdır: Qoşma, gəraylı, təcnis, müxəmməs, müsəddəs, gözəlləmə və başqa formalarda klassik şeir nümunələri yaratmışdır. Bu nümunələr içərisində qızla gəlinin deyişməsi, qafiyə və təcnis. dübeyti misalı, aşıq Gönüllə deyişməsi, aşıq Donu ilə deyişməsi kimi irihəcmli əsərlər, Baxşı bəylə Leyli xanım", "Sayad və Sayalı" kimi dastanları da vardır. Molla Cumanın lirik şeirləri ilə yanaşı dövründən və dövrün zalim hakimlərindən şikayət, xalqın qanını soran qoluzorluları ifşa edən şeirlər onun yaradıcılığında xüsusi səciyyə daşıyır.

Molla Cuma məhəbbət şeirlərinin çoxunda özünün uğursuz məhəbbətindən söz açıb. Lakin sevgilisinə müraciətlə yazdığı şeirlərin heç birində sevdiyi, vüsalına yetişə bilmədiyi gözəlin adını çəkmir. Onu "İsmi pünhan" adlandırır. Bu şeirlərində sevgi yolunda çəkdiyi dərd-qəm, vüsal həsrəti və iztirablar, qadın hüquqsuzluğunun törətdiyi ictimai bəlalar , bu bəlaların bais olduğu milli inkişafdan geri qalmalar , nadanlıq, cahillik , avam dindarlardan şikayət öz əksini tapmışdır. Saf məhəbbəti anlamayan mövhümatçılara etiraz onun yaradıcılığında mühüm yer tutub. Molla Cumanın bu kimi şeirlərdə fəlsəfi-didaktik fikirlər böyük sənətkarlıqla qeyd edilmişdir. Fövqəladə və güclü idraka malik olan Molla Cumanın bir sıra şeirlərinə musiqilər yazılmışdır. Onun bir çox şeirləri el arasında dillər əzbəri olmuşdur.

Molla Cuma o səviyyədə kamil sənətkar, şair-aşıq idi ki,öz məqamını səviyyəsizlərə, paxıllara, xudpəsənlərə belə izhar edirdi.

*Qanaram, ustaddan almışam dərsi,*
*Oxudum türkinən, ərəbi, farsi,*
*Fikrim seyr edər ərşinən kürsi,*
*Dərin kitabların mənasıyam mən.*

*Aşnayam gedərəm doğru yolnan.*
*Bülbüləm söhbətim olar gülnən.*
*Danışsalar yetmiş iki dilnən,*
*O qədər arifəm, qanasıyam mən.*

Molla Cuma öz dövründə saysız-hesabsız toy məclislərində, el şənliklərində iştirak edərək, bir çox aşıqlarla deyişib və onlara öz zəkası, söz ustadlığı sayəsində qalib gəlib. O, öz qələbələrini isə bir şeirində belə qeyd edib.

*Aşıqlıq Adəmdən icad olubdur,*
*Ol Adəm atanın nəvəsiyəm mən.*
*Nə qədər dünyaya aşıq gəlibdir,*
*Külli aşıqların anasıyam mən!*

Öz yaradıcılığında həmişə xalqın mənafeyini əsas tutaraq xalqa zülm edənləri, din pərdəsi altında sadə, savadsız insanları soyub, talayanları tənqid atəşinə tutub. O, zalımlara, nankorlara haqqı, ədaləti ayaq altına atanlara açıq-aşkar meydan oxuyub, onlara öz sözünü belə deyib.

*Durubsan meydanda özünü çəkib,*
*Bu meydanda mən aslanam, sən kimsən?*
*Girərəm ortaya qaş-qabaq töküb,*
*Çillə kimi qor salaram, sən kimsən?*

1918-ci ildə Azərbaycanda ilk dəfə müstəqil dövlət qurulanda Molla Cuma ictimai xadim kimi bu hadisəni yüksək qiymətləndirir, öz yaradıcılığında onu belə qeyd edir.

*Cuma bir bülbüldür fəna dünyada,*
*Sözləri düşəcək sana dünyada,*
*Vuraq zərbə bəyə, xana dünyada,*
*Azadlıqdan xoş bir səda eşitdim.*

Molla Cuma öz dövründə təkcə Qafqazda deyil, İranda, Türkiyədə və Orta Asiyada tanınan şeirləri, ustadnamələri və deyişmələri dillər əzbəri olan böyük sənətkar olub. 1920-ci ilin may ayında Azərbaycan dövləti sovet-bolşevik ordusu tərəfindən işğal olunanda Gürcüstandan, Balakən, Zaqatala, Qax rayonlarından keçərək qədim ipək yolu ilə Şəkiyə gələn, tərkibində çoxlu sayda erməni olan XI Qırmızı Ordunun hərbçiləri Şəkinin Aşağı Göynük kəndi ərazisində toy mərasimindən qayıdan Molla Cuma və onun sənət dostları ilə qarşılaşıblar. XI ordunun erməni hərbçiləri Molla Cumanı və onun sənət dostlarını qarət edərək onları qətlə yetiriblər. Bir neçə gün sonra kənd adamları onların cəsədlərini və sındırılmış musiqi alətlərini yolun kənarındakı



kolluqdan tapıblar. Həmkəndliləri qılınc və süngü ilə doğranmış cəsədlərin hissələrini yığıb, elə həmin ərazidə də yolun kənarında dəfn ediblər. Molla Cuma XI Qırımızı ordunun əsgərləri tərəfindən öldürüldüyünə görə 70 il sovet hakimiyyəti illərində onun əsərləri arasıra çap edilib, amma yaradıcılığı və şəxsiyyəti haqqında geniş danışılmayıb. Erməni dəyirmanına su tökən sovet məmurları həmişə Molla Cumanı kölgədə saxlamağa çalışıblar. Ancaq dahilərin dediyi kimi: "Brilyant qaşı qaranlıq bir dərənin dibində də olsa, öz şöləsini ətrafa saçacaqdır". Ermənipərəst sovet məmurları Molla Cumanı nə qədər dərinliklərdə gizlətməyə çalışsalar da, o, öz zəkası və qeyri-adi ustad sənətkarlığı ilə uzun illər xalqın yaddaşında yaşamış və yenə də yaşayacaqdır.

1982-ci ildə Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin sədri, Xalq şairi Nəbi Xəzri Şəkiyə gəlmişdir. O, Şəki rayonundan - Molla Cumanın dünyaya göz açdığı, mükəmməl təhsil aldığı kəndlərdən Azərbaycan Respublikasının Ali Sovetinə deputat seçilmişdir. Həmin vaxt mən Şəki radio verilişləri redaksiyasında böyük redaktor işləyirdim. Nəbi Xəzrinin seçicilər ilə görüşü oldu. Bu görüşdən geniş reportaj hazırladım. Görüşdən sonra o vaxt Şəkidə ikinci katib işləmiş, böyük ziyalı Ənvər Nəzərli, mənim yaxın dostum, böyük şair Vaqif Aslan və mən çay süfrəsi ətfarında söhbət etdik.

Həmin söhbət zamanı Nəbi Xəzri dedi ki, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyev çox vətənpərvər və qeyrətli şəxsiyyətdir. O, xalqın ziyalılarına xüsusi diqqət və qayğı göstərir. Heydər Əliyevin təkidi ilə Molla Cumanın şeirlər kitabı çapa hazırlanır. Mən dedim ki, Nəbi müəllim, Molla Cumanı XI Qırmızı Ordunun tərkibində gələn erməni hərbçilər öldürüblər. Nəbi müəllim mənə tapşırdı ki, bu faktı dəqiqləşdir və bir yazı hazırla. Mən 1986-cı ildə Nəbi Xəzrinin rəhbərlik etdiyi Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin orqanı olan "Odlar yurdu" qəzetinə bu faktı bəyan edən yazı apardım. Üç əlifbada çap edilən və dünyanın bir çox ölkələrinə göndərilən bu qəzetin baş redaktoru, mənim tələbə yoldaşım, əziz dostum Ramiz Əsgər idi. O, indi Bakı Dövlət Universitetində Türk xalqları ədəbiyyatı kafedrasının müdiri və dünya şöhrətli professordur. Ramiz Əsgər həmin yazını oxudu və mənə baxıb dedi: Bakının mikrorayonundakı dairədə XI Qırmızı Orduya ucaldılan abidəni yəqin ki, görmüsən? Mən dedim, bəli, görmüşəm. Dedi, bəs bu nədir yazıb gətirmisən? Mən cavab verdim ki, Nəbi müəllimlə Şəkidəki görüşümüzdə o, bu mövzuda yazı hazırlamağı mənə tapşırdı və dedi ki, Molla Cuma yaradıcılığına Heydər Əliyev xüsusi diqqət göstərir. Onun necə öldürülməsi barədə də faktlara əsaslanan yazı yazmaq lazımdır. Mən də Molla Cumanın həmkəndliləri olan yaşlı adamlarla və yaxın qohumları ilə görüşüb, bu faktı dəqiqləşdirmişəm. Ramiz Əsgər dedi ki, onda dur birlikdə gedək Nəbi müəllimin qəbuluna, qoy bu yazı haqda mən ona məlumat verim. Biz birlikdə Nəbi Xəzrinin kabinetinə getdik. O, bizi hörmətlə qarşıladı. Ramiz Əsgər Nəbi müəllimə dedi ki, mənim jurnalist dostum Çingiz Nağıyev bir yazı gətirib və orada yazıb ki, Molla Cumanı 1920-ci ilin may ayında Şəkiyə gələn XI Qırmızı Ordunun tərkibində olan erməni hərbçilər öldürüblər. Bunu biz çap edə bilərik? Axı Bakıda XI Qırımızı Ordunun şərəfinə abidə ucaldılıb. Nəbi Xəzri çox təmkinlə cavab verdi ki, o abidənin qoyulmasını Moskva təkid edib, Molla Cumanın kitabının çap edilməsini isə Heydər Əliyev tapşırıb və onun necə öldürülməsinin mətbuata çıxarılmasına maraqlıdır. Mənim bu mövzudan məlumatım var, yazını götür, qəzetdə çap edək və dünyanın hər yerinə göndərək. Qoy hamı bilsin ki, Molla Cuma XI Qırmızı Ordu tərəfindən qarət edilərək öldürülüb.

Bizim bu söhbətimiz 1986-cı ilin ortalarında olmuşdur. Bir neçə gündən sonra "Odlar yurdu" qəzetində mənim həmin məqaləm çap edildi. Bundan sonra mənə ardıcıl hücumlar, təzyiqlər oldu. Son anda sanki ilahi bir qüvvə məni xilas etdi və heç bir cəza almadan işimi davam etdirdim. Allah o vətənpərvər, böyük şəxsiyyətlərə rəhmət eləsin.

Bəli, Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Molla Cumanın seçilmiş əsərləri yazıçı nəşriyyatında çap edilmişdir. 1984-cü ildə həmin kitab rus dilinə tərcümə olunmuşdur. 1995-ci ildə "Maarif" nəşriyyatında Molla Cumanın yenə də şeirlər kitabı çap edilmişdir. 2000-ci ildə Molla Cumanın əsərləri 3 cilddə çap olunmuşdur.

2006-cı və 2017-ci illərdə isə möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının tövsiyyələri ilə Molla Cumanın şeirlər kitabı yeni əlifba ilə çap edilmişdir. Molla Cumanın 150 illiyi, 160 illiyi respublikamızda xüsusi hörmət və etiramla qeyd edilmişdir.

Yaxşı olar ki, Molla Cumanı tanımayanlar onun bu kitablarından heç olmasa birini əldə edib oxusunlar və Molla Cumanın böyüklüyünü bəlkə görə bilərlər.

**Bu dəqiqdir ki, Molla Cuma da yüz il qabaq ermənilər tərəfindən qətlə yetirilən şəhidlərdən biridir. Bakı şəhərində onun adına verilmiş küçə bərpa edilməlidir. Bu məsələyə öz münasibətini bildirmək üçün Azərbaycan Yazıçılar Birliyinin sədri, çox hörmətli Anar müəllimə və Azərbaycan Aşıqlar Birliyinin sədri Məhərrəm Qasımlıya müraviət edirik.**

**Şəki şəhəri**

# Qarabağda Dirçəliş və Böyük Qayıdış haqqında gənc jurnalistlərə mühazirə oxunub

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini Fuad Hüseynov ADA Universitetində bir qrup gənc jurnalist qarşısında Qarabağda dirçəliş prosesinə həsr olunmuş mühazirə ilə çıxış edib. Universitetlə Medianın I?nkis?afı Agentliyinin birgə layihəsi olan I?xtisasartırma Proqramları çərçivəsində təşkil olunmuş nəzəri və praktiki biliklər seminarının iştirakçıları agentliyin "MEDI?A Könu?llu?ləri" proqramının fəalları arasından sec?ilib.**



F.Hüseynov dinləyicilərə ölkəmizdə qaçqınlıq və məcburi köçkünlük probleminin yaranmasının tarixi köklərinin səbəbləri, bu kateqoriyadan olan şəxslərlə iş sahəsində ölkə başçısının rəhbərliyi ilə dövlət siyasəti,bu kateqoriyadan olan şəxslərlə Dövlət Komitəsinin fəaliyyəti, həmçinin torpaqlarımızın işğaldan azad edilməsi ilə əlaqədar Böyük Qayıdışın başlanmasına hazırlıq işləri barədə ətraflı məlumat verib.

Qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsinin təmin edilməsi, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, məşğulluq imkanlarının artırılması sahəsində ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xətti Prezident İlham Əliyevin uğurla davam etdirdiyi, ölkəmizin iqtisadi inkişafının bu kateqoriyadan olan insanların yaşayış səviyyəsinə müsbət təsir göstərdiyi, indiyədək 320 mindən çox məcburi köçkünə müvəqqəti məskunlaşma üçün yeni müasir mənzil və ya fərdi ev verildiyi, onlara dövlət büdcəsindən vahid aylıq müavinət ödənildiyi bildirilib. Həmçinin qeyd olunub ki, ödənişli əsaslarla ali məktəbə daxil olan məcburi köçkün statuslu gənclərin təhsil haqqı dövlət vəsaiti hesabına ödənilir. Birinci vitse-prezident xanım Mehriban Əliyevanın məcburi köçkünlərə xüsusi qayğı göstərdiyi, onlarla tez-tez görüşdüyü, problemlərini şəxsən dinlədiyi və həll etdiyi diqqətə çatdırılıb.

Seminarda Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Zəfərin tarixi əhəmiyyəti, həmçinin işğaldan azad edilmiş Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi, məcburi köçkünlərin ata-baba yurduna qayıdışının təşkili istiqamətində dövlətimizin başçısının tapşırıqlarının icrası barədə də əhatəli məlumat verib. Yaxın 10 ildə ölkəmizin sosial-iqtisadi inkişafının Böyük Qayıdışla bilavasitə əlaqəli olduğunu bildirən F.Hüseynov "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də bu məsələnin öz əksini tapdığını qeyd edib.

**Tələbə-jurnalistlərin nəzəri və praktik biliklərinin artırılması məqsədilə təşkil edilən seminar iştirakçılarının çoxsaylı suallarının cavablandırılması ilə yekunlaşıb.**

# Azərbaycanda respirator virusa yoluxanların sayı artıb?

**"Ölkədə COVID-19 infeksiyasının görə hazırkı epidemioloji durum sabitdir".**

Adalet.az xəbər verir ki, bunu Oxu.Az-a açıqlamasında Səhiyyə Nazirliyinin ekspert-mütəxəssisi Təyyar Eyvazov deyib.

Onun sözlərinə görə, son günlərdə yoluxma sayında da azalmalar müşahidə edilir:

"Eyni zamanda koronavurusa yoluxan aktiv xəstələrin sayı da azalır. Müalicə olunub evə buraxılanların sayı yeni yoluxanların sayından çoxdur. Bu durumda narahatlığa əsas yoxdur.

Lakin payız-qış mövsümündə ənənəvi olaraq respirator virus infeksiyaların sayı artır. Problem ondadır ki, bu infeksiyaların da başlanğıc əlamətləri COVID-19 infeksiyasının ilkin əlamətlərinə oxşayır. Onları fiziki əlamətlərə görə bir-birindən ayırmaq mümkün deyil. Yalnız spesifik laborator müayinələrdən sonra təyin edilə bilər".

T.Eyvazov qeyd edib ki, istər uşaq, istər böyük hər hansı ailə üzvündə belə bir durum aşkarlanarsa, ilk növbədə



onu izolyasiya etmək lazımdır. "İnsanların bu durumlarda "Omikron" ştammı ilə bağlı narahatlıqlarına əsas yoxdur. Dünyada yayılsa da, Azərbaycanda bu ştammın aşkarlanması ilə bağlı rəsmi qurumlar heç bir məlumat verməyib. Buna görə də hələ bu, bizdə müəyyən qədər arxayınlıq yaradır.

Lakin buna baxmayaraq, biz ehtiyatlı olmalı, gigiyena qaydalarına riayət etməli və vaksinasiya prosesində iştirak etməliyik", - deyə infeksionist qeyd edib.

# Davamlı sülh ümumibəşəri sosial-siyasi dəyərdir

## Birgə yaşayışın əsas üsulu əməkdaşlıqdır

**İkinci Qarabağ müharibəsi başa çatdı. Azərbaycan Ordusu Ermənistanın işğalçı qüvvələrini öz torpaqlarından çıxartdı. İndi başlıca suallardan biri budur ki, Azərbaycan və erməni icması Qarabağa qayıdıb birgə yaşaya biləcəkmi?Bunun üçün, ilk növbədə, ermənilərin yerli mülki azərbaycanlılara Birinci və İkinci Qarabağ müharibələri zamanı davranışına diqqət edək. Həmin şəraitdə ermənilər qonşuları olmuş yerli azərbaycanlılarla birgə yaşamaq üçün körpü saxlayıbmı?Ancaq I və II Qarabağ müharibələrində Azərbaycan hərbçiləri dinc erməni sakinlərə qəsdən xəsarət yetirməyib, mülki obyektləri və yaşayış yerlərini hədəfə almadığını dəfələrlə bəyan edib. Baxmayaraq ki, ermənilər hərbi texnikanı dinc erməni sakinlərinin yaşadığı yerlərdə yerləşdirməklə onları hədəfə çevirmişdilər.Azərbaycan döyüş bölgəsindəki dinc erməni sakinlərinin ərazini tərk etməsi üçün humanitar dəhlizi açıq saxladı.**

Ümumiyyətlə, Azərbaycan Ordusunun bölgədən qaçanlara hər an zərbə endirmək, onları PUA-larla vurmaq imkanı olsa da, bunu etməyib. Azərbaycanın bu cür humanist davranışı ermənilərin bölgəni rahat şəkildə tərk etməsinə yardım edib.Deməli, azərbaycanlılar ermənilərlə dinc yanaşı yaşamaq üçün körpüləri yandırmayıb. Bu baxımdan Azərbaycan tərəfi ermənilərin yerli azərbaycanlılarla dinc yanaşı yaşaması üçün hər cür şəraiti yaradıb.

Prezidentimiz İlham Əliyev çıxışlarında dəfələrlə bildirib ki, Azərbaycan vətəndaşı olan dinc ermənilərin Qarabağda azərbaycanlılarla birgə yaşaması üçün heç bir problem yoxdur. Onlar da Azərbaycanın bərabərhüquqlu vətəndaşları ola bilərlər. Bu isə onların hüquqlarının və təhlükəsizliklərinin qorunmasına ən yüksək səviyyədə təminatdır.Azərbaycan tərəfi öz erməni vətəndaşlarına birgə yanaşı yaşamaq üçün ən yüksək səviyyədə təminat verdiyi halda Ermənistan rəsmiləri bununla bağlı qarşıdurma yaradırlar.

Beləliklə, Azərbaycan vətəndaşı olan dinc ermənilərin geri qayıtması üçün şərait yaradır. Ancaq əsas məsələlərdən biri də dinc, silahlı və qonşusu olan ermənidən ziyan görən azərbaycanlı birgə yaşayışı qəbul edəcəkmi? Axı həmin ermənilər qonşusu olan azərbaycanlının evini dağıdıb, yurdunu talayıb.Çox çətin məsələdir. Ancaq mümkünsüz deyil. Fransız, alman və ingilis də bir-birinə qonşudurlar.

Tarixən onlar arasında çoxillik müharibələr olub. Ancaq sonda onlar bir yerdə Avropa İttifaqı kimi möhtəşəm beynəlxalq birliyi yaradıblar, dinc şəkildə yaşayırlar. Hazırda onları daha çox iqtisadi maraqlar birləşdirir. Keçmiş düşmənlikləri isə yalnız tarixdə qalıb və unudulmur. Ona görə ehtimal etmək olar ki, ermənilər Qafqazda, o cümlədən Azərbaycanda yaşamaq istəsə, gərək başqa xalqlara düşmən mövqeyindən çəkinsinlər. Törətdiyi soyqırımı cinayətlərindən də göründüyü kimi, ermənilərin qonşuları ilə birgə, dinc yaşamaqdan savayı çıxış yolu yoxdur. Əks halda bir zaman onları qorumaq üçün başqa bir dövlətin



ordusu Azərbaycana, yaxud Cənub Qafqaza gəlməyə bilər. Bu gün Azərbaycan dünyada tolerantlığın və multikulturalizmin mərkəzlərindən biri sayılır. Azərbaycanda yaşayan xalqlar və müxtəlif dinlərin nümayəndələri arasında hər zaman sülh və qarşılıqlı anlaşma olmuşdur. İşğaldan azad edilən torpaqlarda yaşayan ermənilər artıq yaxşı həyat sürəcəklər. Azərbaycan bunun üçün hər cür şərait yaradacaq. Ermənistanın guya erməni əhalisinin Azərbaycan tərəfindən soyqırımına məruz qalacağı barədə iddiaları əsassız və yalandır. Elə olsa idi, bu gün Azərbaycanda minlərlə erməni sülh və əmin-amanlıq şəraitində yaşamazdı. Ermənistan hər zaman öz yalanlarını bu kimi iddialarla əsaslandırmağa çalışır. Ermənistanın artıq həqiqi imici ifşa olunub, dünya birliyi tərəfindən cinayətkar, uşaq qatili kimi tanınır. Bu gün Ermənistan əhalisinin 99%-ni ermənilər təşkil edir. Burada yaşayan digər xalqların və dinlərin nümayəndələri daim təzyiq altında saxlanılır. Ermənistanda azərbaycanlılara məxsus bütün abidələr, məscidlər, ziyarətgahlar, məzarlıqlar tamamilə dağıdılıb. Bu erməni vəhşiliyinin bariz nümunəsidir.

Təəssüflər olsun ki, bu günə kimi heç kim Ermənistanı bu cinayət əməllərinə görə qınamayıb.Dünya birliyi ikili standartlara son qoymağı Ermənistanın bu cinayət əməllərindən çəkindirməlidir. Ermənistanın bu cinayətləri törətməsinin əsas səbəbi bu günə kimi cəzasız qalmasıdır. Əgər zamanında Ermənistana sanksiyalar tətbiq edilsəydi, Ermənistan bu qədər cinayət törətməzdi və uzun illər Azərbaycan torpaqları işğal altında qalmazdı".Azərbaycanda bütün dinlərə də münasibət eynidir. Məscidlər də, kilsələr də, sinaqoqlar da eyni şərtlərlə fəaliyyət göstərirlər. Təsadüfi deyil ki, bir neçə gün öncə Gəncəyə raket atılanda erməni əsilli azərbaycanlı yaralandı. Bunu bilə-bilə azərbaycanlılar Azərbaycan vətəndaşı olan həmin ermənini xilas edib təcili yardıma apardılar, ona qarşı hər hansı nifrət hissi də göstərməyiblər. Bu gün də Azərbaycanda ermənilər yaşayırlar. Azərbaycan prezidenti də, dövlətimiz də, xalqımız da belə düşünür ki, erməni əsilli azərbaycanlılar, burada doğulanlar, təbii ki, Azərbaycana qarşı silah qaldırmayanlar (bu faktor da araşdırılmalıdır), döyüşməyənlər qanunlarımıza və Konstitusiyamıza əməl etməklə normal vətəndaş kimi yaşaya bilərlər. Biz burada hər hansı problem görmürük".

Tarixən belə olub, türklər imperiya dövründə belə getdikləri torpaqlarda kilsələri də qoruyublar, insanlara da təhlükəsiz yaşamaq üçün hər cür şərait yaradıblar. Ona görə də, bizim bu savaşı bütün dünya normal qarşılamalıdır.

Erməni vətəndaşların necə davranacağı artıq gələcəyin işidir. Millətindən asılı olmayaraq Azərbaycan dövlətinə qarşı kimsə separatçı hərəkət edərsə, qanunları pozarsa, qanun qarşısında cavab verəcək. Azərbaycan Daxili İşlər Nazirliyi , Dövlət Təhlükəsilik Xidməti və başqa orqanlar hər kəs üzərində olduğu kimi, erməni əsilli azərbaycanlılar üzərində də nəzarəti aparacaqlar. Gələcəkdə kimsə qanuna əməl etməzsə, buna cavab verəcək. Ancaq bizim indi bu məsələni başqa şəkildə qoymağımız doğru olmazdı". Ermənilərin "böyük Ermənistan" xəyalları olmasaydı, bu gün həmin o birgə yaşayış davam edəcəkdi. Bütün olanlara baxmayaraq, Azərbaycan dəfələrlə bəyan edib ki, ərazi bütövlüyümüz çərçivəsində Dağlıq Qarabağda ermənilərin yaşamağı mümkündür. Əgər istəyirlərsə, digər etnik qruplar kimi onlar da heç bir referendum keçirmədən Azərbaycanın tərkibində yaşaya bilərlər. Bundan başqa, məlumdur ki, bu gün Azərbaycanın müxtəlif şəhərlərində də ermənilər yaşamağa davam edir. Azərbaycan hər zaman tolerant, çoxmillətli və multikultural ölkə olaraq digər etnik qruplara qarşı dözümlü yanaşıb , eyni zamanda bu yoldan əsla dönməyi düşünmür.

**Birmənalı şəkildə bilməliyik ki, hal-hazırki lokal və beynəlxalq hərbi siyasi reallıq Azərbaycanın suverənliyi təmin olunmaqla onun bayrağı, onun qanunları ilə birgəyaşayışı qaçılmaz edir. " Dəmir Yumruq " siyasətinin çoxilliklərə hesablanmış strateji planlarını həyata keçirmək üçün müvəqqəti taktiki addımlar bizi məqsədimizə aparan yeganə yoldur!**

**Kərim Novruzov,**
**Ağdam rayon 95 saylı köçkün tam orta məktəbin tarix müəllimi**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

---

# "Tahirəm, sirrimi qəsdən yazıram"



*Əkbər Qoşalı,*
*Beynəlxalq "Alaş" Ədəbi Mükafatı laureatı*

**Ərəblərin "Lə tucəd sadfətə fil aləm, hunəkə tavafuq" ("Bu aləmdə təsadüf yoxdur, nə olsa təvafüqlükdəndir") sözünü son vaxtlar tez-tez işlədirəm. Ruhanilər təsadüfləri inkar etməsə də, "geniş və əhatəli baxışa görə aləmdə təsadüf yoxdur" fikrinə ortaqdır. Elmdə təsadüflər haqqında oxumuşuq: Bağda Nyutonun başına alma düşməsi, bununla dahi alimin Yerin cazibə qüvvəsini kəşf etməsi, yaxud başqa bir tədqiqat aparan alimin tamamilə başqa elmi sirrin üstünü açması kimi...**

Ədəbiyyatda, incəsənətdə təsadüf varmı? - Bu suala ən ümumi cavablardan biri "Yanlış da bir çeşnidir" ola bilər, bəlkə. Təsadüfən yanlışqlıqla vurulmuş ilmə, boya, hansısa söz, hansısa not yanlışlıqla işlədilsə də, nəticə etibarı ilə fərqli bir çiçəklənmə, gözəllik hasil olur... Yanlışlıq o zaman təsadüf sayılır ki, müəlifin yaradıcılığının mətn-mündəricəsinə bələd olunca, görürsən ki, o, nizamlı, qayda-qanunauyğun yaradıcılıq özkeçmişinə malikdir; deməli, hansısa "xaric", xaric deməyək, fərqli şəkillənmə yanlışlıq yaxud təsadüfdür... Bununla bağlı bir məşhur hind misalı da, başqa misallar da var, onları yazıb, vaxt almaq, mövzudan uzaqlaşmaq istəmirəm. Bir də QABİL örnəyi var: Xalq şairi QABİLin möhtəşəm "NƏSİMİ" poeməsını yazarkən arada qələmə aldığı başqa fakturalı şedevrlərin (örnəyi, "Səhv düşəndə yerimiz") nə yanlışlıq, nə təsadüf deyil, məhz təvafüq olması kimi...

Mən indi əsas mövzuma keçərkən, vurğulamalıyam ki, söhbət heç də yanlışlıqdan getmir: haqqında danışacağım ziyalı ilə tanışlığımızın və onun yaradıcılıqla məşğul olmasını, şəxsi tanışlığımızdan bir neçə ay sonra bilməyim təsadüf deyil, təvafüqlükdür. Nə necəsə, elədir, demək, belə olmalıymış. Bəlkə də özünü tanımadan sözünü, kitabını tanısaydım, düzgün qənaətlərə gələ bilməzdim, bilmirəm. Bəlkə də, 2-3 il öncə eşitsəydim ki, "Millət vəkili, siyasətçi Tahir Rzayev şeir yazır, esse yazır", bunu yanlış məlumat sanardım.

Təsəvvür edin, tamamilə başqa sahənin təmsilçisi və o sahə üzrə mühüm vəzifənin daşıyıcısı olan hörmətli Millət vəkili Tahir Rzayev ədəbi yaradıcılıq örnəklərinin toplandığı kitablarını mənimçün imzalayınca, bir ildən artıq qonşu otaqlarda əyləşməyimiz, hər iş günü rastlaşmağımız, salamlaşmağımızın üstünə bir başqa rəng gəldi, necə deyərlər, çiçəklənmə oldu. Tahir müəllimin avtoqraflı kitabları ilə tanışlıqdan sonra, onun biləvasitə məsul olduğu "Aqrar siyasət" işi ilə yanaşı ədəbi yaradıcılıqda da məhsuldar olduğunu, səmimi, xəlqi duyğularını oxucuları ilə ürəklə bölüşdüyünü gördüm.

*"Gozümun yaşını yoluna səpdim,*
*Dərd bitdi, qəm düşdü payıma mənim.*
*Sənsiz günlərimin üzündən öpdüm,*
*Xatirən yetişdi hayıma mənim."*

("Mənim" (Yazının başlığına çixarılmış misra da bu şeirdəndir));

***"...Zəncirini boynumdan as,***
***Qandalını qoluma vur.***
***Gözlərini dik gözümə,***
***Həqiqətlə üz-üzə dur."***

**"Səhvlərimi qandır mənə")...**

- bunlar Millət vəkilinin "Həsrətimin yaşı dünya qədərdir" adlı poetik toplusundandır.

Tahir müəllimin mənə bağışladığı ikinci kitab məqalələr toplusudur.

Öz siyasi kredosuna sadiq, bununla yanaşı həlim xasiyyətli tanınmış ziyalının "Ürəyimin səsi" toplusundakı yazılarının bir çoxu müəllifin ürəyini, hiss-həyəcanını daha sərrast ifadə edir - belə gördüm.

O, fəlsəfə doktorudur. Kitabı da dünyada baş verən ictimai-siyasi olayları, onu düşündürən məsələləri fəlsəfi planda qiymətləndirmək baxımından xarakterik sayila bilər. Hər sətirdə Tahir Rzayevin həqiqətən də ürəyinin səsi eşidilir, Vətənə, Xalqa, Torpağa, İnsanlığa məhəbbəti duyulur:

- "Ana dili xalqın mənəviyyatının güzgüsüdür. Bu güzgüdə özünü aydın görməyənlər başqa güzgüdə olduğu kimi görünə bilməz. Güzgü ləkə götürmədiyi kimi dil də ləkələndirilməməlidir."

("Ana dilimizi sevək və qoruyaq");

- "Folklorumuz, ən kicik şifahi xalq ədəbiyyatı nümunəsi belə milli ruhumuzun ifadəsi kimi qiymətlidir";

***- "Hər oba yurdum olmaz,***
***Hər oğul mərdim olmaz.***
***Sənə əlim yetişsə***
***Dünyada dərdim olmaz." -***

Mən nənəmin dilindən onlarla bayatı, nağıl, əfsanə eşitmişdim, Universitetdə tələbə olarkən onların bir çoxunu toplayıb kurs işi kimi müdafiə etmişdim və bir çoxlarını qələmə alıb saxlamadığım üçün bu gün də peşmançılıq hissi keçirirəm."

("Folklorumuzu qoruyaq və yaşadaq");

- "Həsən Mirzə dərdi əzizdir. Yaxşı insan və düşündürən sənət, ürəklərə yol tapan söz ölməzdir";

- "Şair Məstan Günər şahid olduğumuz və dərk etdiyimiz həqiqətləri, ədalətsiz, zora, gucə söykənən, haqlını çox vaxt haqsız edib zalıma, qan içənə bəraət qazandıran, dərdlinin dərdini dilə gətirirməyib nadanlara sirdaş olan dünyanın, ixtiyar sahiblərinin iç üzünü açaq deyir:

*Həsən Mirzə, dörd tərəfin qəfəsdir,*
*Tərlan torda bir çarəsiz nəfəsdir,*
*Dünya kordur, cahan hələ şikəstdir,*
*Gətirmək istəmir dilə dərdimi."*

**("Yaxşı insanlar unudulmur")...**

- Belə yazılar müəllifin siyasi fəaliyyətdən, o cümlədən aqrar siyasətdən ziyadə ədəbiyyat, mədəniyyət, incəsənət aləminin nümayəndəsi kimi, kulturoloq kimi qələm işlətdiyini göstərir.

***

- "Adama elə gəlirdi ki, Şuşa uzun illərin dəhşətlərini, həsrətini bir anda unutmuşdu..."

("Şuşada Türk dünyasının qəlbi döyünürdü");

- "Axı onlar daşnaq ideoloqu, türkün qanını içməyə hazır olan, bunu bütün "əsər"lərində, çıxışlarında ifadə edən, azərbaycanlı uşaqların başına gətirilən müsibətlərdən ləzzət alan, sevinən Zori Balayanın yetişdirməsidir."

("Azərbaycan Ordusunun möhtəşəm qələbəsi");

- "Biz xaricdə yaşayan həmvətənlərimizin yaxşı isləri ilə fəxr etdiyimiz, öyündüyümüz kimi, onlar da Azərbaycanın inkişafından, insanlarımızın birliyindən qürur duyur, sevinicimizə şad olur, ağrılarımızı birgə yaşayırlar."

("Bizim azərbaycanlılar")

kimi yazılar dünya azərbaycanlılarına ünvanlanıb; bu yazılar ümumən Türk dünyası ünvanlıdır, türklərə qarşı oynanılan çirkin oyunlar haqqındadır.

Əlbəttə, Tahir müəllim ona həvalə olunmuş sahədən daha çox yazır və belə yazılarının bir hissəsi məqalələr toplusunda yer alıb. "Torpaqlarımızın azad olunması aqrar sahənin inkişafını daha da sürətləndirəcək" məqaləsinin adı da, içəriyi də əsl mənzərəyə ayna tutur. Eləcə də digər məqalələr:

"İşğaldan azad olunmuş torpaqlarımız yeraltı, yerüstü sərvətlərlə zəngin olduğundan qeyri-neft sektorunun inkişafında, xüsusilə kənd təsərrüfatı məhsullarının istehsalında mühüm rol oynaya bilər." ("Arzular həqiqətə çevrilir"), "Torpağın sahibi insandır. Əldə ediləcək yüksək məhsul onun təşəbbüskarlığından, işinə münasibətindən, təsərrüfata, qazancına, ailəsini dolandırmağa marağından, düzgün düşünülmüş fəaliyyətindən asılıdır."

("İctimai-siyasi sabitlik inkişafımızın əsasıdır").

Və nəhayət:

"Ölülərin dirilərə məktubu"!

**Ən azı, Cəlil Məmmədquluzadənin 1909-cu ildə yazdığı 4 məclis və 5 pərdədən ibarət "Ölülər" komediyasından tutmuş, günümüzdə Mahir Qabiloğlunun "O dünyadan məktubları"nadək yazılan uyğun mövzulu əsərlər oxuculara yaxşı tanışdır. Tahir Rzayevin məhz bu mövzuda da qələm sınaması özgüvənin və bəlli üsluba, ədəbi priyoma marağının, məhəbbətinin ifadəsi kimi qarşımıza çıxır. Yenə xatırlayaq:**

**"Lə tucəd sadfətə fil aləm, hunəkə tavafuq"...**

**Tanınmış ziyalımıza yeni yaradıcılıq uğurları diləyirəm!**

---



*ALMƏMMƏD ELDAROĞLU*

### BAŞ KOMANDAN, MİLLİ ORDU

**Qartalların vurur halay,**
**Dağda-daşda bir samuray.**
**Düşmən salıb imdad, haray,**
**Baş Komandan, Milli Ordu.**

**Bayraq uca, uğur zəfər,**
**Qələbədi yürüş, səfər.**
**O müzəffər, bu müzəffər,**
**Baş Komandan, Milli Ordu.**

**Kürsülərdə bir söz deyir,**
**Ulu türküm qoşa gedir.**
**Dərbənd, Təbriz alqış deyir,**
**Baş Komandan, Milli Ordu.**

**Günəş odu, atəş odu,**
**Göy oğludu, qürurludu.**
**Bu torpağı o qorudu,**
**Baş Komandan, Milli Ordu.**

***

Vətən oğlu, vətən anan sağ olsun!.
Varlığınla sübut etdin düzünü,
Nurlandırdın parlaq günəş üzünü.
Cəlb elədin yurda dünya gözünü,
Qoy söhbətin, sözün keçsin, yağ olsun,
Vətən oğlu, Vətən anan sağ olsun!

Parçaladın buxov dəmir sədləri,
Bir qol etdin doğma şəhər, kəndləri.
Tuş elədin yağıya xiffətləri,
Türkçülüyün, arxa olsun, dağ olsun,
Vətən oğlu, Vətən anan sağ olsun.

Ulu bayraq, zəfər yol, yelkənindir,
Əziz Şuşa, ata yurd məskənindir.
Bu istiqlal, azad ölkə sənindir,
Xarı bülbül pöhrə versin, bağ olsun,
Vətən oğlu, anan vətən sağ olsun.

Sən dahilər qüdrətiylə yarandın,
Şəhidliklə ölümsüzluk qazandın.
Odlar yurdu, Azərbaycandır adın,
Ucalardan, uca üzün ağ olsun,
Vətən oğlu, anan vətən sağ olsun!

Vətən müqəddəsdi, vətən ülvidi,
Vətən heysiyyətdi, vətən sevgidi.
Vətən ana dilin söz beşiyidi,
Qoy elmi - ədəbin, işin cağ olsun,
Vətən oğlu, anan vətən sağ olsun!

### ÜRƏK AÇDIĞI QAPI

**Dilin gödəkdi sapı,**
**Mehirə salsa meyil.**
**Ürək açdığı qapı,**
**Kədərə, qəmə deyil.**

**Bu boş hiss, həyacanlar,**
**Qəlb üzüntüləridi.**
**Xoş keçən cuzi anlar,**
**Şər görüntüləridi.**

**Bu yol gedir "Ocağ"a,**
**Bilirəm hara kimi.**
**Ordan da kim aparsa,**
**Gedəcəm ora kimi.**

**Könül yüklü sirrini,**
**Ürəyində saxlasın.**
**Ölüykən bir dirini,**
**Eşq adıyla ağlasın.**

**Naxçıvan**

---



*Rafiq ODAY*

### AY AĞA QURBAN

*Dedin, adın kimi ağayanasan,*
*Çağırdın, ay ağa, ay ağa qurban.*
*Mən də başım üstə qurdum taxtını,*
*Düşmə gəl ayağa, ay ağa qurban.*

*Düşsən, yem olarsan qurda-quşa sən,*
*Saçımdan bir yuva qur da quşa sən.*
*Sığınma yalavac qurd ağuşa sən,*
*Tez bükər ay ağa, ay ağa qurban.*

*Əllərin yalmana sinə sinəmdə,*
*Nə olar uyusaq sinə sinəmdə,*
*Hicrindən aşiqin sinəsi nəmdə,*
*Buludtək ay yağa, ay ağa qurban.*

*Sənin şikarınam, ovunam, gözəl,*
*Umac istəyirdin, ov, unam, gözəl,*
*Çıxmasam, çətin ki, ovunam gözəl,*
*Qaradan ay ağa, ay ağa qurban.*

*Səninlə bu eşqi illər boyatmaz,*
*Sənsiz qısır qalar sevgim, boy atmaz,*
*Bu zülmət könlümü nura boyatmaz,*
*Göydən lap Ay yağa, ay ağa qurban.*

*Sənin aşiqindi o da, sına bax,*
*Qoyma ki, sevgidən o da sına, bax...*
*Od düşüb Odayın odasına, bax*
*Əriyən a yağa, ay ağa qurban.*

### QALMAZ

*Əkinin qaydası budu - əzəl dən,*
*Payıza saxlama, çıxar əz əldən.*
*Bölgünü biz belə gördük əzəldən, -*
*Qara toxa düşməz, ağ aca qalmaz.*

*Söz dedim qulağa - davası gedir,*
*Qoyulub Qu* lağa - davası gedir.*
*Hər yerdə qul-ağa davası gedir,*
*Gün gələr ağalar ağaca qalmaz.*

*Məclisə bəzəkdi mey və sini də,*
*Nə gözəl görünür meyvə sinidə.*
*Özünə saxlamaz meyvəsini də,*
*Nə də ki, kölgəsi ağaca qalmaz.*

*Hər oxu olanın bir dövr anı var,*
*Bir dövr yaşamaq var, bir dövr anı* var.*
*Hər açan çiçəyin bir dövranı var, -*
*İstər qara aça, ağ aça - qalmaz!*

*Qu* - Qu quşu*
*anı* - xatirə*

### GÜLNAR A GÜLDÜ...

*Elə pak, elə saf ürəyi var ki,*
*Tikan da, qanqal da Gülnara güldü.*
*Sanki bu dünyanın adamı deyil,*
*Güllər də baxışıb Gülnara güldü.*

*Hansı gül söyləməz güləm mən qəşəng, -*
*Təbiət qoynundan gül əmmən qəşəng!*
*Nar dərəm, sevinəm-güləm mən qəşəng,*
*Nar gülə güldüsə, gül nara güldü.*

*Deyincə: sevgisiz yaşa, sın, gözəl, -*
*Məni quru yuyub, yaş asın, gözəl,*
*Rəhm eylə Odaya, yaşasın, gözəl, -*
*Mənim bu sözümə Gülnar a güldü...*

### QURAN DAN GÖZƏL

*Tənhalıq ürəyə yara salandı,*
*Dəmir çıraq geydi, yar əsalandı.*
*Zülməti sevənlər yarasalandı, -*
*Könüldə min büsat quran dan gözəl.*

*Ruzi-bərəkəti düz əldən istə,*
*Zəhməti yan-yana düz, əldən istə.*
*Sınıq ürəkləri düzəldən istə,*
*Bir insan varmıdır qurandan gözəl?!*

*Yetər, atam oğlu, oyat yaddaşı,*
*Bir olsaq, neyləyər bizə yad daşı?*
*Nə dost gəz, çiynində nə də yad daşı, -*
*Dost tapmaq mümkünmü "Quran"dan gözəl?!*

# Nəzakət xanımın heç bir statusu onun insanlığından ucada deyil...



*Aydın Quliyev*

**Tanıdıqca ona daha da yaxınlaşmaq və onu daha dərindən tanımaq istəyi yarada bilən insandı.Başqa insanlarla oxşar və fərqli cəhətlərini axtarırsan, nəticədə oxşarlıqlardan daha çox onun başqalarından büsbütün fərqli və uca keyfiyyətlərinin üstünə gəlib çıxırsan.Onun şairəliyi də, yazarlığı da,kollektiv rəhbərliyi də , yaradıcılıq üslübü da beləcə fərqli və orijinaldır.**

Nəzakət xanımın şairə kimi , yazıçı kimi, publisist kimi, kollektiv rəhbəri, valideyn, ya konkret bir insan kimi hansının daha maraqlı personal status olduğunu araşdırmağın indiyədək kiminsə ağlına gəlib gəlmədiyini bilmirəm.Ancaq inanıram ki , bu yöndə axtarışlara baş vuran istənilən kəslər sonda eyni çətinliyin üstünə gəlib çıxmalıdır.Nəzakət xanımın şairəliyinin, yazarlığının , ya valideyn və kollektiv rəhbəri olaraq statusunun üstünlüyünü təyin etmək nə qədər çətin olsa da, sadə və çox asan olan bir mətləb bu çətinlikliyin üstündən qələm çəkir- Nəzakət xanımın heç bir statusu onun insanlığından yuxarıda deyil, o insan kimi bütün qazanılmış statuslardan yuxarıdadır.

Bütün müstəvilərdə insanlarla qurduğu və ya quracağı ünsiyyətin çərçivəsini öncədən çox dəqiq bilir, bunu bilməyin vacib olduğunu unutmur.Ən vacib odur ki, qarşısındakılara da belə bir çərçivə ilə hərəkət etdiyini anlada bilir.Bəlkə də elə buna görədir ki, ünsiyyət qurduğu, işgüzar, əməkdaşlıq və qohumluq münasibətlərində olduğu kəslərdən kiminsə onun imkanlarından sui- istifadə etdiyinə dair bircə fakt da göstərmək mümkün deyil.

İnsanlarla sağlam münasibət qurmaqda bacarıqlı və səriştəli olduğu qədər dostluğu və sağlam münasibətləri sabit saxlamağı da bacarır.

İnsanların heç də hamısının ədalətli, dürüst, həssas və düşüncəli olmadığı ənənəvi cəmiyyətdə Nəzakət xanım az qala paradiqmalar ( çox şeyin ölçüsü ola bilən) qədər çoxcəhətli əks- təsir gücünə malik davranış üslubuna sahibdir - Hamı ilə əxlaqlı, mədəni , tərbiyəli və səviyyəli davranış.

Çevrəsində onunla bağlı bədxah və xudbin niyyətlərdə olan istənilən xəbis qüvvə ilə onun çox uğurlu mübarizə üslubudur bu .Bunu Nəzakət xanımın müdrik tapıntısı da saymaq olar.

Abraam Linkoln oğlunun müəlliminə məşhur məktubunda " oğluma öyrədin ki, nəcib adamla nəcib, kobud adamla kobud olsun" deyə yazmışdı.150 ildən çox müddətdə sevilə - sevilə təhlil bə qəbul edilən bu kiçik tərbiyəvi məktubun bəzi mətləbləri Nəzakət xanımın öz şəxsi timsalında yaratdığı uğurlu davranış metodları ilə rəqabətə dözmür.Nəzakət xanım sübut edir ki, nadanı da, hissiyyatsızı da, kobudu və mədəniyyətsizi də eyni nəzakətli davranışla islah etmək, dürüst , ağıllı və mədəniyyətli adamlarla davamlı yol yoldaşlığı qurmaq olar. Sadə olduğu qədər prinsipial, nəzakətli oldiğu qədər cəsarətlidir, onun daşıdığı saflıq və səmimiyyətin dərinliyindəki polifonik ağılını görməyənlər bir anlığa onun barəsində " sa-



dəlövhdür" qənaətinə gəlsələr də dərhal da yanıldıqlarını başa düşür və geri çəkilirlər..

Nəzakət xanımın zəngin ədəbi - bədii yaradıcılığını təhlil etməyi digər peşəkar dostlarımıza buraxıram.

Tək bunu deyim ki, eyni vaxtda vətənpərvərlik tərbiyə məktəbi missiyası aparan Xatirə kitabı redaksiyasına rəhbərlik etmək, heç kimdən asılı olmayan " başıuca bir jurnal" yaratmaq, həm də fəlsəfəsi mütləq sadəlik üstündə qurulmuş poeziya yaradıcılığı ilə məşqul olmaq kiçik iş deyil.Nəzakət xanımın apardığı bu işlərin biri digərini qısqanmır, çünki hamısı yüksək və eyni səviyyədə aparılır.

Onun nəzakətli və yumşaq idarəçiliyi işdə ən sərt diktatorlardan, qupquru administratorlardan prinsipcə qat-qat artıq effekt verir.Çünki Nəzakət xanım öz xislətinə, düşüncə və mədəniyyət səviyyəsinə uyğun orijinal idarəçilik üslubu yaratmış insanlardandır.

Kifayət qədər ünsiyyətcil, miqyaslı və əhatəli insan olsa da , fikir və düşüncələrinin , davranışlarının etikliyi və saflığı baxımından tənha görünür.Ancaq tənhalıq onu zəif düşürən xüsusiyyətinə çevrilmir .Əksinə , bənzərsizliyi sayəsində öz tənhalığını özünün ən güclü xüsusiyyətlərindən birinə çevirməyi əla bacarır.Zəiflik, şikayət , çarəsizlikdən doğan acizlik, qan ağlamaq onun yaradıcılıq üslubuna xas deyil.Tək bir misal deyək." Məni tək qoymusan qəmin yanında " şeiri bədbinlik və zəiflik yox, " tək buraxıldığım qəmə də sonda qalib gələcəyəm" məntiqi altında meydan oxuyan bir döyüşkənlik nümunəsidir. Nəzakət xanımın öz sferasında və ümumən bütün növ istedad və yaradıcılıq müstəvilərində hamıdan fərqli başqa bir üstünlüyü də var.O öz yaradıcılığını və istedadını həyat, yaşayış, karyera və dolanışıq mənbəyinə çevirməyən nadir istedad sahiblərindəndir .Ümumiyyətlə, heç karyerist deyil, vəzifə , şöhrət dalınca qaçmır .Ala- babat istedadı ilə yazıb ortaya qoyduğu nəsr- nəzm kitabını qapı - qapı gəzdirənlərlə Nəzakət xanımı müqayisə etmək barədə düşünməyin özünün nə qədər ədalətsiz olduğunu sübut etməyə ehtiyac yoxdur.Onun üçün yaradıcılıq, şeir , poeziya maddi dəyərlər və cah- cəlal yaratmağın mənbəyi yox, istedadın təsdiqindən sadəcə zövq almaq üsuludur.Nəzakət xanım öz yaradıcılıq məhsullarını kimlərdənsə nəsə qoparmaq üçün cəmiyyətə təqdim etmir, əksinə , həyatı hər kəsə daha gözəl, daha arzuolunan etmək üçün təqdim edir.Bax onun yaradıcılığının böyük təmənnaslzlığı məhz bundadır.

Nəzakət xanım öz yaradıcılığından qəti təmənna güdməyən nadir şəxsiyyətlərdəndir.

**Bilmirəm bu ifadəni işlətmək nə qədər doğru olacaq.Məncə yaradıcı insanların yaradıcılıqlarının da xoşbəxti , bədbəxti olur .Onun yaradıcılığı " xoşbəxt yaradıcılıqlar" tədnifatına aiddir.Çünki onun yaradıcılığından heç bir artıq yük sallanmır, onun yaradıcılığı və istedadı ailəyə, qohum - əqrəbəyə, dost- tanışa gün - dirrik əldə etmək kimi yükləri daşımağa məhkum edilməyib, daha doğrusu özü bunu etməyib.Bu o demək deyil ki, çevrəsindəki insanların dərd- sərinə soyuq və laqeyddir, əksinə, onun qədər kimlərinsə problemlərinə çiyin verməyi bacaranlara tək- tək rast gəlmək olar.Sadəcə , Nəzakət xanımın böyüklüyü özünün heç kimdən geridə qalmayan məhsuldar yaradıcılığını gözlərə soxmamağındadır...**

# Lənkəran teatrı Ağdamda qastrol səfərində olub



**Noyabrın 23-də Lənkəran Dövlət Dram Teatrının truppası Ağdam rayonunda qastrol səfərində qastrol səfərində olub. Lənkəranlı sənətçilər Ağdam Dövlət Dram Teatrının Quzanlı qəsəbəsindəki binasında görkəmli Azərbaycan Dramaturqu Cəfər Cabbarlının "Vəfalı Səriyyə, yaxud göz yaşı içində gülüş" tamaşasını təqdim ediblər. Tamaşadan əvvəl çıxış edən Ağdam Rayon İcra Hakimiyyəti başçısının müavini Xəqani Nəzərov, Ağdam Dövlət Dram Teatrının direktoru Məhəmməd Hüseynov və Lənkərabn Dövlət Dram Teatrının direktoru Tofiq Heydərov rəhbərlik etdikləri kollektivlərin qarşılıqlı yaradıcılıq münasibətlərinin yaradılmasının əhəmiyyətindən danışaraq hər iki teatra uğurlar diləyiblər. Qeyd olunub ki, cari ilin iyul ayında Ağdam və Lənkəran teatrları arasında bağlanılmış niyyət sazişişində hər iki kollektiv arasında yaradıcı münasibətin qurulması, qarşılıqlı qastrol səfərlərinin təşkili, rejissor və aktyor mübadiləsi, texniki dəstək, yaradıcı görüşlər və təcrübə mübadiləsi nəzərdə tutulur. Vətən müharibəsində qazanılmış qələbədən sonra Qarabağa ilk qastrol səfəri də məhz Lənkəran teatrına qismət olub.**



Ağdam ictimaiyyətinin nümayəndələri tərəfindən maraqla izlənən tamaşada bir-birinə səmimi hisslər bəsləyən Səriyyə və Rüstəmin məhəbbəti ön planda təsvir olunur. Səhnə əsərində cəmiyyətin əsas mövcud problemləri, o cümlədən ictimai, əxlaqi-mənəvi inkişafa mane olan gerilik, mühafizəkar insanların çürük adətlərə sadiqliyi, pulun cəmiyyətə və əxlaqa göstərdiyi pozucu təsir kəskin tənqid atəşinə tutulur.

Tamaşanın quruluşçu rejissoru Xalq artisti Firudin Məhərrəmov, quruluşçu rəssamı Ramazan Ağayev, bəstəkarı Eldar Salayevdir. Rolları Aynur Əhmədova (Səriyyə), Səyad Əliyev (Rüstəm), Xalq artisti Qabil Quliyev (Həmzə), Əməkdar artist Sucəddin Mirzəyev (Səfər), Qızılgül Quliyeva (Çimnaz), Əbülfəz Axundov (Axund), Tərlan Abdullayev (Məhərrəm), Emin Fərzullayev (Qurban), Miraslan Ağayev (Molla Möhsün), Təranə Fərəcova (Hüsniyyə) və Amil İbrahimli (Əsgər) ifa edblər.

**Qastrol səfəri lənkəranlı sənətçilərə həm də unudulmaz anlar bəxş edib. Tamaşadan sonra onlar erməni faşistləri tərəfindən dağıdılmış Ağdam şəhər məscidinin və Ağdam Dövlət Dram Teatrının binasının qalıqlarına baş çəkərək mənfur qonşularımızın cinayətkar əməlləri ilə yerindəcə tanış oublar.**

**Ağaddin BABAYEV**

# SÖZ QƏDRİ BİLƏN ŞÖHLƏT ƏFŞAR

**"Dərdnamə"ni mütaliə etdikdən sonra anladım ki, o, yaxşı sözün, yaxşı şeirin və yazının sərrafıdır**

Əslində ədəbiyyat zamanın güzgüsü deyil, çünki çoxlu zaman gəlib keçib, amma bu və ya digər zamanda yaradılan möhtəşəm əsərlər zamanlarını aşıb, bugünümüzə gəlib çıxıb. Böyük əsərlər üçün əbədi sabahlar var. Azərbaycan ədəbiyyatının çağdaş dönəmində mövzu, yaradıcılıq qayğıları sarıdan gedən daim müzakirələrdə sabah üçün çox zaman müəyyən aydınlıqlar olmasa da, əslində əlinə qələm alan yazıçı fitrətən anlayır ki, ədəbiyyatın vəzifəsi əbədiyyətə tən gələn yaradıcılıq nümunəsi ortaya qoymaqdır və sənət insanı, xalqı, onun dərdlərini ifadə edəndə daha yaşarı olur...

Sıxıntılar, üzüntülər, ağrılar, acılar... Böyük ariflər deyiblər: "Bunlar bir Tanrı hədiyyəsidir". Təkyə qapısından içəri girə bilmək üçün ən qısa yol məhz bunlardan keçir. Heç bir elm, ədəb, təcrübə və sədaqət insanı əzab qədər, dərd qədər Allaha yaxınlaşdıra bilməz. Bu dünyada acı qədər, müsibət qədər sürətli heç nə yoxdur. Əgər bir vücud həqiqətin işığına bürünübsə, dərddən, bəladan küsməməli, onlardan qaçmamalıdır. Dərd gələndə onu əziz qonaq kimi qarşılamalı, üzünə gülməli, əzizləməlidir. İllər uzunu mətbuatdan tanıdığım görkəmli şair, yaradıcı insan Şöhlət Əfşar kimi!

Bəli, haradasa 17-18 ildir Şöhlət Əfşarı tanıyıram. Yox, təkcə tanımıram, həm də dostluq edirəm. Real həyatdakı dostluğumuz virtual sferada davam edir. Elə gün olmur ki, "feysbuk" səhifəsində bir-birimizdən hal-əhval tutmayaq, paylaşımlarımıza münasibət bildirməyək. "Azərbaycan" nəşriyyatında üz-üzə gələndə doğmalar kimi görüşürük. Onu vaxtilə çalışdığı "Vəfa" jurnalından tanımışam. Həmişə oturduğu yerdə görmüşəm və mənə elə gəlir ki, Allah da bu yeri elə onun üçün seçib. Görünür, bizi eyni dərd-sər birləşdirir.

Şöhlət Əfşar bu keşməkeşli dünyamızın deyərdim ki, ən iddiasız adamıdı. Yalnız bir iddiası, bir böyük arzusu var ki, o da dünymızın salamat olmasıdır. Keşməkeşli dunyamızı daha da çalxalamaq istəyənləri daim lənətləyir.

Şöhlət Əfşar şairdir, yaradıcı ruhu mənə yaxındır, doğmadır. Bu ruh, dərd bizi ortaq məxrəcdə birləşdirir. Yaradıcılığı ilə tanış olanda görürsən ki, heç kimə bənzəmir. Özünün yolu, dəst-xətti var, yaradıcılıq üslubu ilə diqqəti cəlb edir.

Şöhlət Əfşar qeyd etdiyim kimi dərd şairidir. Bu istiqamətdə yazan təklərdəndir. Təklər həmişə seçilirlər. Dərd şairi kimi bu yaxınlarda onun "Dərdnamə" kitabı işıq üzü görüb. Vaxtilə "Odlar yurdu" qəzetindən tanıdığım və yaradıcılığına hörmətlə yanaşdığım filologiya elmləri doktoru Abid Tahirli kitaba ön söz yazıb, maraqlı rəyi ilə Şöhlət müəllimi səciyyələndirib. Onu da qeyd edim ki, "Dərdnamə"ni Şöhlət Əfşar 44 günlük Vətən savaşından xeyli öncə yazıb və əsər bir il əvvəl işıq üzü görüb.

Mən dərddən ən çox yazan ustad Füzulini görmüşəm. Böyük Füzuli məhz elə həmin bəladan, yəni eşqə götürən bəladan bəhs edir. Ona görə bu bəlanın adına "bəlayi-eşq" deyir. Bugünümüzün dərdlərindən yazan isə Şöhlət Əfşardır. Dərd olayı, sıxıntı vaqiəsi, üzüntü səbəbi kamilliyə can verən həyat nəfəsidir. Dərvişin ruhu və eşqi öldükcə dərd onu dirildir. Dərdlərdən şikayət etmək aşiqin nöqsanıdır. Məhəmməd Füzuli demişkən:

***Ey Füzuli, ahu nalən incidibdir aləmi,***
***Gər bəlayi-eşq ilə xoşnud isən, qovğa nədir?***

Əsrlərdir ki, deyirlər: "Dərdim mənə dərman imiş". Niyə? Necə? Nə var dərd çəkməkdə bu qədər cazib olan? Dərd insanın mərifəti, yoxsa Allahın istəyidir? Dərdi insanmı qazanır, Allahmı verir? Suallar çox, cavab isə birdir: Dünyada baş verənlər fanidir, uzun sürən kabus və röya kimidir. Heç fərqi yoxdur, bu dünyada əyri, düz, çirkin, gözəl, nə baş verirsə, versin, əvvəldən sona bir aldanış, bir sərabdır. Fəqət, elə bu faniliyin içindəcə bir əbədiyyət gizlənib. Bu dünya bir qabığa bənzər ki, həmin nüvəni, həmin mayanı qoruyur. Dünya olmasa, həqiqət çılpaq qalar, hər kəsə yem olar. Məhz dünya adlı aldanış və görüntüdür ki, layiq olmayana eşqin həqiqətini göstərmir. Yalnız bu qabığı sındıra bilənlərdir çılpaq həqiqə sarılanlar. Dünyanı sındırmaq isə ona görə çətindir ki, bunu istəyən yoxdur

***

Dünya qabığı insanın köks qəfəsinə bənzəyir. Bu qəfəsin altında toxunulmaz qalan ürək öz həqiqətini hər zaman gizli saxlayır. Bu, yaradılışın gərəyi, xilqətin şəklidir. Ancaq ziddiyyət və tərs mütənasibliyin ölçü vahidi olan yaradılış anı əvvəldən sona qədər ziddiyyət və tərslik diktə edir. Belə olmasaydı, hər yaranan şey bizə uyar, mücadilə və ixtiyar adında heç nə olmazdı.

Allahın, yəni eşqin və həqiqətin məzhəri olan ürək köks qəfəsinin altında necə gizlənibsə, dünyada görünməyən və batini olan şey də dünyanın içində elə gizlənmişdir. Hər iki qabığı sındırmaq məhz dərdlə, fəlakətlə, ağrı-acıyla mümkün olur. Şöhlət müəllim demişkən:

***Allah dostu, yarıdır Ona inananların,***
***Zülmətdən xilas edər, yolun açar onların.***
***Kim Allahın varlığın danıb idrak etmədi,***
***Dağıldı öz tifaqı, muradına yetmədi.***

**("Minacat")**

O qəfəslə bağlı digər bir məsələ İlahi nurun, İlahi rəhmətin daxil olmaq istədiyi qəlbin qapılarının bağlı olmasıdır. Gerçəkdən də dünyəvi olan xoş gündə, dünyəvi məmnuniyyətin hökm sürdüyü anlarda Allah insana yaxın gəlmir. Nəinki yaxın gəlmir, hətta qaçır. Bunun öz məntiqi var. Belə ki, Allah özünü dünyanın batinində gizlətdi. Dünyanın zahiri ona pərdə oldu. İnsanın cismi də vücudu da belədir. Bədəni ilə əlləşən, yalnızca onu görən, onu hiss edən insan qəlbindən, yəni elə hər mənada özündən xəbərsiz qalır. Dünyanın da, cismin də pərdələdiyi nəsnənin adı Allahdır. Elə buna görə deyirlər ki, özünü tanıyan Allahı tanıyar. Özündən qafil olan Allahdan qafil olar. Çünki Allahı göylər, qanunlar, müəmmalar deyil, sən gizlətmisən, ey insan oğlu!

***Məhşər günü hökm edən ancaq Onun sözüdür,***
***Yer, göy, külli-aləmdə tək hökmüran Özüdür.***
***Kimsə cürət etməsin - "mən də haqqam" - deməyə,***
***Yalnız qüdrət Ondadır - "Ənəlhəqq!" - söyləməyə!***

**("Minacat")**

Dərdləri ilə baş-başa qalan Şöhlət Əfşar Vətənini çox sevir, onu əzizləyir, addım-addım varlığı, canı hesab edir, camalına, hüsnünə heyran qalır.

***Vətən, haqqa bağlısan, pozulmazdır ilqarın,***
***Sən şəhidlər yurdusan, əyilməz dağ vüqarın.***
***Hökm et, qarı düşmənə, qoy bilsin öz həddini,***
***Göstər külli-cahana gücünü, qüdrətini.***
***Şanlı istiqlalınla çiçək açıb növrağın,***
***Göylərə ucalıbdı Ay-ulduzlu Bayrağın.***

**("Azərbaycan")**

Bəli, 30 ilə yaxın zaman kəsiyində Vətənimizin, ülvi məhəbbətlə sevdiyi(miz) Azərbaycanın başının üstünü Qarabağ adlı qara bulud almışdı. Uzun illər torpağımızda gəzib, suyumuzu içib, təamlarımızı yeyib, süfrələrimizin başına ən əziz qonaq kimi oturtduğumuz ermənilərin xainliyi nəticəsində Qarabağ adlı məmləkətimizi xarici havadarlarının vasitəsilə iti caynaqlarına keçirən erməniləri ötən il Xalq-Prezident-Ordu birliyi öz yerini göstərdi, cənab Prezident İlham Əliyev "dəmir yumruğu" ilə bu azğınlara tutarlı cavab verdi. Bu tarixi günləri hamımız yaşadıq, Zəfərimizə hamımız sevindik. Bu barədə şeirlər, poemalar, ssenarilər yazıldı. Mənə elə gəlir ki, Şöhlət müəllim də "Azərbaycan" şeirini şanlı Qələbəmizə həsr edib:

***Bütövlük dastanı yaz, murada yetsin Şöhlət,***
***Azərbaycan, eşqinlə, bülbültək ötsün Şöhlət!***

***

Bu dünyada heç zaman qəflətə düşməyən yeganə şey qəflətin özüdür. Hər kəs hər an qafil ola bilir. Bəli, dərddir, bəladır insanı qəflət yuxusundan oyadan.

Bu mənada bütün dərdlərin ən gözəl və sürətli dərmanı dərd özüdür. Necə ki, Xətai deyir: "Bir dərdim var, min dərmanə dəyişməm".

Fani dünyanın özü kimi dərdləri də fanidir və gülüncdür. Bu dərdlərin yeganə mahiyyəti qısa müddətə də olsa, insanı öz nəfsindən ayırıb, Allaha yaxınlaşdırmaqdır. Lakin insan bunun fərqində olsa, nə gözəl olardı! Heyf ki, çoxluq, bəzən isə tam əksəriyyət dərdə, müsibətə düçar olduğunda bunu vasitə, fürsət, hədiyyə olaraq görmək əvəzinə daha da batır, bir günahdan başqa bir günah çıxarır




Şöhlət Əfşar "Dərdnamə"də tanınmış şair, ürfan əhli, "Ədalət" qəzetində çalışarkən imzasından tanıdığım Barat Vüsalla söhbət edir. Deyir:

***Gəl, başlayaq söhbətə, yola nərdivan qoyaq,***
***Nemət, səxa sahibi qoy bizə olsun dayaq.***
***Şöhlət həmyar olubdu göydə Günəşlə, Ayla,***
***Başlayır bu naməni tək Allahın adıyla!***

Abid Tahirlinin ön sözünə müraciət edək: "Şair Şöhlət Əfşar "Dərdnamə" kitabında verilmiş eyniadlı poemanı şərq klassiklərinə xas "Minacat"la başlayır, Allaha sevgi və şükranlığını dilə gətirir və Uca Yaradandan "təqvanı, ixlasını əsirgəməməyi", "ilham pərisi"nin ona könül bağlamasını istəyir. Bir çox müasir poema kimi, "Dərdnamə"nin də vahid süjet xətti yoxdur, şair fikir və düşüncələrini, duyğularını oxucuya səmimi və poetik bir dillə çatdırmaq üçün maraqlı üslub seçmişdir".

Şair bəzən dərdlənir, qəmlənir, şikayətlənir, bəzən gileylənir, bəzən qürurlanır, bəzən də qəzəb və hiddətini gizlətmir, çatışmamazlıqlara qarşı çıxır:

***Nədən yad oxuna Kaman oluruq?***
***Oğuz boyundanıq, türkdür dilimiz.***
***Gah ərəb, gah urus, alman oluruq,***
***Özümüz olmağa utanırıq biz!***

Yaxud başqa bir misrasında zəmanədən şikayətlənir, gənclərin keçmişimizdən uzaqlaşmalarını, bugünümüzə sayğısızlıqlarını dilə gətirir :

***Gənclər yad dəblərə meylini salıb,***
***Milli gələnəyə itibdi sayğı.***
***Xatirəyə dönüb, muzeydə qalıb,***
***Şəkinin, Basqalın ipək yaylığı.***

Görün hər iki misrada nə qədər həqiqət, mətləb gizlənib "Şuşanın nağılı" şeirində vurğunu olduğu Vətəni, Qarabağı, onun üzük qaşı Şuşanı belə vəsf edir:

***Ruhumu göylərdə naxış-naxış oymuşlar,***
***Ona "Qarabağ" - deyib yer üzünə qoymuşlar.***
***Qarabağ qızıl üzük, Şuşa onun qaşıdır,***
***Kuhi-Nurdan qiymətli dünyanın tək daşıdır.***
***Yenə şövqlə, həvəslə seyrə çıxdım Şuşanı,***
***Mən Şuşanı vəsf edim, oxucum, sən də tanı.***

Mənim aləmimdə insan mürəkkəb, müəmmalı bir sirrdir. Ən dərin qaranlıq, ən keçilməz qanun, ən çözülməz müəmma məhz insan özüdür. İnsan özünü aydınlatmadıqca, özünü sındırıb dağıtmadıqca, özünü çözmədikcə həqiqət heç bir zaman ortaya çıxmayacaq, insan bu dünyaya niyə gəldi, bilməyəcək və bu fani, zahiri, mənasız və keçici ömrü boşu-boşuna yaşayıb bitirəcək.

Şairlər həmişə qarışıq zamanın övladlarıdır, daha doğrusu, zamanın qarışıqlığını görən, duyan göz, ürək sahibləridir. Çox harın bəndələrin çalıb-çapdıqları, az qala dünyanın yarısını udmaq üçün nəfsinin quluna döndüyü məxluqları - "torpaqdan göbələk kimi çıxan, qafiyələri eyni biçimdə düzən" qrammofon sözbazları dəyirmana ölü salsalar, o başdan diri çıxarlar.

Şöhlət Əfşar da yaradıcılıq boyu nə demək istədiyini anlatmağa çalışır, dərdlərini göz yaşına çevirir, içini misraların gücü ilə boşaldır, yuxularını aləmə car çəkir, dilinin qubar olduğunu poeziyanın vasitəsilə izhar edir:

***Nə qədər yuxularda görəcəyik biz səni?***
***Nə qədər paramparça görəcəyik Vətəni?!***
***Bilinmir baharımız, bilinməyir qışımız,***
***Dərddən, qəmdən, kədərdən qurumur göz yaşımız.***
***Allah, uzalı qalıb dərgahına əlimiz,***
***Sənə dua etməkdən qubar olub dilimiz.***

Sözə vurulan şairlər məsum körpə kimidirlər. Körpəni bir rəngbərəng kağızlı konfetlə ovundurmaq asan olduğu kimi, söz aşiqini də bir bənd şerinin əzbər söyləməklə sevindirmək mümkündür. Onun,-

***Sevən də sevənin de, unudar ki?***
***Unuda bilirsən, sənə nə var ki...***
***Daha təsəllilər nəyə yarar ki,***
***Səni sevən öldü, xəbərin varmı?***

və yaxud:

***Ərşə ucalıbdı eşqin harayı,***
***Fələk alt-üst edir saydığım sayı,***
***Sən qədər məhkumu, mən özgə payı,***
***Bu dəli sevdadan çəkərsən çilə,***
***Sən məni sevməyə tələsmə hələ.***

- misralarını söyləsəm, Şöhrət müəllimin qəlbi sevincdən qürurlanar. 3 bəndlik misralarda - səmimi duyğularda sevinclə təəssüf qolboyundur

**Və sonda. Bu kitabı şəxsən mənə təqdim edərkən Şöhlət müəllim özünün dahi Nizamiyə həsr etdiyi yazısından ağızdolusu danışdı, Nizami ilində bunun böyük yaradıcılıq məhsulu, ustadın adına layiq olan bir yazı kimi qeyd etdi. Söhbətimiz boyu dindən, imandan, tarixdən bolluca danışan Şöhlət Əfşarı bir daha kəşf etdim. Bir saata yaxın söhbətimiz zamanı anladım ki, o, söz qədri bilən yazarlardandır. Yaxşı sözün, yaxşı şeirin və yazının sərrafıdır. Bu gün sözün "taxt"dan salındığını da özünə dərd eləyib. Bu gün jurnalistikanın da, yazarların təkcə problemi yazmaqdır. Qalan hər şeyi bilirlər. Bu dərddən bir vətəndaş, sonra bir jurnalist və yazıçı kimi ürək ağrısıyla danışır. Bilirəm ki, belə adamlar heç nə demədən bir yaxşı sözün uğrunda özlərini asarlar.**

**Amma yaxşı ki, varsınız. Söz qədər ömrünüz olsun, Şöhlət Əfşar...**

**Daşdəmir ƏJDƏROĞLU**

# "Universal Döyüş"çülərimizin dünya çempionatında çıxışı uğurla başlayıb



**Artıq xəbər verildiyi kimi, 2021-ci il 8-12 dekabr tarixlərində Türkiyənin Antalya şəhərində Aydınbey Queens Hoteldə Universal Döyüş idman növü üzrə növbəti dünya çempionatı keçirilir. Azərbaycan Universal Döyüş Federasiyasından (UDF) aldığımız məlumatda deyilir ki, dünən çempionatın ilk təsnifat döyüşləri keçirilib. Bu döyüşlərdə iştirak edən 12 idmançımızdan 8-i qələbə qazanıb. 7 universal döyüşçümüz isə artıq özlərini yarımfinala vəsiqə ilə təmin ediblər. Yığmanın digər üzvləri yarışlara bu gün qatılacaqlar.**

Bir daha xatırladaq ki, dünya çempionatında Universal Döyüş idman növü üzrə Azərbaycan yığma komandası 32 nəfərlik heyətlə ölkəmizi təmsil edir. Bütün idmançılarımıza uğurlar diləyirik və onların qələbə xəbərlərini səbirsizliklə gözləyirik!


8 saylı Ərazi Vergilər İdarəsi tərəfindən 22.08.2005-ci ildə dövlət qeydiyyat nömrəsi 0605-F6-310 olmaqla "Zaur MMC"-nin adına verilmiş 7500121251 saylı VÖEN itdiyi üçün etibarsız sayılır.

***

Ucar "Avtonəqliyyat" ASC-nin "Emisiya prospekti" itdiyi üçün etibarsız sayılır.

***

Fövqəladə Hallar Nazirliyinin Bakı Regional Mərkəzinin zabiti Vedetov Cahangir Nadir oğlunun adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

***

Kürdəmir rayon Aqrar İslahat Komissiyasının 24.07.2004-cü il tarixli 01 saylı qərarı ilə Əliyev Qəhrəman Miri oğlunun adına verilmiş A N 013659 nömrəli 399 kv.m fərdi yaşayış evi tikmək üçün torpaq sahəsinin plan-ölçü sənədləri itdiyi üçün etibarsız hesab edilir.


Aqil Abbas və Əbülfət Mədətoğlu Ağcabədi rayon İcra Hakimiyyəti başçısının müavini **Rövşən Əhmədova** əmisi

**Şəfayət kişinin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Faiq Qismətoğlu sinif yoldaşı

**Uğur Babaşovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə və doğmalarına dərin hüznlə başsağlığı verir.

Əbülfət Mədətoğlu **Etibar Hümbətova** əzizi

**Emilin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 145
Çapa imzalanmışdır: 10.12.2021